Xalqın qəzeti!

# Xalq qəzeti

№ 68 (30472) 3 aprel 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Ermənistan KTMT-dən çıxmağı niyə Azərbaycanla sülhdən vacib sayır?



Səhifə ⇨ 4

## Azərbaycan – Türkiyə dostluğu gücümüzə güc qatır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə "ASELSAN" şirkətinin baş direktoru Ahmet Akyol, "ASFAT" şirkətinin baş direktoru Behçet Karataş, "HAVELSAN" şirkətinin baş direktoru Mehmet Akif Nacar, "Maşınqayırma və Kimya Sənayesi" şirkətinin baş direktoru İlhami Keleş, "REPKON Grup" şirkətinin prezidenti İbrahim Külekçi, "ROKETSAN" şirkətinin baş direktoru Murat İkinci, "Müdafiə Texnologiyaları və Mühəndislik" şirkətinin baş direktoru Özgür Güleryüz, "Türkiyənin Aviasiya və Kosmos Sənayesi - TUSAŞ" şirkətinin baş direktoru Temel Kotil daxildir.

Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən hərbi və müdafiə sənayesi sahəsində uğurla inkişaf etdiyi qeyd olundu, Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişlənməsi işinə töhfə verəcəyi vurğulandı.

Prezident İlham Əliyev Türkiyə hərbi sənaye kompleksinin məhsullarının keyfiyyət və səmərəliliyə görə artıq dünya səviyyəsində məşhurlaşdığını məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı, eyni zamanda, Azərbaycanda müdafiə sənayesinin inkişafı ilə bağlı ciddi addımların atıldığını vurğuladı və bu baxımdan Türkiyənin aparıcı şirkətlərindən ibarət nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını dedi.

*(ardı 2-ci səhifədə)*

## Aprel müharibəsi ilə bağlı 13 məqam

*4 günün açdığı yoldan 44 gündə zəfərlə keçildi*



**Aprel müharibəsindən 8 il ötür. O müharibədən ki, xalqımıza 44 günlük savaşdakı Zəfərin müjdəsi idi. Bəli, 2016-cı ilin 1–4 aprel tarixlərində Azərbaycan Ordusu 1994-cü il atəşkəsindən sonra ilk dəfə olaraq düşmənə gücünü göstərdi. Bu güc nümayişi adi məsələ sayıla bilməzdi. Onun arxasında hər bir azərbaycanlının Qarabağ itkisi ilə barışmazlıq əzmi dayanmışdı. Nəzərə alaq ki, 8 il əvvəlin bu günlərində hər şey ondan 4 il sonranın sentyabrını xatırladırdı. 2020-ci ilin 27 sentyabr tarixini.**



Qətiyyətlə deyə bilərik ki, 2016-cı ilin Aprel müharibəsi nəinki hərb tariximizdə, eyni zamanda, müasir Azərbaycan tarixində misli-bərabəri olmayan şücaət salnaməsidir. O müharibə bizi özümüzə qaytardı. Həm özümüzə qaytardı, həm də düşmənlərimizi qəflət yuxusundan ayıltdı. Aprel döyüşlərinin ən böyük anlamı elə budur. Ermənistanın siyasi rəhbərliyi, eləcə də beyin mərkəzləri, habelə xaricdəki ermənipərəst dairələr həmin vaxtadək qurduqları planların iflasa uğradığının şahidi oldular.

Ümumən, 2016-cı ilin aprelinədək Ermənistanın hərbi-siyasi rəhbərliyində və politoloq-ekspert cameəsində bir neçə fikir hakim idi. Yazımızda həmin fikirlərə onların reallıqdan uzaqlığı kontekstində izah verəcəyik. Əlbəttə, mövcud kontekstdə dördgünlük müharibənin doğurduğu durumun da təhlilini aparacağıq.

*(ardı 5-ci səhifədə)*

## Cənubi Qafqaz amili və Vaşinqtonun səmimiyyət dozası



Səhifə ⇨ 4

## Rumıniya ölkəmizin Avropa dostu və tərəfdaşıdır



**Rumıniya Azərbaycanın Avropa məkanında fəal əməkdaşlıq etdiyi ölkələrdəndir. Ölkəmizin müstəqilliyini tanıyan ilk dövlətlərdən biri də məhz Rumıniya olub. İki ölkə arasında diplomatik əlaqələrin əsası isə 1992-ci il iyunun 19-da qoyulub.**

Ötən müddətdə Azərbaycan və Rumıniya arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin genişləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Bunun da nəticəsində ölkələrimiz arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Hazırda Azərbaycan və Rumıniya enerji, nəqliyyat, turizm, kənd təsərrüfatı, səhiyyə və mədəniyyət sahələrində uğurla əməkdaşlıq edirlər.

Avropa İttifaqının strateji tərəfdaşı olan Azərbaycan Rumıniyanın Cənubi Qafqaz regionunda mühüm enerji müttəfiqidir. 2022-ci il dekabrın 17-də Prezident İlham Əliyevin Buxarestə səfəri çərçivəsində Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlığa dair imzalanmış saziş bu baxımdan müstəsna əhəmiyyət kəsb edir. Ölkələrimiz arasında bir sıra mühüm sahələrdə uzunmüddətli əməkdaşlıq üçün baza rolunu oynayan bu mühüm sənəd Avropa İttifaqını Cənubi Qafqazdakı tərəfdaşlarına daha da yaxınlaşdırmaqla yanaşı, təmiz enerjiyə keçidin sürətləndirilməsi üçün də əlverişli imkan yaradır.

Ölkələrimiz arasında iqtisadi münasibətlərin dərinləşməsi ticarət əlaqələrinin də getdikcə genişləndirilməsi üçün əlverişli imkan yaradır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2023-cü ildə Azərbaycanın dost Rumıniya ilə ticarət dövriyyəsi əvvəlki illə müqayisədə təqribən 30 faiz artaraq 670 milyon ABŞ dollarına çatıb. Ticarət dövriyyəsinin böyük hissəsini – 605 milyon ABŞ dollarını Azərbaycandan Rumıniyaya ixrac təşkil edib.

*(ardı 7-ci səhifədə)*

## ABŞ Ermənistanı militarizmə sürükləyir



Səhifə ⇨ 3

## Azərbaycanın maliyyə sistemi davamlı inkişafa meydan açır



Səhifə ⇨ 7

## Bakının Fransa neokolonializmi ilə mübarizəyə dəstəyi



**Azərbaycanın sədrliyi altında Bakı Təşəbbüs Qrupunun fəaliyyəti beynəlxalq ictimaiyyətin Fransanın keçmiş müstəmləkələrində aktivliyini qoruyub saxlamaq istəyi barədə məlumatlılığının artmasına mühüm töhfə verib.**

Bu barədə Yeni Kaledoniya parlamentinin Ailə və Qadın Məsələləri üzrə Komissiyasının sədr müavini Mari-Lin Sakiliya deyib.

Onun sözlərinə görə, Fransa siyasəti hazırda Sakit Okean regionunda siyasəti keçmişdəki, daha doğrusu, 1960-cı illərdəki fəaliyyətindən heç nə ilə fərqlənmir.

*(ardı 3-cü səhifədə)*

## Bizdə uşaq futbolu niyə yoxdur?



Səhifə ⇨ 10

# Azərbaycan – Türkiyə dostluğu gücümüzə güc qatır



(əvvəli 1-ci səhifədə)

Qəbula görə minnətdarlığını bildirən Haluk Görgün böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etməklərindən məmnunluq duyduqlarını vurğuladı və Türkiyə müdafiə sənayesinin əsasını təşkil edən nüfuzlu şirkətlərin rəhbərlərinin burada təmsil olunduqlarını bildirdi. Haluk Görgün səfər çərçivəsində Türkiyə nümayəndə heyətinin tərkibində olan şirkətlər ilə Azərbaycan müdafiə sənayesi şirkətləri arasında bir neçə istiqamətdə birgə fəaliyyətlə bağlı anlaşma memorandumlarının imzalanması barədə dövlətimizin başçısına məlumat verdi.

Türkiyənin Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Ramazan ayı münasibətilə təbriklərini və bu müqəddəs ayın Azərbaycan üçün xeyirli və bərəkətli olması ilə bağlı arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını bildirdi.

Haluk Görgün Azərbaycanın Vətən müharibəsində əldə etdiyi inamlı Zəfəri vurğulayaraq İlham Əliyevin prezident seçkilərində qalib gəlməsini bir-birinin ardınca qazanılan qələbə hadisələri kimi qiymətləndirdi. O, prezident seçkilərindən sonra dövlətimizin başçısının bu ilin fevralında Türkiyəyə rəsmi səfərinin əlaqələrimizin inkişafında rolunu qeyd etdi.

Sonda Azərbaycan Prezidentinə xatirə hədiyyəsi təqdim olundu.



## “Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 19 fevral tarixli 1792 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 19 fevral tarixli 1792 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 312 (Cild I) 1-ci hissəsində “Fikrət Məmmədov” sözləri “Fərid Əhmədov” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 aprel 2024-cü il**

## Vilayət Eyvazov sıra baxışı keçirib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 2-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 205 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 24 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

**XQ**

## Naxçıvanla sərhəddə mövqelərimiz atəşə tutulub

**Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan istiqamətindəki mövqeləri atəşə tutulub.**

Bu barədə XQ-yə Müdafiə Nazirliyindən bildirilib.

"Aprelin 1-i saat 22:00-dan 22:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Arazdəyən, Qarakilsə rayonunun Saybalı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad və Şahbuz rayonunun Biçənək yaşayış məntəqələri istiqamətlərindəki mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub", – nazirlik açıqlayıb.

**XQ**

## Konqo COP29-u dəstəkləyir

**Konqo Demokratik Respublikasının ətraf mühit, davamlı inkişaf və hövzə üzrə naziri xanım Arlette Soudan Nonault ilə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.**



Görüşdə Azərbaycanın bu il ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

**XQ**

# Müsəlman Ağsaqqalları Şurası İslam irsinə təcavüzü pisləyir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalamı qəbul edib.**

Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində böyük səylər göstərdiyini qeyd edən dövlətimizin başçısı 2020-ci ildə işğaldan azad edilmiş Şuşa şəhərinin “İslam dünyasının mədəniyyət paytaxtı” elan olunduğunu xatırlayaraq bu qərarın bütün İslam dünyasının Azərbaycana göstərdiyi böyük dəstəyin təzahürü olduğunu bildirdi və gələn ay Şuşada təntənəli tədbirlərin keçiriləcəyini məmnunluqla vurğuladı.

Məhəmməd Əbdülsalam Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhərin şeyxi, böyük imam Əhməd Ət-Tayyib həzrətlərinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Əhməd Ət-Tayyib həzrətlərinə çatdırmağı xahiş etdi.

Qonaq şeyx həzrətlərinin Prezident İlham Əliyevin sülhün bərqərar olması istiqamətində göstərdiyi səyləri yüksək dəyərləndirdiyini vurğuladı. O qeyd etdi ki, müharibədən çıxmış Azərbaycanın dövlət başçısının öz çıxışlarında sülhə çağırışları heyrətamizdir və təsadüfi deyil ki, Prezident İlham Əliyevin saxlanılan şəxslərin mübadiləsi və sülhün bərqərar olunması istiqamətində irəli sürdüyü təşəbbüsdən sonra Müsəlman Ağsaqqalları Şurası bəyanatla çıxış edib.

Dövlətimizin başçısı dedi ki, Azərbaycanın 28 ildən artıq müddətdə Ermənistanın işğalı və hərbi təcavüzü ilə üzləşməsinə baxmayaraq, məhz ölkəmiz 44 günlük Vətən müharibəsindən sonra Ermənistan ilə münasibətlərin normallaşdırılması və Cənubi Qafqazda davamlı sülhün təmin olunması üçün sülh müqaviləsi təşəbbüsü ilə çıxış edib. Prezident İlham Əliyev işğal dövründə Ermənistan tərəfindən Azərbaycanın maddi-mədəniyyət nümunələrinin, həmçinin İslam dininə aid ibadət ocaqlarının dağıdıldığını, bu xüsusda həmin ərazilərimizdə olan 67 məsciddən 65-nin tamamilə darmadağın edildiyini vurğuladı. Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycanın həyata keçirdiyi bərpa-quruculuq işlərini qeyd etdi.

COP28-də iqlim naminə dini pavilyon təşkil olunduğunu və 4000-dən çox insanın bu pavilyonu ziyarət etdiyini diqqətə çatdıran qonaq qeyd etdi ki, Əl-Əzhərin şeyxi, böyük imam Əhməd Ət-Tayyib həzrətlərinin birbaşa dəstəyi və onun Roma Papası ilə birgə əməkdaşlığı şəraitində COP28-də dünyanın 30-dan çox dini liderinin iştirakı ilə tədbir keçirilib və bu tədbirdə dini liderlər qlobal iqlim dəyişikliyinin qarşısının alınması istiqamətində “Vicdan çağırışı” adlı bəyanat imzalayıblar. O, COP29 çərçivəsində də ev sahibi olaraq Azərbaycanla əməkdaşlıq şəraitində belə bir tədbiri keçirmək niyyətində olduqlarını dedi.

Prezident İlham Əliyev dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqində Azərbaycanın mühüm rol oynadığını vurğulayaraq, bu xüsusda Bakıda keçirilən mötəbər tədbirlərə toxundu. Dövlətimizin başçısı yaxın zamanda ICESCO, UNESCO və BMT-nin Sivilizasiyalar Alyansının dəstəyi ilə Azərbaycanda Mədəniyyətlərarası Dialoq Forumunun yenidən keçiriləcəyini bildirdi. Prezident İlham Əliyev COP29 çərçivəsində də Azərbaycanın dinlərarası dialoqun təşviqinə dəstək verməyə, bunun bir nümunəsi kimi dünya dini liderlərinin görüşünün keçirilməsinə və bu sahədə əməkdaşlığa hazır olduğunu vurğuladı.

Söhbət zamanı İslam dünyasında məzhəblərarası dialoqun vacibliyinə toxunuldu, bu xüsusda Azərbaycanın nümunəsi uğurlu örnək kimi məmnunluqla qeyd olundu.

***AZƏRTAC***

# XİN-də görüş və qəbullar



**Aprelin 2-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə səfəri çərçivəsində Konqo Respublikasının xarici işlər və əməkdaşlıq naziri Jan-Klod Qakossonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Ceyhun Bayramov və Jan-Klod Qakosso arasında təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Geniş tərkibdə görüşdə ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli platformalarda mövcud əməkdaşlıq, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına hazırlıq işləri (COP29), habelə regional vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycan ilə Konqo arasında beynəlxalq təşkilatlar, xüsusilə BMT və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstək və faydalı əməkdaşlığın məmnunluq doğurduğunu diqqətə çatdırıb.

Ölkəmizin QH-yə sədrliyi dövründə Afrika ölkələri ilə münasibətlərin daha da inkişaf etdirildiyini qeyd edən nazir Ceyhun Bayramov Azərbaycanın bundan sonra da mövcud əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirib.

Görüşdə nazirlər Konqo Prezidentinin ölkəmizə səfəri zamanı imzalanması nəzərdə tutulan iki ölkə arasında əməkdaşlıq haqqında birgə bəyannamə və digər rəsmi sənədlərin münasibətlərin daha da dərinləşməsinə xidmət edəcəyinə dair əminlik ifadə ediblər.

Tərəflər iki ölkə arasında mədəni əlaqələrin daha da genişləndirilməsi, mədəniyyət sahəsində festivalların keçirilməsinin faydalı ola biləcəyini bildiriblər.

Nazir Jan-Klod Qakosso Azərbaycana səfərindən məmnunluq duyduğunu, ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın



inkişafı üçün potensialın mövcud olduğunu və bu imkanlardan istifadə edilməsinin əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

***

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalam ilə də görüşüb.**

Görüşdə Müsəlman Ağsaqqalları Şurası ilə əməkdaşlıq məsələləri, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri, beynəlxalq səviyyədə İslam dininə qarşı təhdidlər, dini həmrəylik məsələləri müzakirə olunub.

Nazir ölkəmizin İslam dünyasında birlik və həmrəyliyin təşviqinə böyük əhəmiyyət verdiyini, bu istiqamətdə ikitərəfli, o cümlədən regional və beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli səviyyələrdə qarşılıqlı dəstək və əməkdaşlığın inkişafının vacibliyini qeyd edib.

Baş katib Məhəmməd Əbdülsalam Azərbaycanın İslam dünyasında əməkdaşlığa verdiyi töhfələrin, eləcə də postmünaqişə dövründə sərgilədiyi mövqe və sülh təşəbbüsü ilə çıxış edən tərəf olmasının təqdirəlayiq hesab edildiyini diqqətə çatdırıb. Ötən ilki təcrübəyə uyğun olaraq, bu il də COP29 çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə ilə əlaqədar dini liderlər tərəfindən birgə təşəbbüslərin irəli sürülməsinin əhəmiyyətli olduğu qeyd edilib.

***

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Ukraynanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevskini diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.**

Görüşdə Azərbaycanla Ukrayna arasında strateji tərəfdaşlıq münasibətlərinin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub və əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüşdə Ukrayna tərəfi Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımın ölkəsi üçün əhəmiyyətini vurğulayıb və buna görə minnətdar olduqlarını qeyd edib.

**XQ**

# ABŞ Ermənistanı militarizmə sürükləyir



**Aprelin 5-də Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinken arasında Brüsseldə keçiriləcək görüş Azərbaycanda diqqətlə izlənilir. Rəsmi Bakı görüşdən narahatlıq duyduğunu bəyan edib. Bu da səbəbsiz deyil. Çünki burada söhbət beynəlxalq birliyin sivil üzvü olan, hüququn aliliyini tanıyan hansısa dövlətdən deyil, Ermənistandan gedir. Ermənistan isə Azərbaycana qarşı təcavüzkar müharibə aparmış, bunun nəticəsində torpaqlarımızın 20 faizini işğal etmiş, bir milyondan çox soydaşımızı qaçqın və məcburi köçkünə çevirmiş, xalqımıza qarşı silsilə terror aktları törətmiş, genosidə, ekosidə, urbisidə imza atmış, işğal etdiyi ərazilərdə separatçı xunta rejimi yaratmış, onun inkişafına hər cür dəstək göstərmiş başabəla bir dövlətdir.**

Rəsmi İrəvan 1994-cü ildən 2020-ci ilədək məsələnin, guya, sülh yolu ilə həllinə nail olmaq üçün Azərbaycanla danışıqlar apardı. Əslində, imitasiya ilə məşğul oldu. Təcavüzkar ölkə BMT-nin üzv dövlətlərinin qeyd-şərtsiz Azərbaycan ərazilari kimi tanıdığı torpaqların danışıqlar yolu ilə bir qarışını da qaytarmadı. Beləliklə, İkinci Qarabağ müharibəsinin başlanmasına rəvac verdi. Müharibə Ermənistanın tam məğlubiyyəti ilə başa çatdı. Ancaq müharibədən ötən 3 ilə yaxın dövrdə İrəvan "bəlkə də qaytardılar" xülyası ilə yenə öz əməllərindən qalmadı. Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasına hər vəchlə mane oldu. Ermənistan baş nazirinin 2023-cü il sentyabrın 2-də "Dağlıq Qarabağın müstəqillik bəyannaməsi"nin qəbul edilməsinin 32-ci ildönümü günü ilə bağlı separatçılara təbrik məktubu ünvanlaması Azərbaycanın səbr kasasını daşırdı. Nəticədə "dəmir yumruq" yenidən işə düşdü. Bir günlük antiterror tədbirləri Azərbaycan ərazilərində erməni separatizminin kökünün tamamilə kəsilməsinə gətirib çıxardı.

Bunları xatırlatmaqda məqsədimiz Avropa Komissiyasının və ABŞ-nin necə bir dövlətə dəstək verməyə, o cümlədən hərbi kömək göstərməyə hazırlaşdıqlarını göstərməkdir. Nəzərə almaq lazımdır ki, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi hələ də imzalanmayıb, dövlətlərarası münasibətlər yaradılmayıb. İki ölkə arasında dövlət sərhədinin delimitasiya və demarkasiyası həyata keçirilməyib. İrəvan hələ də Azərbaycanın 8 kəndini işğal altında saxlamağa davam edir. Eyni zamanda, sürətlə silahlanır. Fransadan, Hindistandan silah-sursat və hərbi texnika alır. Üstəlik, ABŞ-nin əsas düşmənlərindən olan İranla əməkdaşlığı genişləndirir. Elə bugünlərdə Azərbaycan Müdafiə Nazirliyi tərəfindən şərti sərhədin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin bölmələrinin və döyüş texnikasının cəmləşdirilməsi barədə rəsmi məlumat yayıldı. Qeyd edildi ki, şərti sərhədboyu Ermənistanın qoşunlarını cəmləşdirməsi və hücum xarakterli dayaq məntəqələri qurması, müxtəlif istiqamətlərdə uzunmüddətli atəş nöqtələri yaratması, fortifikasiya qurğuları inşa etməsi bölmələrimizin sərəncamında olan xüsusi texniki vasitələr və vizual müşahidə ilə qeydə alınıb. Yeni inşa edilmiş dəmir-beton fortifikasiya qurğularında Ermənistan silahlı qüvvələrinin artilleriya sistemləri, digər hücum silahları və ağır atəş vasitələri yerləşdirilir.

Məsələnin maraqlı tərəfi ABŞ-nin tutduğu mövqedir. ABŞ BMT Nizamnaməsinə görə, dünyada sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyan və daimi fəaliyyət göstərən ali orqan olan Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biridir. Vaşinqton dəfələrlə sülh müqaviləsinin imzalanmasında maraqlı olduğunu bildirib. Ötən il Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bir neçə görüşünə evsahibliyi edib.

Ağ evin və Dövlət Departamentinin bu mövqeyi ölkəmizdə haqlı narazılıq doğurub. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Aİ–Ermənistan–ABŞ görüşü ilə bağlı medianın suallarına cavab olaraq bildirib ki, Azərbaycan 30 ilə yaxın silahlı təcavüzün, işğalın və etnik təmizləmənin qurbanı olduğu halda və hətta, BMT TŞ-nin Ermənistanın işğalçı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə baxmayaraq, heç zaman Aİ və ABŞ-dən bu formada dəstək almayıb.

A.Hacızadə qeyd edib ki, Aİ və ABŞ tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır və ikili standart yanaşmasına əsaslanır: "Sözügedən konfrans tam şəffaf şəkildə keçirilmir, regional inklüzivlikdən məhrumdur və regionda təşviq edilən və çox ehtiyac duyulan etimad quruculuğuna və inteqrasiyaya ziddir. Bu konfrans, erməni tərəfini xoş niyyətlə danışıqlara sövq etmək əvəzinə, regionda yeni bölücü xətlər və "təsir dairələri" yaradır".

XİN sözçüsü onu da bildirib ki, Ermənistandakı revanşist əhval-ruhiyyə fonunda Vaşinqton və Brüssel tərəfindən bu kimi açıq ermənipərəst ictimai təzahür İrəvanın Azərbaycana qarşı yeni mümkün təxribatlarında Aİ və ABŞ-nin Hayastanı dəstəkləyəcəyinə dair bu ölkədə təhlükəli illüziya yarada bilər. Bu halda, Aİ və ABŞ Ermənistanın sabitliyi pozan hər hansı mümkün hərəkətinə görə məsuliyyəti bölüşəcəklər.

Sözsüz ki, Brüssel və Vaşinqtonun İrəvana bu dəstəyi göstərməkdə əsas məqsədlərindən biri də Ermənistanı Rusiyadan daha çox qoparmaqdır. ABŞ əsas düşmənlərindən olan Rusiyanı planetin hər yerindən, o cümlədən post-sovet məkanının Avropa və Asiyanın kəsişməsində yerləşən, mühüm kommunikasiya xətlərinin keçdiyi Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq istəyir.

Ermənistan hökuməti isə artıq Qərblə əməkdaşlığın daha prioritet olduğunu bəyan edib. Paşinyan komandasının üzvləri bu barədə açıq danışmasalar da, sirr deyil ki, onlar Rusiyanı öz hökumətlərinə təhdid kimi görürlər. Belə olan təqdirdə, demonlaşdırdıqları Rusiyadan "qorunmaq üçün" Qərbə daha çox sığınırlar. Onu da qeyd edək ki, Paşinyan bir müddət öncə Qərblə əməkdaşlığı genişləndirmək üçün daha nələr edə biləcəkləri istiqamətində düşündüklərini açıqlamışdı. Güman etmək olar ki, Brüssel görüşü bu düşüncələrin nəticəsi kimi meydana çıxıb.

**Türkiyənin Azərbaycandakı səfirliyinin sabiq hərbi attaşesi, ehtiyatda olan general-mayor Yücel Karauz**



deyib ki, Vaşinqton Cənubi Qafqazı poliqona çevirmək istəyir. Onun sözlərinə görə, ABŞ-nin dünyada 100-dən çox hərbi bazası var. Bu bazaların saxlanılmasına ildə təxminən 200 milyard dollar vəsait xərclənir: "Təbii ki, ABŞ onları səbəbsiz yerə, yeni münasib olmayan yerlərdə açmır. Həmin bazalar sülhün və əmin-amanlığın təmin olunması-na deyil, ABŞ-nin maraqlarına xidmət edir. ABŞ dünyanın müxtəlif yerlərində proseslərə bu bazalar vasitəsilə təsir etməyə çalışır. Müxtəlif vaxtlarda Gürcüstan, Ermənistan və Azərbaycanda baza yaratmaq cəhdləri olub. Amma bu cəhdlərin uğurlu olduğunu demək mümkün deyil".

Y.Karauzun sözlərinə görə, aprelin 5-də keçiriləcək görüş Ermənistanı qoruma paktı adlandırıla bilər: "Paktın imzalanmasının əsas məqsədi Rusiyanı Ermənistandan sıxışdırıb çıxarmaqdır. Eyni zamanda, Ermənistanın cənubdan İranla həmsərhəd olduğunu da unutmaq olmaz. ABŞ istəyir ki, Azərbaycan və Türkiyəyə təsir imkanlarını, proseslərə müdaxilə edə bilməyi qoruyub saxlasın. Təbii ki, bu hərəkətlər bölgəyə sülh, sabitlik və iqtisadi inkişaf gətirmir. Onların niyyəti Cənubi Qafqazı Yaxın Şərqin, Şimali Afrikanın gününə salmaqdır".

Türkiyəli hərbi ekspert qeyd edib ki, böyük dövlətlərin münaqişə və qarşıdurma vəziyyətində olması region üçün yaxşı heç nə vəd etmir: "ABŞ-nin addımları Cənubi Qafqazda söndürülmüş münaqişə ocağının yenidən alovlanmasına xidmət edir. Azərbaycan, Türkiyə, Rusiya, daha sonra İran buna müqavimət göstərməli, lazımi tədbirlər görməlidir. Türkiyə və Azərbaycan arasında mövcud siyasi, hərbi və iqtisadi əlaqələr artıq ABŞ-nin atdığı addımların iki dövlətə təsirini minimuma endirəcək gücə malikdir".



**Rusiyalı hərbi ekspert Aleksey Xlopotov** "Caliber.az" saytına bildirib ki, Brüssel görüşündən sonra Ermənistanın Rusiyadan ayrılması prosesi daha da sürətlənəcək: "Bəli, çox güman ki, belə olacaq. Bu görüşdən sonra Rusiya bazasının çıxarılması və Ermənistanın KTMT-dən çıxması prosesi əməlli-başlı sürətlənə bilər. Bu vəziyyətdə Rusiyanın nə edə biləcəyini söyləmək çətindir. Məncə, yeganə real təzyiq vasitəsi iqtisadi amildir. Rusiya Ermənistandan keçən paralel idxal dəhlizini bağlaya bilər. Amma bu, hər iki tərəf üçün ağrılı olacaq. Mənə Rusiyanın, ümumiyyətlə, heç nə etməyəcəyi daha real görünür. Ermənistan bazanı çıxarmaq qərarına gəlsə, Moskva formal şəkildə təəssüfünü bildirəcək və çıxaracaq. Bu variant daha çox ehtimal olunur. Çünki hazırda Rusiya Federasiyası üçün Ukraynadakı qoşun qruplaşmasını gücləndirmək daha vacibdir. Düşünürəm ki, Putin artıq Türkiyə və Azərbaycandan müəyyən təminatlar alıb və ona görə də Cənubi Qafqazdakı proseslərə ciddi şəkildə qarışmayacaq. Rusiyanın bu günün nə resursları, nə də təsirli vasitələri var".

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev** isə "XQ"yə açıqlamasında bildirdi ki, Aİ indiyədək Ermənistana



hərbi dəstək göstərdiyini gizlətmirdi və bu funksiyasını Fransaya həvalə etmişdi. İndi isə prosesə ABŞ də qoşulur: "Bugünlərdə ABŞ-dən gələn hərbi təlimatçıların Ermənistan ordusunun hərbi qulluqçularına təlim keçəcəyi açıqlandı. Bu ordu isə işğalçı ordudur. Belə bir ordu hazırda silahlandırılır. Bu, məsələnin birinci tərəfidir. Digər tərəfdən, Ermənistanı iqtisadi cəhətdən dəstəkləmək İrəvanın iddialarına dəstək vermək anlamına gəlir".

Politoloq qeyd etdi ki, Azərbaycan torpaqlarının 30 ilə yaxın işğal altında qaldığı dövrdə ölkəmizə, demək olar, iqtisadi yardım edilmirdi, yalnız qaçqınlara humanitar kömək göndərilirdi. Bu gün işğalçı ölkəyə yardım göstərmək isə onu dəstəkləmək deməkdir. Qərbin Ermənistana siyasi dəstəyi də açıq-aşkar ortadadır.

C.Vəliyev, həmçinin Ermənistanda ABŞ-nin hərbi bazasının yaradılmasını istisna etmədiyini vurğuladı. Dedi ki, bunun nümunəsi daha öncə Qırğızıstanda yaşanıb. Orada həm ABŞ-nin "Manas" adlanan bazası, həm də Rusiyanın hərbi bazası mövcud idi. ABŞ bazası bağlanıb, rus bazası isə qalıb.

*Səxavət HƏMİD*
*XQ*

# Bakının Fransa neokolonializmi ilə mübarizəyə dəstəyi

*(əvvəli 1-ci səhifədə)*

"Kanaki (Yeni Kaledoniya) kimi dövlətin suverenliyinin elan olunması əməkdaşlıq sazişlərinin imzalanmasına hazırlıqdır. Bu, Fransanın Sakit Okean regionunda Hindistan və Avstraliya kimi ölkələrlə imzalayacağı bir sıra ikitərəfli sazişlərin davamıdır.

Qeyd etmək lazımdır ki, Fransanın iqlim diplomatiyası dayanıqlı inkişaf və enerji təhlükəsizliyi arasında balans axtarışı üçün digər vasitələrdən də istifadə edir. Fransanın 2030-cu ilə qədərki müddət üzrə investisiya planı buna misaldır. Plan çərçivəsində Yeni Kaledoniya Energetikaya Keçid Sxemi (STENC) qəbul edib. Yeni Kaledoniyanın "energetikamızın ekologiyalaşdırılması konsepsiyası sayəsində" defisit yaşayan enerji təchizatı sistemi milliləşdirilib və Fransanın "ENGIE" şirkətinin törəməsi olan "EEC" şirkəti tərəfindən idarə olunur. Şirkət yerli nikel sənayesini inkişaf etdirməyə kömək edir", - deyə o bildirib.

Mari-Lin Sakiliya qeyd edib ki, Yeni



Kaledoniya şlakındakı böyük nikel ehtiyatları daha az potensiala malik olduğu hesab edilən paslanmaz polad istehsalının zərərinə Fransadan birbaşa xarici investisiyaların cəlb olunmasına imkan yaradacaq.

"Fransa hökumətinin "Prony Resources" və "Société Le Nickel" şənaye şirkətləri tərəfindən əldə edilən on milyardlarla İsveçrə frankı dəyərində bank kreditlərinə dair təminatı ilə eyni vaxtda elan edilən nikel böhranı sonuncuların yerli istehsalın zərərinə xam filiz ixracından asılılığını azaltmağa yönəlib və beləliklə, "xammala çıxış imkanının təmin olunması" ilə əlaqəli dekarbonizasiya problemlərinin həllində idarədən dövlətin cəlb olunma səviyyəsini müəyyən edir.

Yeni Kaledoniya nikel hasilatına 1876-cı ildə başlayıb və bunu indiyədək etməyə davam edir, ümumi istehsal (1876-2015) 6,21 milyon ton nikel və ya dünyada hasil olunan bütün nikelin 10,2 faizi olub.

Əfsuslar olsun ki, biz Fransanın "Fransa təhlükəsizliyi üçün yaxşı olan yerli hökumətin təhlükəsizliyi üçün də yaxşıdır və əksinə" siyasətinin şahidi oluruq. Lakin ilkin platforma siyasəti həyati əhəmiyyətli Sakit Okean məkanımız üçün heç də yaxşı deyil, çünki okeaniyalılar olan bizlərin fərqli dünya görüşü var.

Bizim Asiya-Sakit Okean mədəniyyətimiz digər milli strategiyalar və maraqlar üçün iqtisadi diplomatiya, xüsusən milli mətbəx, eləcə də, xammal tədarükü baxımından məkan təmin edir - bunların tükənməsi Asiya xalqlarının yox olmasına bərabər olardı ki, bu da ağlasığmazdır", - o deyib.

Komissiya sədrinin müavininin sözlərinə görə, 2020-ci ildən Fransa dəfələrlə Yeni Kaledoniyanı öz tərkibində saxlamağa çalışıb.

"Bu, üçüncü və sonuncu referendum rekord sayda iştirak etməyənlərlə yadda qalıb, hər ikinci seçicidən çoxu səsverməni boykot edib. Lakin nazirlər Sebastyen Lekorno və Jerald Darmanin "beləliklə yaranan vəziyyətə" cavab olaraq Yeni Kaledoniyanın institusional gələcəyinin müzakirəsinə başladılar və ikinci qanunvericilik referendumundan sonrakı gün 10-a qədər siyasi xadimin rəhbərliyi altında "Leprédour" qrupu yaradıldıqdan və imzalayanlar Komitəsini bağlı qapılar arasında dialoqla əvəz etdikdən sonra müzakirələrin formatını dəyişərək, buraya vətəndaş cəmiyyəti və yerli iqtisadi aktorları da daxil etdilər", – Mari-Lin Sakiliya son olaraq deyib.

*XQ*

**Köşə**

# İki gün sonra: Ermənistan nə qazanıb, nə itirəcək?!

*İndi zaman Ermənistanı sanki, avtomagistraldan kənd yoluna çəkir*



İmran BƏDİRXANLI
imranbedirxanlı01@gmail.com

**İrəvanın ABŞ – Avropa İttifaqı (Aİ) – Ermənistan üçlüyünün aprelin 5-də Belçika paytaxtında bu formatda ilk dəfə keçiriləcək görüşünə böyük ümidlər bəslədiyi, hətta sevindiyi sirr deyil. Ermənistan hakimiyyəti bunu heç gizlətmək belə istəmir. Axı niyə də sevinməsin? Dünyanın iki supergücü bir yerdə Hayastanı qucaqlarına alıb başını tumarlayacaq, guya, düşdüyü durumdan çıxış yolu göstərəcək, ortaq mövqe sərgiləyəcək və konkret qərarlar verəcəklər.**

Nikol Paşinyan iqtidarının bu görüşdən nəyi əldə etməyi hədəflədiyini təxmin etmək o qədər də çətin deyil. Onun birinci hədəfi Moskvadan tez və başağrısız ayrılmaqdır. Ssenariyə görə, bundan sonrakı hədəf sülh danışıqlarında Azərbaycanın qarşısına güclü və arxalı tərəf kimi çıxmaqdır. Bunu bacaracağı təqdirdə İrəvan Bakı ilə ikitərəfli danışıqları müharibədə məğlub olmuş ölkə kimi deyil, "bərabərhüquqlu opponent" qismində aparmağa və sülh sazişini də məhz bu statusda imzalayacağına ümid edir.

Sülh danışıqlarında üçüncü tərəfin iştirakından əlini hələ də tam üzməyən Ermənistan rəhbərliyinin bundan sonrakı davranışının xarakteri Brüssel görüşünün nəticəsindən asılı olacaq. Rusiyanın pəncəsindən mümkün qədər tez qurtulmaq! Paşinyan komandasının nail olmağa can atdığı strateji nəticə budur. Amma, bu, heç də kənardan göründüyü qədər asan deyil. Bu xüsusda rəsmi İrəvanın diqqətinə ABŞ-nin Müharibə Araşdırmaları İnstitutunun son hesabatında yer almış bir qənaəti çatdırmağımız gərəkdir: "Qərb Ermənistan üçün Rusiyanı əvəzləyə bilməz. Bu, xüsusilə Ermənistanın coğrafi mövqeyi ilə bağlıdır...". Məntiqi olduğu qədər də ibrətamiz qənaətdir.

Bəli, Ermənistan özünə təhlükəsizlik zəmanətini bölgədə deyil, uzaqlarda axtarmaqla ciddi səhvə yol verir. Hesabatda qeyd olunduğu kimi, Birləşmiş Ştatlar başda olmaqla, Qərb bu zəmanəti ona verə bilməz. Hayastanın Qərbin onun qulağına üfürdüyü yad notlara pərvazlanıb göylərdə süzmək əvəzinə, bölgədəki qonşularına, "3+3" formatlı "Qazqaz evi"nə nəzər salmaları daha məntiqli olmazmı? Yoxsa Fransanın başında durduğu Aİ və ABŞ kimi təmənnalı havadarlarına uyub iqtidarlı-müxalifətli cəmiyyətində radikal şovinizmin, revanşizmin daha da güclənəcəyini göz altına almalı olan Paşinyan iqtidarı indiki şərtlərlə Azərbaycanla sülhə gəlməyin vacibliyini, ondan gözlənilən addımları atmağın zəruriliyini arxa plana keçirməklə vəziyyəti bir az da qəlizləşdirəcək. Əlbəttə ki, yalnız özü üçün. Bakı isə İrəvana "gəl–gəl" deyənlərin əsl məqsədlərinin nə olduğuna, bölgəni nə üçün qarışdırmaq istədiklərinə təkrar aydınlıq gətirmiş olacaq.

İndi sağa–sola vurnuxan məğlub Hayastan üçün ən ciddi imtahan "tərəfdaşlarının" siyasi testindən deyil, zamanın sınağından çıxması olacaq. Zaman isə getdikcə daralır. Üç il altı aydır ki, Azərbaycanın, eləcə də Türkiyənin Ermənistana uzatdığı sülh və əməkdaşlıq əli havada asılı qalıb. Elementar məntiqə görə, əgər Paşinyan qloballaşan çağdaş dünyanın geosiyasi coğrafiyasında bu adda dövlətin qalmasını doğrudan da istəyirsə, bu halda nə Qərbin, nə də Şimalın deyil, qonşularının əlini sıxmalıdır. Həm də bunu mümkün qədər tez etməlidir. İki gün sonra Brüsseldə təzə heç nə baş verməyəcək. "Bütün təzələr yaddan çıxmış köhnələrdir" – postulatını haylara xatırlatmağın məqamıdır.

Yuxudan yenicə ayılıbmış kimi, təhlükəsizliyinə zəmanəti Alp dağlarının arxasındakı Fransada, yaxud okeanın o üzündəki ABŞ-da axtaran İrəvan keçmişdə qalmış, arxivə göndərilmiş bu uğursuz planlarından əl çəkməli, barıt qoxusu gələn tərəfi deyil, ona uzadılan sülhməramlı əli seçməlidir!

# Cənubi Qafqaz amili və Vaşinqtonun səmimiyyət dozası

## *Ağ ev korporativ maraqlarla strateji tərəfdaşlıq arasında gəzişir*

**ABŞ-nin İran üzrə xüsusi nümayəndəsi Abram Peylinin Cənubi Qafqaz ölkələrinə turnesi, ilk baxışda qəfil sayıla biləcək səfəri bölgədəki mövcud geosiyasi vəziyyətin nəzərə alınması baxımından o qədər də gözlənilməz deyildi. Xəbər verildiyi kimi, Ağ evin xüsusi elçisi region ölkələrinə səfəri çərçivəsində görüşdüyü yüksək səviyyəli rəsmilərlə "İran hakimiyyəti, sanksiyalara əməl olunması və Tehran rejiminin sabitliyi pozmağa yönəlik davranışları ilə mübarizədə davam edən səyləri" müzakirə edib.**



Bakıdan öncə İrəvanda olan A.Peyli İrəvanda Ermənistan xarici işlər nazirinin müavini Mnatsakan Səfəryan, Milli Təhlükəsizlik Şurasının üzvləri, Mərkəzi Bank rəsmiləri, Dövlət Gəlirləri Komitəsinin rəhbərliyi ilə, Tbilisidə isə Gürcüstan xarici işlər nazirinin müavini, Milli Bankın rəhbərliyi ilə görüşlər keçirib.

### Vaşinqton hara qədər səmimidir?

Əslində, ABŞ-nin müxtəlif ranqlı və çinli rəsmilərinin bölgəyə səfərlərinin leytmotivini məhz Bakı ilə təmasların qurulması məqamı təşkil edib. Çünki Ağ ev Azərbaycanın Cənubi Qafqazda aparıcı güc amilinə çevrildiyini yaxşı anlayır. Bakı ilə strateji tərəfdaşlıq münasibətləri qurmaq əvəzinə, hazırda rəsmi İrəvan və onun Qərbdəki tərəfdarları ilə anti–Azərbaycan cəbhəsində yer alan Vaşinqtonun bu yanlış mövqeyə gec–tez korrektələr edəcəyi qaçılmazdır. Ən azı bu reallığı nəzərə aldıqda ABŞ rəsmilərinin ölkəmizə səfər etmələri, burada ən müxtəlif formatlarda görüşlər keçirmələri bizdən daha çox onların marağındadır. İntəhası, onu da unutmamalıyıq ki, "demokratiyanın beşiyi"ndə müxtəlif lobbiçilər, ermənipərəst dairələr, Senat və Konqresdəki ayrı–ayrı qruplar ABŞ– Azərbaycan münasibətlərini zədələməkdən ötrü əllərindən gələni etməyə çalışırlar. Fəqət bütün bunlara baxmayaraq, hazırda Birləşmiş Ştatlarda ölkəmizin qədir–qiymətini bilən, həm yerləşdiyi geopolitik mövqeyinə, həm də Avropanın enerji təhlükəsizliyində oynadığı əhəmiyyətli roluna görə Azərbaycanı dəyərləndirən sağlam qüvvələr də az deyil. Bu kontekstdən yanaşanda, yəqin, ABŞ-nin İran üzrə xüsusi nümayəndəsi Abram Peyli də bu həqiqətləri bilməmiş deyil.

A.Peylinin Azərbaycana səfərinin və Bakıda keçirdiyi görüşlərin Yaxın Şərqdə baş verən hadisələr və Tehranın Cənubi Qafqazdakı rolu ilə birbaşa bağlı olduğu şübhəsizdir. Bu mənada ABŞ təmsilçisinin regiona səfəri və burada müəyyən müzakirələr aparması təbiidir. Xüsusi elçinin səfərinə aktuallıq və operativlik qatan amil kimi İranın Suriyadakı səfirliyinin İsrail tərəfindən raket atəşinə tutulması faktını göstərmək olar. Yaxın Şərqdə vəziyyət onsuz da qarışıq, münasibətlər tarıma çəkilmiş durumdadır. Səfirliyə raket zərbəsinin bu durumu daha da qəlizləşdirəcəyi şəksizdir. Son məlumatlara görə, hücum nəticəsində həlak olan 11 nəfərdən 7-si SEPAH-ın hərbi müşaviridir.

### Tehrandan səslənən "köhnə avazlar"

Aydın məsələdir ki, indi Tehran revanş barədə düşünür. İsrailə əli çatmadığına görə bölgədə nəzarəti altında olan silahlı qruplar vasitəsilə müəyyən addımlar atmağa çalışacaq. Bu versiyaya dəstək verən arqumentlərdən biri də İran parlamentində səslənən fikirlərdir. Cəlal Rəşidi Kuci adlı deputat İsraildən intiqam alınmasından danışarkən cəfəng və avantürist təkliflə çıxış edib. O, İsrailin Azərbaycandakı səfirliyinə hücum etmək planını irəli sürüb. "Sionistlərin bölgədəki diplomatik mərkəzlərindən birini, ən yaxşısı, Azərbaycandakı diplomatik nümayəndəliyini birbaşa hədəfə almaq lazımdır", – deyən deputat bununla həm də İsraillə Azərbaycan arasındakı normal əməkdaşlıq münasibətlərinə işarə vurub.

2023-cü ilin yanvarında Azərbaycanın Tehrandakı səfirliyində terror törədildiyi azlıq edirmiş kimi, indi də İran parlamentinin əmmaməli deputatları hökuməti İsrailin Bakıdakı səfirliyinə qarşı terror hücumu həyata keçirməyə çağırırlar. Əslində, bu qəbildən olan təxribatçı çıxışlara rəsmi Tehranın sakit yanaşması dini–siyasi rəhbərliyin də deputat Cəlal Rəşidi Kuç kimi düşündüyündən xəbər verir. Tehran rejiminin "repertuarından" belə radikal "mahnıların" hələ də çıxmadığına yalnız təəssüflənmək olar.

Qərbin və həmin ABŞ-nin İrana qarşı çeşidli ssenarilərində yer almayan Bakı bunun əvəzində Tehrandan həmişə qərəzli münasibət gördü. Hazırkı vəziyyətdə Ağ evin xüsusi elçisinin Azərbaycan rəsmiləri və bank sektorunun nümayəndələri ilə görüşündə Qərbin sanksiyaları altına düşən "Bank Melli İran" mövzusuna da toxunduqları real görünür. Həmin bankın filialı on illərdir ki, ölkəmizdə fəaliyyət göstərir. Yəni, Abram Peylinin sanksiyalarla bağlı dedikləri bu ehtimalı irəli sürməyə əsas verir. Ümumiyyətlə, bölgədə bank, maliyyə sistemləri ilə bağlı qəribə gəlişmələr müşahidə olunur. Məsələn, Ermənistanın əksər bankları Rusiyanın "Mir" ödəmə sisteminin xidmətlərindən imtina edib. Amma "İran Mellat Bankı"nın filialı İrəvanda 1996-cı ildən fəaliyyət göstərir. Bu bank Ermənistan və Rusiya bankları ilə İranın "Şetab" sistemi vasitəsilə əməkdaşlıq edir. Tehran və Moskvanın gündəliyində "Mir" – "Şetab" əməkdaşlığı layihəsi də var.

### Səmərəli atmosferə köklənən səfər

Qayıdaq Co Bayden Administrasiyasının yüksək çinli nümayəndəsinin Bakıya səfərinə. Bu səfəri çərçivəsində A.Peyli Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Xarici işlər nazirinin müavini Samir Şərifov, Azərbaycanın İrandakı səfiri Əli Əlizadə, habelə ABŞ-nin Azərbaycandakı səfiri Mark Libbi və onun israilli həmkarı Corc Diklə görüşlər keçirib. Həmin görüşlərin nəticələri barədə Ağ evin İran üzrə xüsusi elçisi A.Peyli bunları bildirib: "Bakıda Prezidentin köməkçisi Hikmət Hacıyev, xarici işlər nazirinin müavini Samir Şərifov, Azərbaycanın İrandakı səfiri Əli Əlizadə və bank sektorunun nümayəndələri ilə İran, sanksiyaların tətbiqi və regionla bağlı səmərəli müzakirələr apardıq".

ABŞ rəsmisinin Bakıda, həmçinin İsrailin səfiri Corc Diklə "İranın regionda sabitliyi pozan davranışlarını" müzakirə etməsi də diqqətdən yayınmayıb. A.Peyli həmin görüş barədə təəssüratını sosial şəbəkədə bu cür ifadə edib: "İsrailin Azərbaycanla tarixi və mədəni əlaqələri haqqında eşitmək çox xoşdur". Digər bir paylaşımında isə Ağ evin İran üzrə xüsusi elçisi yazır ki, "Cənubi Qafqaza səfərim səmərəli atmosferdə keçmişdir".

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi**

ABŞ-nin İran üzrə xüsusi elçisi Abram Peylinin Azərbaycana səfəri və Bakıda keçirdiyi görüşlər Yaxın Şərqdə baş verən hadisələr və Tehranın Cənubi Qafqazdakı rolu ilə birbaşa bağlıdır. Amerikalı diplomat Prezidentin köməkçisi Hikmət Hacıyevdən sonra Azərbaycanın İrandakı səfiri Əli Əlizadə ilə də görüşübsə, əsas mövzunun məhz İranın siyasəti olduğu bəllidir.

Vaşinqton Tehranın bölgədəki planlarından narahatdır. A.Peylinin İsrailin Azərbaycandakı səfiri Corc Diklə görüşməsi və İran rejiminin regionda sabitliyi pozan davranışları barədə müzakirələr aparması isə İsrail–İran qarşıdurması ilə bağlıdır. Vaşinqton hesab edir ki, Tehran İsrailin İranın Suriyadakı konsulluğuna raket hücumunun intiqamını almaq üçün Cənubi Qafqazdakı "imkanlarından" da istifadə edə bilər. Təsadüfi deyil ki, iranlı deputatlardan biri İsrailin Azərbaycandakı səfirliyinə hücum təşkil etməyə çağırıb. Bu çağırış Azərbaycanla yanaşı, ABŞ və İsraili də ciddi narahat edib. Bir ölkə ki, qonşu ölkənin millət vəkilinə qarşı sui-qəsd təşkil edir, kəşfiyyat şəbəkəsi vasitəsilə icra hakimiyyətinin başçısını öldürmək istəyir, həmin ölkədən başqa təhlükəli addımlar da gözləmək mümkündür. Ona görə mümkün təhlükəyə qarşı mübarizədə xəbərləşmə vacibdir. Bununla yanaşı, Vaşinqton İran–Ermənistan münasibətlərindən narahat olmalıdır. Çünki məhz Ermənistan İranla eyni mövqedən çıxış edir.

**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri, politoloq**

Ümumiyyətlə, ABŞ rəsmilərinin İranla bağlı bölgəyə səfərləri teztez olur. Düzdür, əsas məlumatlar buradakı səfirlik vasitəsilə Vaşinqtona çatdırılır. Hər halda, Yaxın Şərqdə vəziyyətin gərginləşməsi fonunda belə səfərlər başadüşüləndir. Onu da qeyd etmək lazımdır ki, təhlükəsizlik məsələləri ilə bağlı hazırda Azərbaycan və ABŞ arasında da müəyyən böhran əlamətləri var. Konqresin "907-ci düzəliş"i, faktiki olaraq, yenidən qüvvəyə minib.

Görünən odur ki, Vaşinqtonun İrana qarşı ənənəvi yanaşması, yəni Tehranın bölgəyə təsir imkanlarını məhdudlaşdırmaq siyasəti qüvvədədir. Ağ evin xüsusi elçisi Abram Peylinin Bakıda keçirdiyi görüşlərin məqsədi məlumat əldə olunması, fikir mübadiləsi aparılması kimi məsələlər olub. Digər tərəfdən, ABŞ-da Demokrat Partiyası daxilində bu məsələyə fərqli yanaşmalar mövcuddur. Mənə belə gəlir ki, demokratlar İranla bağlı böhranı diplomatik yolla həll etməyə meyillidirlər. Yəni, burada Co Baydenin Tehrana qarşı hansısa güc tətbiq etmək planından söhbət getmir.

Bu kontekstdən yanaşanda, Peylinin bölgəyə gəlişi, bir növ, kəşfiyyat xarakterli səfərdir. Belə səfərlər mütəmadi şəkildə həyata keçirilir. Növbəti səfərdən sonra dediyimiz mövzuda hansısa dəyişikliyin baş verəcəyini gözləmirəm. Güman etmək olar ki, İsrailin İranın Suriyadakı səfirliyinə endirdiyi zərbə vəziyyəti müəyyən qədər dəyişsin. İndiki durumda İranın özü üçün yeni cəbhə açmaq kimi istəyinin olduğunu da güman etmirəm. Yəni, ABŞ–İran münasibətlərində kəskin dəyişikliyin, yaxud genişmiqyaslı əməliyyatın baş verəcəyini gözləmirəm.

# Ermənistan KTMT-dən çıxmağı niyə Azərbaycanla sülhdən vacib sayır?

## Nikol Paşinyanın xəbərdarlığına sözardı

**Baş nazir Nikol Paşinyan bir müddət əvvəl Fransanın "France 24" telekanalının efirindən Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı fəaliyyətini dondurduğunu bildirmişdisə, indi o, artıq ölkəsinin qurumdan tamamilə çıxması barədə danışır. Nikolun hökumətin iclasında dediklərini yalnız bu cür qiymətləndirmək olar.**



Bəli, Paşinyan KTMT-ni ittiham yolunu tutur. Onun yanaşması göstərir ki, Ermənistan Rusiyanın hakim rol oynadığı təşkilatdan uzaqlaşmaq üçün, sadəcə, bəhanə axtarışındadır. Əlbəttə, Nikol heç nə tapa bilmədiyindən, köhnə havalardadır. Erməni hökumət rəhbərinin hansı bəhanələri dilə gətirdiyini diqqətə çatdıracağıq. Hələlik isə...

Bəhanələrdən söz düşmüşkən, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov ötən həftə ölkənin "İzvestiya" qəzetinə müsahibəsində bildirmişdi ki, Ermənistan rəhbərliyi yaxın üç il yarımın tarixini təhrif etməklə, Moskvanı günahlandırmaqla məşğuldur. Lavrov bunu Ermənistan–Rusiya münasibətlərini pozmağa yönəlmiş addım kimi dəyərləndirmişdi. Deməli, Rusiyada erməni iqtidarının niyyətləri barədə açıq danışmağa başlayıblar. Özü də ən yüksək səviyyədə. Görünür, bu amil Paşinyanı narahat etmir. Hökumətin iclasında onun ortaya qoyduğu anti-KTMT ritorikası fikrimizin təsdiqidir. Yəni, artıq bəhanə dövrü geridə qalıb. Nikol, belə demək mümkünsə, sözdən əmələ keçib.

***

Qeyd edək ki, Ermənistan–KTMT ziddiyyətləri 2022-ci ilin noyabrından start götürmüşdü. Həmin vaxt qurumun yüksək səviyyəli zirvə toplantısı İrəvanda keçirilmişdi. Rusiya Prezidenti Vladimir Putinin də qatıldığı tədbir Paşinyanın heç bir etikaya sığmayan fikirlər səsləndirməsi ilə yadda qalmışdı. İş o yerə çatmışdı ki, Belarus Prezidenti Aleksandr Lukaşenko əsəblərinə hakim kəsilə bilməmiş, erməni hökumət başçısını KTMT-yə üzv ölkələrin rəhbərlərini uşaq yerinə qoymamağa çağırmışdı. Belarus liderinin sözlərindən belə nəticə hasil olmuşdu ki, Ermənistan Azərbaycanla münasibətləri özü həll etməlidir. O, Nikolun Bakı ilə gərginliyi KTMT müstəvisinə çıxarmaq cəhdlərini mənasız saymış, habelə, Azərbaycanın quruma üzv ölkələr üçün vacibliyini önə çəkmişdi. Toplantıda daha açıq, konkret və məntiqi fikri isə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dilə gətirmişdi. O demişdi ki, Ermənistanla Azərbaycan arasında sərhədlər dəqiqləşmədiyindən, KTMT-nin məsuliyyət zonasını müəyyənləşdirmək mümkünsüzdür.

Məsələ burasındadır ki, 2022-ci ilin noyabrında keçirilmiş sözügedən zirvə toplantısında Paşinyan tədbirin təşkilindən iki ay əvvəl şərti sərhəddə yaşanmış gərginliyi Ermənistanın ərazi bütövlüyünə qəsd, suverenliyinin pozulması kimi qiymətləndirmiş və KTMT-dən məsələyə siyasi qiymət verilməsini tələb etmişdi. Uzun müzakirələrdən sonra tədbirdə KTMT-nin Ermənistan–Azərbaycan sərhədinə müşahidə missiyası göndərməsi barədə razılığa gəlinmişdi.

Əlbəttə, N.Paşinyanın məsələdən boyun qaçıracağı proqnozlaşdırılan idi. Çünki KTMT-nin haqqında söz açdığımız toplantısından bir ay əvvəl Praqada Azərbaycan–Ermənistan şərti sərhədinin Ermənistan tərəfində Avropa İttifaqının mülki müşahidə missiyasının yerləşdirilməsinə dair razılıq əldə olunmuşdu. Nikol məhz bu razılığı əsas götürərək, Rusiyanın hakim rol oynadığı təşkilatın oxşar missiyasının regionda yerləşdirilməsinə qarşı çıxmışdı. Yeri gəlmişkən, bununla bağlı detalları bir neçə gün əvvəl Rusiyanın XİN rəhbəri S.Lavrov da "İzvestiya" qəzetinə müsahibəsində açıqlamışdı. Bildirmişdi ki, KTMT-nin XİN rəhbərləri səviyyəsində razılıq əldə edilsə də, sonradan Paşinyan konsensusun olmadığını demişdi. Yəni, göründüyü kimi, qurumun Ermənistanla bağlı işini iflic edən erməni iqtidarının özüdür. Ancaq, necə deyərlər, sən saydığını say, görək, Paşinyan nə sayır.

Ümumən, bir məqamı da vurğulayaq ki, Ermənistanın anti-KTMT isteriyasında başlıca motiv qurumun Azərbaycanla Ermənistan arasında 2022-ci ilin sentyabrında yaşanmış sərhəd toqquşmasına reaksiya verməməsi idi. Yəni, erməni tərəfinin bəhanəsi budur. Lakin rəsmi İrəvanın hazırkı siyasi ritorikasına diqqət yetirdikdə görürük ki, Paşinyan və komandası mövzuya daha dramatik məzmun qazandırmaqla məşğuldur. Nikol və tərəfdarları indi KTMT-ni 2021-ci ildə yaşanmış gərginliyə, daha doğrusu, həmin gərginlik zamanı Ermənistanı müdafiə etməməyə görə də günahlandırırlar. Belə təəssürat yaradırlar ki, sanki rəsmi İrəvan bütün bunlara dözübmüş, artıq onun səbr kasası daşıb. Hazırda Ermənistanın "səbr kasasının daşmasının" birinci seqmenti qismində Paşinyanın KTMT-dəki fəaliyyəti dondurmaq məntiqi əsas götürülürsə, ikincisi onun bir neçə gün əvvəl hökumətin iclasında söylədikləridir.

***

Ümumən, KTMT Ermənistandakı məsuliyyət zonasını nizamlanmış dövlət sərhədləri çərçivəsində özünün suveren ərazisi hesab edir. Qurum İrəvanın məsələyə aydınlıq gətirmək tələbinə belə cavab verib. Ancaq Ermənistanda, xüsusən də ölkənin hakim siyasi dairələrində hesab edirlər ki, cavab kifayət qədər mürəkkəbdir və əsaslı mahiyyət daşımır.

Onu da diqqətə çatdıraq ki, KTMT məsuliyyət zonası dedikdə üzv dövlətlərin suveren ərazilərini nəzərdə tutur. Bununla əlaqədar istinad sənədi 2010-cu ildə Moskvada imzalanmış Kollektiv Təhlükəsizlik Təşkilatları Sisteminin qüvvələri və vasitələrinin statusu haqqında sazişdir. Sazişə əsasən, KTMT-nin məsuliyyət zonası Ermənistan və onun qonşuları arasında ikitərəfli əsasda tənzimlənən dövlət sərhədinin keçdiyi yerdə bitir.

Paşinyan isə bu cavabın rəsmi İrəvanı qane etmədiyini diqqətə çatdırıb. Bildirib ki, əgər təşkilat "KTMT-nin Ermənistanda məsuliyyət sahəsi nədir?" sualına konkret cavab verməsə, İrəvan KTMT-dən çıxacaq. Nikolun sözlərinə görə, KTMT və Rusiya vaxtilə Ermənistanın suveren ərazisinin Moskva və təşkilat üçün "qırmızı xətt" olması ilə bağlı "aydın mövqe" bildiriblər. "Lakin 2021-ci ilin mayında Azərbaycanın işğalı zamanı Ermənistan qırmızı xəttin keçdiyini qeyd edəndə, KTMT nizamnamədə göstərilən addımları atmadı", – deyən baş nazir 2022-ci ilin sentyabrında növbəti dəfə "Azərbaycanın işğalının" yaşandığını vurğulayıb. Paşinyanın dediyinə görə, KTMT suallara cavab verərsə və bu, İrəvanın ideyalarına uyğun gələrsə, Ermənistanla təşkilat arasında problemlər həllini tapacaq. "Əks halda Ermənistan Respublikası KTMT-dən çıxacaq. Nə vaxt, deyə bilmərəm", –Nikol xəbərdarlıq edib.

Bəli, Azərbaycan və Ermənistan arasında sərhədlər dəqiqləşməyib. Hazırda delimitasiya və demarkasiya üzrə işlərin getdiyi bildirilir. Bu, sülh gündəliyini tərkib hissəsi olan prosesdir. Paşinyan özü də bəyan edib ki, sərhədin delimitasiyası və demarkasiyası 2024-cü ilin martında praktiki mərhələyə qədəm qoyub, mövcud istiqamətdə komissiyalar işləyirlər.

Belə olan halda, görəsən, baş nazir nə üçün KTMT üzərinə yüklənir? Olmazmı ki, sərhədlərin delimitasiyası və demarkasiyası aparıldıqdan, yəni Ermənistanın ərazilərinin haradan başlanıb haradan bitdiyi dəqiqləşdikdən sonra ölkə KTMT-dən nə isə tələb etsin? Görünür olmazmış. Hər halda erməni baş nazirin dedikləri bunu söyləməyə əsas verir.

***

Sonda bildirək ki, KTMT-dən çıxmaq rəsmi İrəvanın Qərbyönümlü siyasi xəttindəki başlıca vəzifədir. Bu vəzifə o qədər mühüm əhəmiyyət daşıyır ki, erməni iqtidarı əlində bayraq etdiyi "Azərbaycanın işğalı" bəhanəsini qorumaq naminə sülhdən yayına da bilər. Paşinyanın indi səsləndirdiyi tələb və KTMT-dən çıxmaq xəbərdarlığı həm də onu göstərir ki, Ermənistan hərbi təşkilatdan uzaqlaşmağı Azərbaycanla sülh müqaviləsinin imzalanmasından irəli salmaq istəyindədir. Nəinki istəyindədir, eyni zamanda, bunda israrlıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Yeni tarixi mərhələdə milli ideya

**VI MƏQALƏ**

**Nizamı qaranlıq düşməmişdən yaratmaq lazımdır.**

**Lao Szı**

Məlum olduğu kimi, yeni tarixi mərhələdə milli ideyanın nəzəri bazasını tarixi ədalətin bərpası, milli qürurun təmini və beynəlxalq hüququn bərqərar olması təşkil edir. Bu üç faktoru Prezident İlham Əliyev II Qarabağ savaşının nəticəsi olaraq ərazi bütövlüyünün tam bərpasını qiymətləndirərkən ifadə etmişdi.

Qısa antiterror tədbirləri nəticəsində ərazi bütövlüyünün beynəlxalq hüquq çərçivəsində təsbiti baxımından və dövlət müstəqilliyinin özünütəsdiqi aspektində əhəmiyyətli olan suverenliyin tam təmini milli ideyanın indiki tarixi mərhələdə məzmununa yeni çalarlar əlavə edir. Bununla müasir müstəqil dövlətçiliyin siyasi meyarları kimi ərazi bütövlüyü ilə suverenliyin sintezi dövlətin ümumi xarakteristikasını müəyyən etməyə ciddi dəstək verir.

Milli ideyanın müəyyənləşdirilməsi baxımından söhbətin hansı dövlətdən getdiyinin siyasi ölçüləri də dəqiq müəyyən edilməlidir. Daha konkret formada dövlətin hansı kateqoriyaya aid olması milli ideyanın düzgün məzmunlaşmasının təməlində durmalıdır. Bir mərhələnin başa çatması ilə Azərbaycan müstəqil dövlət olaraq hansı kateqoriyaya aid edilməlidir?

## Güclü dövlətin milli ideyası

Müasir politoloji kriteriyalara görə, ərazi bütövlüyünü öz gücünə bərpa edən və suverenliyinə tam nail olan müstəqil dövlət güclü dövlətdir! Bu dövlətin gücü iqtisadi sistemin inkişafına, cəmiyyətin bütövlüyünə, hərbi-müdafiə qüdrətinin dinamik yüksəlişinə, mənəvi-əxlaqi dəyərlərə, mədəni inkişafın tempinə əsaslanır. Onlar ərazi bütövlüyünün bərpası, millətin qürurunun özünü göstərməsi və fəaliyyətində beynəlxalq hüquqa əsaslanması kimi vacib faktorlarda öz ifadəsini tapmışdır. Deməli, yeni tarixi mərhələdə Azərbaycanın milli ideyası güclü dövlətin inkişafına xidmət edən məzmunda olmalıdır. Bunu necə etmək olar?

Məncə, güclü dövlətin milli ideyası müasir dövrün çağırışlarına önləyici reaksiya verə bilən kriteriyaları özündə ehtiva etməlidir. İndi proseslərin arxasınca getmək dövlətin gücünü azaldır. Dövlət qarşısına qoyduğu milli ideyanı reallaşdırmaq üçün iqtisadi, sosial, mədəni, mənəvi, energetik, informasiya və kommunkasiya sferalarında çevik işləyən sistem qurmalıdır. Bütövlükdə, onlar kompleks halında istənilən çağırışa kreativ (praktiki-tətbiqi aspektdə yaradıcı) reaksiya verməlidirlər. Əlbəttə, bu proses o zaman milli ideya statusunda işləyə bilir ki, konkret olaraq strateji məqsəd milli ideya kimi müəyyən edilsin. Məsələn, öncəki mərhələdə başlıca strateji hədəf ərazi bütövlüyünün təmini idisə, qarşıdakı tarixi mərhələdə nə olmalıdır?

Bu prizmada milli ideyanın önləyici reaksiya verə biləcək kriteriyalarını iki qrupda cəmləşdirmək olar. Birinci qrupda cəmiyyətin sosial, iqtisadi, texniki, texnoloji və informasiya tərəqqisini təmin edən əsas meyarlar yer almalıdır. İkinci qrupda isə dövlətin gücünün cəmiyyətin bütövlüyünün təmini şərti ilə ən inkişaf etmiş ölkələr üçün qoyulan tələblər səviyyəsində dinamik artmasına xidmət edən kriteriyalar – faktorlar cəmləşməlidir.

Hər iki qrup üçün mərkəzi punkt kimi insan faktorunun inkişafı götürülməlidir. Deməli, yeni tarixi mərhələdə milli ideya insan faktoruna əsaslanan dinamik tərəqqini təmin edən başlıca faktorlardan təşkil olunmalıdır. Burada da bir prinsipin tam ödənilməsini vacib şərt sayırıq: Güclü Azərbaycanın milli ideyası hər bir variantda davamlı və dayanıqlı inkişaf paradiqmasına əsaslanmalıdır!

Bunlardan yeni tarixi mərhələdə milli ideyanın başlıca tezisini (həm də strateji hədəfini, məqsədini) belə ifadə edə bilərik: vətəndaşı güclü olan bütöv cəmiyyətlə güclü dövlətin birliyinə doğru! Hansı səbəblərdən milli ideyada məsələnin bu istiqamətdə qoyulmasını daha doğru hesab edirik?

Əgər milli ideya probleminə geniş aspektdə baxsaq, çox sayda faktorları vurğulamaq lazım gəlir. Ancaq problemi bir qədər fokuslaşdırsaq, görərik ki, müasir dövrün tələbləri sırasında artıq müstəqil dövlətlərin həm bütöv cəmiyyət (kollektiv reallıq) həm də dövlətlər qrupunun üzvü kimi fəaliyyəti beynəlxalq miqyasda həlledici mexanizmə çevrilir. Qarşıdakı dövrdə bu prosesin sürətlənəcəyi proqnozlaşdırılır. Yəni, istənilən güclü dövlət üçün, birinci, özünün daxili birliyi şərtdir. Bura ümumi halda vətəndaş-toplum (kollektiv) birliyi, siyasi birlik, mədəni birlik, xalq-lider birliyi daxildir. İkinci, bu birliyə söykənərək regional miqyasda uğurlu fəaliyyət göstərmək və hər iki miqyası eyni uğurla qlobal miqyasa proyeksiya etmək lazım gəlir. Başqa halda dövləti güclü qəbul etmək şübhəli görünür.

Bu, o deməkdir ki, yeni tarixi mərhələdə dövlətin gücü yalnız daxili imkanlarla ölçülməyəcək, yaxud ancaq qlobal miqyasda nüfuzla müəyyən olunmayacaq: real güclü dövlət hər iki səviyyədə gücü bir-birinə uyğunlaşdırmalı, onları ahəngdar tərəqqi müstəvisində daim saxlamalıdır!

Təbii ki, bu, həm mürəkkəb, həm də olduqca çətin prosesdir. Lakin dövr artıq daxili mühitlə xarici mühiti yeni səviyyədə birləşdirirsə, onları hər bir prinsipial məsələlərdə vəhdətdə görürsə, onda güclü olmaq üçün başqa yol qalmır. Əvvəlki mərhələlərdə xarici sayılan faktorlar indi həm də daxili amillər kimi dövlətin funksionallaşmasında rol oynamalıdır.

Onu vurğulayaq ki, burada ziddiyyətlər də az olmaya bilər. Çünki uzun əsrlərdən sonra hər hansı cəmiyyətin və dövlətin "ətraf aləmlə" bu cür inteqrasiyası meydana həlli çətin yeni problemlər çıxaracaq. Güclü olmaq üçün həmin ziddiyyətlər aşılmalıdır. Hər şəraitdə dövlətin vətəndaşı güclü olmalıdır. Vətəndaşın güclü olması hansı anlamı verir?



## Güclü insan və fəal vətəndaş

Güclü insan güclü vətəndaş olmaya da bilər. Fərd olaraq özünü inkişaf etdirən insanın konkret dövlətin güclü vətəndaşı olması üçün başqa şərtlər də vacibdir. Məsələn, insan xüsusi bədən tərbiyəsi üsulları ilə fiziki güc qazanar. Psixoloji təmrinlər ilə öz psixoloji vəziyyətini yüksək səviyyəyə çatdırar. Mədəni, mənəvi, əxlaqi və digər krtiteriyalar üzrə də inkişafa nail olar. Eyni məntiqlə intellektini inkişaf etdirər, məsələn Eynşteyn indeksi üzrə birinci olar və s. Belə bir insanı güclü qəbul ediriksə, bu, avtomatik olaraq onun güclü vətəndaş olmasına dəlalət etmir.

Burada dövlətçilik və kollektivçilik baxımından prinsipial bir məqam vardır. Güclü insanın güclü vətəndaş olması üçün onun fərdi maraqları ilə kollektiv maraq arasında münasibəti dövrün tələblərinə uyğun müəyyən etməsi zəruridir. Daha lakonik ifadə etsək, insan kollektiv (milli, dövləti) maraqlara üstünlük verməyi tam legitim və təbii keyfiyyət kimi anlamalıdır!

Bu isə insanın cəmiyyətdə tərbiyəsi məsələsini aktuallaşdırır. Bununla yanaşı, cəmiyyətin insan üçün qayğıkeş, inkişafetdirici, potensialı reallaşdıra biləcəyi mühitin yaratmasını tələb edir. Deməli, yeni tarixi mərhələdə kollektivçilik aparıcı olsa da, bütün fəaliyyətin təməlində fərdlərin güclü olmasının təmini dayanır. Artıq əsas yük dövlət və cəmiyyətin üzərinə düşür. İnsan tərbiyəsi buna görə ilk sıraya çıxır və strateji sərvət statusunu alır. Məhz buna görədir ki, Prezident İlham Əliyev andiçmə mərasimində yeni tarixi dövr üçün əsas olan vəzifələr sırasında gənc nəslin tərbiyəsini ayrıca vurğulamışdır.

Bu aspektdə yeni tarixi mərhələdə milli ideyanın reallaşması kontekstində gənc nəslin tərbiyəsi önə çıxmalıdır. Bura mənəvi, əxlaqi, psixoloji, intellektual inkişafla yanaşı, təhsil almaq və sosiallaşmaq kimi əhəmiyyətli faktorlar da daxildir. Onların qarşılıqlı əlaqəsi prizmasında toplumda gənclərin tərbiyəsini yeniləşdirmək olar.

Bu da tarixi prosesdir və əsas məqamlardan biri ənənə ilə müasirliyin optimal nisbətini müəyyən etməklə bağlıdır. Bizcə, tərbiyədə Azərbaycan ənənəsi mütləq olmalıdır. Onu başqa heç bir tərbiyəvi faktor əvəz edə bilməz. Lakin ənənənin müasirləşmə ilə nisbəti də dinamik dəyişən parametrdir. Onun düzgün müəyyənləşməsi strateji vacib məsələdir. Bu məqamda da Azərbaycanın dövlət və cəmiyyət olaraq qarşısına yeni problemlərin atılması istisna deyildir. Biz ilk növbədə təhlükəsizlik məsələsini nəzərdə tuturuq.

XXI əsrin təcrübəsi göstərir ki, çox müxtəlif istiqamətlərdən və fərqli tərzdə müstəqil dövlətin və cəmiyyətin bütövlüyünü pozmağa istiqamətlənmiş təsirlər getdikcə daha incə, gizli və maskalı üsullarla tətbiq edilir. Bu proses cəmiyyətin, demək olar ki, bütün sferalarını əhatə edir. Ona müxtəlif adlar qoymaq olar: hipermüharibə, intellektual müharibə, informasiya müharibəsi, gizli savaş və s. Lakin, hər bir halda, söhbət fiziki-coğrafi sərhədi olmayan və cəmiyyətin hər bir nöqtəsində fərqli təzahür etdirilən informasiya, psixoloji, fizioloji, fiziki, mənəvi təsirlərdən gedir. İlk baxışdan onlar təhlükəli görünməyə bilər – söz azadlığı, insan haqları, azad inkişaf, intellektual inkişaf etmə, bəşəri olmaq, demokratikləşmək, liberallaşmaq və s. kimi ibarələrlə dövriyyəyə buraxıla bilər. Lakin bu gedişatın toplumsal miqyasda real təsirləri konkret olaraq birliyi, mənəvi-əxlaqi sağlamlığı sökdüyünün şahidi oluruq.

Məsələn, müxtəlif bəhanələrlə müstəqil dövlətdə ailə institutunu zəiflətməyə yönəlmiş addımlar atırlar. Bunun üçün insan haqları, gender bərabərliyi və demokarik həyat tərzi adı altında cinsi pozğunluğu iradə azadlığı kimi təqdim etməyə çalışırlar. Hazırda əsasən Qərbdə vüsət alan eybəcər mənəvi faktorları Azəbaycanda da stimullaşdırmağa cəhdlər edirlər. Nəticəsi nə olur?

Birincisi, cəmiyyət özü-özünü aşağılamağa meyilli hala gəlir.

İkincisi, ailə modeli laxlayır və yenisi yaranmır. Bunun fonunda dağılan gənc ailələrin sayı getdikcə artır.

Üçüncüsü, ailə münasibətlərində ənənəvi olduğu kimi mənəvi, əxlaqi, dini, mədəni faktorlar deyil, utilitar, iqtisadi, "çörək pulu" faktorları yayılır. Meydana həm kriminal xarakterli, həm də ailə strukturunun qorunması ilə bağlı problemlər çıxır.

Bütün bunlar artıq digər müstəqil dövlətlərdə olduğu kimi, Azərbaycan üçün də milli təhlükəsizlik məsələsinə çevrilmişdir. Əgər bu tendensiya qalsa, hansı əsasla biz yeni tarixi mərhələdə davamlı inkişafdan danışa bilərik. Eyni zamanda, vurğulanan şərtlər daxilində yeni milli ideyanı həyata keçirə bilərikmi? Bu suallara cavab üzərində düşünməli və konkret qərarlar qəbul etməliyik.

Həmin suallara cavab axtarışları kontekstində Prezident İlham Əliyevin andiçmə mərasimində vurğuladığı bütün məqamlar çox vacib əhəmiyyət kəsb edir. Onlar milli təhlükəsizliyə ola biləcək təhdidləri tam neytrallaşdırmaq üçün arxivacibdirlər! Həmin bağlılıqda biz gənc nəslin tərbiyəsini Prezidentin xüsusi vurğulamasını qeyd etdik. Deməli, bu məsələ yeni milli ideyanın reallaşmasında başlıca komponentlərdən biri olacaqdır.

Bu istiqamətdə təhlilə davam etsək, Prezidentin ifadə etdiyi fikirlərin yeni mərhələdə milli ideya kontekstində vacibliyini aydın görə bilərik.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Aprel müharibəsi ilə bağlı 13 məqam

*(əvvəli 1-ci səhifədə)*

Beləliklə, **birincisi,** Ermənistanda düşünürdülər ki, Bakı və İrəvan arasındakı vəziyyət həmişə o zamanadək olan formada davam edəcək. Üzərilərində qoruyucu çətirin olduğunu zənn edirdilər. Aprel müharibəsi İrəvanın, obrazlı desək, güvəndiyi dağlara qar yağdırdı.

**İkincisi,** Ermənistan iqtidarı hesab edirdi ki, ölkənin ordusu Azərbaycanın istənilən təzyiqinə tab gətirə bilmək gücündədir. Lakin dördgünlük müharibə bunun əksini ortaya çıxardı.

**Üçüncüsü,** erməni cəmiyyətinə belə fikir aşılanmışdı ki, azərbaycanlılar döyüşə bilmirlər, onların iş-gücləri yalnız ticarətdir. Həmin cəmiyyət anladı ki, bu, heç də belə deyil.

**Dördüncüsü,** Ermənistanda düşünürdülər ki, Qarabağ problemini siyasi baxımdan kifayət qədər uzun müddətə təxirə salmaq mümkündür. Amma Aprel müharibəsi göstərdi ki, siyasi faktorlar işləməyə bilər.

**Beşincisi,** dördgünlük müharibə yeni döyüş standartları ortaya qoydu ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi bunu da düşünməmişdi. Həmin standartların tətbiqi şəraitində erməni ordusunun zəifliyi üzə çıxdı.

**Altıncısı,** Aprel müharibəsinədək erməni cəmiyyətində belə fikir var idi ki, Azərbaycanın ali hakimiyyəti səviyyəsində Qarabağla bağlı səslənən bəyanatlar və xəbərdarlıqlar daha çox daxili auditoriya üçün nəzərdə tutulub. Ancaq



müharibə göstərdi ki, iddialarımız gerçəkdir, söz yığını deyil, mövcud xüsusdakı hər cümlə dərin fiksasiya təbiətinə malikdir.

**Səkkizincisi,** Ermənistanın ictimai fikrinə bu düşüncə hakim kəsilmişdi ki, Azərbaycan cəmiyyəti, ümumən azərbaycanlılar zaman keçdikcə Qarabağı unudacaqlar. Erməni beyin mərkəzləri nəsillərin dəyişməsi reallığına siyasi sərmayə yatırırdılar. Onlar iyirmi, otuz, qırx ildən sonra sadə azərbaycanlının Qarabağ məsələsinə baxış trayektoriyasını cızır və vurğulayırdılar ki, müəyyən vaxtdan sonra Qarabağ danışıqları da tamamilə əhəmiyyətini itirəcək, formal şəkil alacaq, beləliklə, bölgənin hüquqi cəhətdən Ermənistanın nəzarəti altına keçməsi rəsmiləşəcək. Dördgünlük müharibə bu tezisi alt-üst etdi. Göstərdi ki, xalqımız, xüsusən gənc nəsil Qarabağı əsla unutmur.

**Doqquzuncusu,** Ermənistanda 2016-cı ilin Aprel döyüşlərindən sonra başa düşdülər ki, qarşı tərəf bununla məhdudlaşmayacaq və hər fürsətdəcə hücum imkanı qazanmağa çalışacaq. Doğrudur, bu düşüncə o qədər də möhkəmlənməsə də, Ermənistanın toxunulmazlığı mifini dağıtdı.

**Onuncu məqam.** Məlumdur ki, Azərbaycanla Ermənistan arasında atəşkəs 1994-cü ildə Bişkekdə əldə olunmuşdu. 2016-cı ilin müharibəsinə isə aprelin 5-də Moskvada Azərbaycanın və Ermənistanın baş qərargah rəisləri arasındakı anlaşma son qoydu. Baxmayaraq ki, intensiv atəş səsləri aprelin 28-dək davam etdi, hər bir halda həmin razılıq, istər-istəməz, Bişkek gündəliyini arxa plana keçirdi.

**On birinci məqam.** Psixoloji baxımdan 1994-cü il anlaşması əhəmiyyətini itirdi. Yəni, düşüncələrdə müharibəyə son qoyan sənəd kimi Moskva görüşü əsas götürüldü. Qərargah rəislərinin razılaşmasının isə kövrək olacağını təxmin etmək heç də çətin deyildi. Axı onlar birinci şəxslər deyildilər.

**On ikinci məqam.** Ermənistanın hazırkı hakimiyyəti indinin özündə də 44 günlük müharibədəki məğlubiyyətdə günahı öz boynundan atmaq üçün müxtəlif variantlar irəli sürür. Həmin variantların biri budur ki, 2020-ci ilin savaşı qaçılmaz idi.

Paşinyan və komandası tez-tez bildirir ki, ölkənin əvvəlki iqtidarı Qarabağ danışıqlarında güzəştə getməyə məhkum duruma düşmüşdü. Onlar səbəb kimi isə 2016-cı ilin Aprel müharibəsini göstərirlər. Həqiqətən də dördgünlük savaş rəsmi İrəvanı Qarabağ danışıqları masasında həqiqətlərin üzünə dik baxmağa vadar etmişdi. Məlum olmuşdu ki, Ermənistanın əvvəki iqtidarında təmsil olunan Koçaryan-Sarkisyan ikilisinin ənənəvi manipulyativ davranışları əhəmiyyətini itirib. Yəni, Azərbaycanın qətiyyəti qarşısında prosesi dalana dirəmək cəhdlərinin iflasa uğrayacağı dəqiqləşmişdi.

Təsadüfi deyil ki, N.Paşinyan hakimiyyətə gələndə Bakıdan, ilk növbədə, danışıqları davam etdirmək üçün vaxt istəmişdi. Bunu elə şəkildə etmişdi ki, sanki güzəştə getməyə hazırdır. Əlbəttə, güzəştin olmadığını gördük. Əksinə...

**On üçüncü məqam.** 2016-cı ilin Aprel müharibəsi Ermənistanda Qarabağ reallıqlarına baxışı dəyişdi. Bu, hökumətə qarşı inamsızlıq qığılcımlarını alovlandırdı desək, yanılmarıq. Müxalifət yaranmış vəziyyətdən istifadə etdi. Söhbət hazırkı baş nazir N.Paşinyanın rəhbərlik etdiyi müxalifətdən gedir. O müxalifət ki, hakimiyyətə gəlmək üçün Qarabağın Ermənistan üzərindən asılmış ağır daş olduğu məntiqini işə saldı və bu tezis 2016-cı ilin acı reallıqları fonunda cəmiyyətdə böyük populyarlıq qazandı. Qarabağ naminə Azərbaycanla düşmənçiliyə getməmək məsələləri aktuallaşdı.

Əlbəttə, N.Paşinyanın hakimiyyətə gəldikdən sonra verdiyi bəyanatlar onun iqtidara yiyələnməsinə səbəb olmuş Qarabağ kompromisi motivini heçə endirdi. Nikol 2016-cı ilin məyusluğunu aradan qaldırdı. O, "Qarabağ Ermənistandır nöqtə" bəyanatını verərək, belə demək mümkünsə, demokratiyanın hər şeyə qadirliyi formulunu dövriyyəyə gətirdi. Bu dəfə erməni cəmiyyəti demokratiyanın Qarabağ məsələsində də keçərli kart olduğu qənaətinə gəldi. Əlbəttə, qənaətin yanlışlığı 2020-ci ilin 44 günlük müharibəsində tam şəkildə təsdiqini tapdı.

***Ə.RÜSTƏMOV***
***XQ***

# “Rəqəmsal cinayət prosesi: müasir çağırışlar və hədəflər”




**Aprelin 2-də Azərbaycan Respublikasının Baş Prokurorluğunun təşkilatçılığı ilə “Rəqəmsal cinayət prosesi: müasir çağırışlar və hədəflər” mövzusunda geniş konfrans keçirilib.**

Ümumilikdə, 20-dək müxtəlif dövlət qurumu və hüquq-mühafizə orqanlarının rəhbər vəzifəli şəxsləri, Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvləri, ali təhsil ocaqlarının nümayəndələri və vətəndaş cəmiyyəti üzvlərinin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov, Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov, Ali Məhkəmənin sədri İnam Kərimov, ədliyyə naziri Fərid Əhmədov, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini Allahverən İsmayılov, Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi İlqar Səfərov çıxış edib. Həmçinin Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev tərəfindən “Elektron prokurorluq” informasiya sisteminin təqdimatı keçirilib.

Daha sonra konfrans iştirakçıları tərəfindən ibtidai araşdırmanın elektron qaydada həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və digər qanunvericilik aktlarında əlavə və dəyişikliklər edilməsi və mərhələli şəkildə elektron cinayət təqibinin tətbiqi, ibtidai araşdırmanın elektron qaydada həyata keçirilməsi ilə əlaqədar cinayət prosesi iştirakçılarının və cinayət prosesində iştirak edən digər şəxslərin prosessual hüquqlarının və ibtidai araşdırmanın elektron qaydada həyata keçirilməsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi, elektron cinayət prosesinə keçidlə əlaqədar aidiyyəti qurumların əməkdaşlarının bu sahədə peşəkarlığının, bilik, bacarıq və vərdişlərinin artırılması və digər aktual məsələlər geniş müzakirə edilib.

*XQ*

# Baş Prokurorluq və Hesablama Palatası əməkdaşlıq memorandumu imzalayıb

**Aprelin 2-də Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Azərbaycan Respublikası Hesablama Palatası arasında qarşılıqlı əməkdaşlıq barədə memorandum imzalanıb.**



Sənədi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov imzalayıblar.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev iki orqan arasında əməkdaşlığın hər zaman yüksək səviyyədə olduğunu bildirməklə yanaşı, həmin memorandumun yeni mərhələyə keçid olduğunu ifadə edib. Tərəflər arasında münasibətlərin korrupsiyaya qarşı, dövlət maliyyə sahəsində, o cümlədən iqtisadi xarakterli cinayətlərə qarşı mübarizəyə töhfə verdiyini bildirib.

Sonra çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov ali audit orqanlarının korrupsiyanın qarşısının alınmasına cəlb edilməsi təcrübəsinin son illərdə genişləndiyini, korrupsiyaya qarşı mübarizənin Hesablama Palatasının vəzifələrindən biri olduğunu və əməkdaşlıq çərçivəsində müxtəlif təlim proqramlarının həyata keçirilməsinin nəzərdə tutulduğunu deyib.

Qeyd edək ki, memorandum çərçivəsində tərəflər korrupsiyaya qarşı mübarizə səylərini birləşdirmək, bu sahədə sistemli, kompleks və innovativ xarakterli tədbirlərin icrasının davam etdirilməsi və qarşılıqlı maraq doğuran digər sahələrdə mövcud təcrübəni bölüşməklə ikitərəfli münasibətlərin səmərəli təşkil edilməsi və inkişafının təşviqi məqsədilə səlahiyyətləri daxilində funksiyalarını daha operativ və səmərəli icra etmək üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi barədə razılıq əldə ediblər.

*XQ*

# Beynəlxalq Enerji Agentliyi COP28, COP29 və COP30 sədrlikləri “üçlüyü”nü dəstəkləyəcək




**Beynəlxalq Enerji Agentliyimiz (İEA) Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) COP28, Azərbaycanda COP29 və Braziliyada COP30 arasında davamlılığı asanlaşdırmaq üçün yaradılmış COP sədrliklərinin “üçlüyünü” (Troïka) dəstəkləmək üçün səylərini genişləndirməkdə davam edir.**

Bu fikirlər Beynəlxalq Enerji Agentliyindən (IEA) verilən mətbuat açıqlamasında yer alıb. Bildirilir ki, IEA-nın fevral ayında COP28-in nəticələrinin həyata keçirilməsinə dair ev sahibliyi etdiyi enerji və iqlim liderləri ilə yüksək səviyyəli tədbirdən sonra növbəti addımları müzakirə etmək üçün keçən həftə Parisdəki qərargahda daha bir görüşü keçirilib.

Kopenhagendə IEA-nın icraçı direktoru Fatih Birol COP 29-un prezidenti təyin olunmuş Muxtar Babayevlə COP29-dan əvvəlki əsas mərhələləri, həmçinin əməkdaşlıq imkanlarını və IEA dəstəyini müzakirə ediblər. Berlində F.Birol Braziliyanın yaşıl iqtisadiyyat katibi Rodriqo Rollemberq ilə görüşündə bu ölkənin bu il G20 sədrliyi və 2025-ci ildə COP30 sədrliyi zamanı ədalətli enerji keçidləri kimi məsələlərdə əməkdaşlığı müzakirə olunub.

Həmçinin mətbuat açıqlamasında bildirilir ki, IEA-nın icraçı direktoru Fatih Birol Berlin Enerji Keçid Dialoqunun açılış sessiyasında Almaniyanın vitse-kansleri Robert Habeck və xarici işlər naziri Annalena Baerbock ilə birlikdə yüksək səviyyəli auditoriya qarşısında çıxış edərək, Azərbaycanın ev sahibliyi edəcəyi COP29-dan əvvəl əsas prioritetin inkişaf etməkdə olan iqtisadiyyatlarda təmiz enerjinin maliyyələşdirilməsinin artırılması olduğunu vurğulayıb. Fatih Birol BƏƏ-də COP28, Azərbaycanda COP29 və Braziliyada COP30 arasında davamlılığı asanlaşdırmaq üçün yaradılmış COP sədrliklərinin “üçlüyünü” (Troïka) dəstəkləmək üçün IEA-nın səylərini genişləndirməkdə davam etdiyini bildirib.

Fatih Birolun iqlim dəyişikliyi ilə bağlı “Financial Times”da dərc edilmiş məqaləsində bildirir ki, son illərdə baş verən hadisələr, o cümlədən qlobal enerji böhranı, yanacağın qiymətinin qalxması və ekstremal hava şəraitinin təsiri nə üçün irəli gedilməsi lazım olduğunu xatırladır. Qeyd olunur ki, hökumətlərin apardığı dəyişikliklər enerji keçidinin sürətinə yaxşı təsir göstərsə də, bəzi hallarda onu sürətləndirib, bəzi hallarda yavaşıtsa da, bu, iqlim dəyişiklikləri üzrə aparılan fəaliyyətin əsas istiqamətini dəyişdirməyəcək.

*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 180** **Bakı şəhəri, 27 mart 2024-cü il**

***“Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2018-ci il 20 dekabr tarixli 414 nömrəli, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1509-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2019-cu il 5 aprel tarixli 608 nömrəli, “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1510-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2019-cu il 5 aprel tarixli 609 nömrəli, “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə” 2019-cu il 12 iyul tarixli 780 nömrəli və “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə” 2019-cu il 26 noyabr tarixli 863 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2408 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər. Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə***

“Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1356-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2018-ci il 20 dekabr tarixli 414 nömrəli, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1509-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2019-cu il 5 aprel tarixli 608 nömrəli, “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1510-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2019-cu il 5 aprel tarixli 609 nömrəli, “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə” 2019-cu il 12 iyul tarixli 780 nömrəli və “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə” 2019-cu il 26 noyabr tarixli 863 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2408 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Vergi ödəyicilərində nağd pul vəsaitinin uçotu və kassa əməliyyatlarının aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-cı il 30 sentyabr tarixli 365 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1237 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 mart tarixli 122 nömrəli Qərarı) 2-ci hissəsi ləğv edilsin.

**2.** “Startapın müəyyən olunması meyarları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli 20 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 103 (Cild I); 2024, № 1, maddə 122; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 76 nömrəli Qərarı) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Sankt-Peterburq heyəti Bakıda

**Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə Azərbaycanla Rusiya arasında münasibətlərin mehriban qonşuluğa və qarşılıqlı anlaşmaya əsaslandığı, əlaqələrimizin bir çox sahələri əhatə etdiyi qeyd olunub. Bu səfərin də ölkələrimiz arasında əlaqələrin bir göstəricisi olduğu bildirilib. Söhbət zamanı iki ölkə arasında əməkdaşlığın inkişafında dövlət başçılarının şəxsi münasibətlərinin rolu xüsusi vurğulanıb.

Parlamentin Sədri xalqlarımız arasında əsrlər boyu davam edən tarixi əlaqələrin mövcud olduğunu, bu münasibətlərin bu gün də uğurla davam etdirildiyini diqqətə çatdırıb. Spiker Rusiyada baş vermiş terror hadisəsi ilə əlaqədar başsağlığı verib.

Söhbət əsnasında, ikitərəfli əlaqələrin inkişafında parlamentlərin mühüm rolu vurğulanıb. Qeyd olunub ki, Milli Məclis həm Federasiya Şurası, həm də Dövlət Duması ilə sıx əməkdaşlıq edir. S.Qafarova Rusiya Federasiyasına rəsmi səfərlərini xatırladaraq, Azərbaycan Milli Məclisi ilə Rusiya Federal Məclisinin Dövlət Duması arasında imzalanan əməkdaşlıq haqqında Anlaşma Memorandumunun bu əlaqələrin daha da inkişafına imkanlar yaratdığını vurğulayıb. Parlamentin Sankt-Peterburq Qanunvericilik Məclisi ilə əlaqələrinin olduğu, bu məclisin üzvlərinin ölkəmizə səfər etdiyi də xatırlanıb.

Qonaqpərvərliyə görə minnətdarlığını bildirən qubernator Aleksandr Beqlov Azərbaycan ilə Sankt-Peterburq şəhəri arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın yaradılmasının 20-ci ildönümü münasibətilə ölkəmizə səfər etdiyini xatırladıb.

Ümummilli lider Heydər Əliyevi xoş xatirələrlə yad edən qubernator deyib ki, bu müdrik şəxsiyyətin əsasını qoyduğu siyasi kursu bu gün Prezident İlham Əliyev böyük uğurla davam etdirir. O, ötən il Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünün qeyd olunduğunu xatırladaraq, Sankt - Peterburq şəhərində də bu münasibətlə geniş tədbirlərin keçirildiyini bildirib.

Qonaq, həmçinin paytaxt Bakı şəhəri haqqında da xoş xatirələrini bölüşüb və şəhərimizin inkişafının qonaqlarda böyük təəssüratlar yaratdığını bildirib.

***Ə.BƏDƏLOV***
***XQ***

# Azərbaycanın maliyyə sistemi davamlı inkişafa meydan açır

## 2023-cü ildə ölkəmizin bank sektorunun mənfəəti 35 faiz artıb

**Azərbaycan Mərkəzi Bankı (AMB) mühüm makroiqtisadi siyasət institutu kimi 30 ildən artıq bir fəaliyyəti dövründə müxtəlif iqtisadi sınaqlardan uğurla çıxıb. AMB ölkədə makroiqtisadi və maliyyə sabitliyini qorumaqla maliyyə sisteminin dayanıqlı inkişafını gerçəkləşdirib, müsbət nəticələrlə müşahidə edilən pul siyasəti həyata keçirib. Bununla da respublikamızda makroiqtisadi sabitlik göstəricilərinin yaxşılaşmasına və iqtisadi artımın davamlı olmasına önəmli töhfələr verib. Eyni zamanda, inflyasiyanın hədəf intervalında saxlanılmasına daim diqqət yetirib.**



Məhz bu siyasətin nəticəsidir ki, 2023-cü ildə illik inflyasiya həm xarici, həm də daxili amillərdən təsirlənərək 25 aylıq fasilədən sonra azalıb. Başqa sözlə, valyuta bazarında tarazlığın qorunması, manatın məzənnəsinin möhkəmlənməsi, pul siyasəti qərarları və hökumətin həyata keçirdiyi tədbirlər sayəsində inflyasiya təzyiqləri zəifləyib.

2024-cü ildə də AMB pul siyasətini ölkədə qiymət sabitliyinin təmin olunmasına, yəni inflyasiyanın aşağı və sabit səviyyədə saxlanılmasına yönəltməyi qarşıya mühüm vəzifə kimi qoyub. Sözügedən maliyyə qurumu bu zaman inflyasiyanın "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" ilə elan edilən hədəf intervalında saxlanılmasını nəzərdə tutub. Bununla yanaşı, AMB respublikada qiymət sabitliyini dəstəkləməklə iqtisadiyyatın dayanıqlı artımını şərtləndirməyi də prioritet istiqamətlərdən biri kimi seçib.

Qeyd edək ki, Prezident İlham Əliyevin verdiyi tapşırıqlara əsaslanaraq, Nazirlər Kabineti tərəfindən inflyasiya və qiymətlərə daimi nəzarət mexanizmlərinin yaradılmasına başlanılıb. "İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə" (15 iyul 2023-cü il) sərəncamla inflyasiya proseslərini və onun səbəblərini kəmiyyət və keyfiyyətcə qiymətləndirməyə imkan verən təhlil və monitorinq sisteminin daha da təkmilləşdirilməsi, eləcə də bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi məqsədilə geniş tərkibdə İşçi qrup yaradılıb. İşçi qrupun ötən il dekabrın 14-də keçirilən dördüncü iclasında "Qiymət izləmə tətbiqinin əsas prinsiplərinə dair metodoloji çərçivə sənədi" qəbul edilib.

Qiymət izləmə tətbiqi sisteminin yaradılması idxal, topdansatış, pərakəndə, sahə və digər qiymət formalaşması nöqtələrində qiymətlərin artım dinamikasını izləməyə imkan verəcək, müvafiq dövlət qurumlarına vaxtında və çevik müdaxilələr etməyə şərait yaradacaq, inflyasiyanın tənzimlənməsində qurumlararası məlumat mübadiləsini, habelə koordinasiyanı gücləndirəcək, məlumatlar əsasında potensial qiymət dəyişikliyi üzrə proqnozlar hazırlanacaq.

Hesabat ilində mürəkkəb qlobal iqtisadi mühitin ölkə iqtisadiyyatına təsirləri çoxtərəfli olub. Azərbaycanın əsas ixrac məhsullarının qiymətləri 2022-ci illə müqayisədə bir qədər azalsa da, əlverişli olaraq qalıb. Bu da respublikanın tədiyə balansına, valyuta bazarında tarazlığa və iqtisadi aktivliyə pozitiv təsir göstərib.

Yeri gəlmişkən, son illər ölkəmizin ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb. Bunun nəticəsidir ki, təkcə bu ilin yanvar ayında Azərbaycanın ümumi ixracı 1,8 milyard dollar, qeyri-neft sektoru üzrə ixracı 222 milyon dollar təşkil edib. Bu müddətdə yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz artaraq 70 milyon dollara, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 152 milyon dollara bərabər olub.

Son illərdə mürəkkəb qlobal iqtisadi mühitin ölkə iqtisadiyyatına təsirlərinə baxmayaraq respublikada bir sıra mühüm uğurlar qazanılıb. Məsələn, Azərbaycanın əsas ixrac məhsullarının qiymətləri əlverişli olaraq qalıb. Bu da ölkənin tədiyə balansına, valyuta bazarında tarazlığa və iqtisadi fəallığa müsbət təsir göstərib. Hesabat dövründə tədiyə balansının başlıca komponenti olan xarici ticarət balansında profisitlik qorunub. Xarici ticarət balansı əsasında olan ixrac ötən il 29,2 milyard dollar, idxal isə 16,4 milyard dollar təşkil edib.

Xatırladaq ki, hesabat ilində 29,2 milyard dollarlıq ixracın 25,9 milyard dolları neft-qaz sektorunun payına düşüb. İxracın strukturunda əsas yer tutan xam neft 16,8 milyard dollar təşkil edib. Təbii qaz 8,4 milyard dollar, neft məhsulları isə 0,7 milyard dollar olub.

Yeri gəlmişkən, 2023-cü il ərzində AMB-nin pul siyasəti inflyasiyanın hədəf intervalına qaytarılmasına yönəlib. Pul siyasəti alətləri bank sisteminin likvidlik mövqeyi və qiymət sabitliyi üzrə risklər balansı nəzərə alınmaqla tətbiq edilib. Başqa sözlə, hesabat dövründə pul siyasətinin inflyasiyaya təsir imkanlarının artırılması istiqamətində islahatlar davam etdirilib.

Qeyd olunduğu kimi, Azərbaycanda inflyasiya 2023-cü ilin I rübündən sonra azalmağa başlayıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən ilin sonunda 12 aylıq inflyasiya 2,1 faiz təşkil etməklə hədəf (4±2 faiz) diapazonunun aşağı hissəsində formalaşıb. 2023-cü ildə orta illik inflyasiya birrəqəmli səviyyədə 8,8 faiz olub. Tənzimlənən qiymətlərin, həmçinin mövsümi xarakterli məhsulların qiymət dəyişimi nəzərə alınmadan hesablanan baza inflyasiyasının tempi də azalaraq dekabrda 2,3 faiz olub, inflyasiyanın bütün komponentləri üzrə azalma müşahidə edilib.

Ümumilikdə, 2023-cü ilin dekabrında illik inflyasiya ərzaq məhsulları üzrə 0,8 faiz, qeyri-ərzaq məhsulları üzrə 2,7 faiz, xidmətlər üzrə isə 3,7 faiz olub. İnflyasiyanın makroiqtisadi və maliyyə sabitliyi üçün xələl gətirməyən həddə qorunması məqsədilə cari ildə də zəruri tədbirlərin davam etdirilməsi nəzərdə tutulub.

AMB-nin pul siyasətini uğurla həyata keçirməsi, eyni zamanda ölkədə investisiya qoyuluşuna da müsbət təsir göstərib. Mərkəzi Bankın Statistika Departamentinin direktoru Samir Nəsirovun mediaya bildirdiyinə əsasən, ötən il Azərbaycandan xarici ölkələrə yatırılan birbaşa investisiyaların məbləği 3,1 milyard dollar təşkil edib. Ölkədən birbaşa investisiyaların məbləğinə görə, ilk üçlükdə Türkiyə (1,8 milyard dollar), ABŞ (312 milyon dollar) və Böyük Britaniya (157 milyon dollar) qərarlaşıb.

Ötən il ölkə iqtisadiyyatına birbaşa xarici investisiyalar isə 6,7 milyard dollar səviyyəsinə yüksəlib. S.Nəsirovun sözlərinə görə, Azərbaycan iqtisadiyyatında birbaşa investisiyaların həcminə görə, liderlik edən ölkələr sırasında Böyük Britaniya (1,9 milyard dollar), Türkiyə (1,3 milyard dollar), Kipr (792 milyon dollar), Rusiya (617 milyon dollar) və İran (396 milyon dollar) ilk beşlikdə qərarlaşıb.

Sonda bir məqamı da xatırlatmaq istərdik. Bu, AMB iqlim maliyyəsi üzrə standartlar hazırlaması ilə bağlıdır. Belə ki, AMB aidiyyəti dövlət qurumları ilə birgə iqlim maliyyəsi üzrə minimum standartların (taksanomiya) hazırlanması üzrə iş aparır. AMB sədrinin müavini Əliyar Məmmədyarov Qubada keçirilən 3-cü "Aqrobiznesin İnkişafı Forumu"nda bildirib ki, taksanomiya dayanıqlı və "yaşıl maliyyə"nin inkişafı üçün vacib şərtlərdən biridir. Taksanomiyada digər iqtisadi sektorlarla yanaşı, kənd təsərüffatı üzrə dayanıqlı və "yaşıl fəaliyyət"lər müəyyən ediləcək. Bu istiqamətdə Kənd Təsərrüfatı Nazirliyinin ekspertləri ilə yaxın əməkdaşlığa ehtiyac var.

Ümumilikdə, digər ölkələrdə olduğu kimi, Azərbaycanda da kənd təsərrüfatı iqlim dəyişmələrindən ən çox təsirlənən sektorlardan biridir. Temperator artımı fonunda su ehtiyyatlarının azalması iqlim dəyişikliyinə dözümlü, dayanıqlı kənd təsərrüfatının yaradılmasını zəruri edir. Bu baxımdan taksanomiyada "ağıllı suvarma" sistemlərinin tətbiqi, iqlim dəyişikliyinə dözümlü məhsul toxumlarının inkişaf etdirilməsi və bu qəbildən olan digər kənd təsrüffatı fəaliyyətləri dayanıqlı və "yaşıl fəaliyyət" növləri kimi təsnifləşdiriləcək.

***Vaqif BAYRAMOV***
***XQ***

# Rumıniya ölkəmizin Avropa dostu və tərəfdaşıdır

*(əvvəli 1-ci səhifədə)*



İki ölkə investisiya sahəsində də fəal əməkdaşlıq edir. İndiyədək Rumıniya Azərbaycana 30 milyon ABŞ dolları, Azərbaycan isə Rumıniyaya 90 milyon ABŞ dolları dəyərində investisiya yatırıb. Bu baxımdan SOCAR-ın Rumıniyadakı fəaliyyəti, bu ölkənin yanacaq bazarında tutduğu əhəmiyyətli yer diqqəti daha çox cəlb edir. Yeri gəlmişkən, SOCAR və Romqaz arasında imzalanmış müqaviləyə əsasən, 2023-cü il yanvarın 1-dən Azərbaycan qazı Rumıniya bazarına çatdırılır.

Rumıniyanın energetika naziri Sebastiyan İoan Burdujanın ölkəmizə səfəri, eləcə də Bakıda Azərbaycan və Rumıniya Hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 8-ci iclası ölkələrimiz arasında münasibətlərin dərinləşməsinə, iqtisadi sahədə, xüsusən də enerji sahəsində əməkdaşlığın daha da möhkəmlənməsinə səbəb olacaq.

Aprelin 1-də Rumıniyanın energetika naziri Sebastiyan İoan Burdujanı qəbul edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin önəmini vurğulayaraq ikitərəfli münasibətlərin fəal inkişaf mərhələsində olduğunu diqqətə çatdırıb. Dövlətimizin başçısı Bakıda keçirilən Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında iqtisadi-ticari əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 8-ci iclasının münasibətlərimizin perspektivlərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib, tədbirin gündəliyində enerji ilə yanaşı, digər sahələrə aid məsələlərin də olduğunu məmnunluqla qeyd edib. Söhbət zamanı, həmçinin energetika sahəsində artıq xeyli irəliləyişin olduğu vurğulanaraq Azərbaycan təbii qazının və Qara Dəniz vasitəsilə "yaşıl enerji"nin Rumıniyaya ixracı ilə bağlı fikir mübadiləsi aparılıb.

Müştərək Komissiyanın aprelin 1-də keçirilmiş 8-ci iclasında 2009-cu ildə imzalanmış Strateji tərəfdaşlığa dair Birgə Bəyannamənin və 2011-ci ildə imzalanmış Strateji tərəfdaşlığın həyata keçirilməsi üzrə Birgə Fəaliyyət Planının, ümumən ötən dövrdə imzalanmış 60-dan çox əməkdaşlıq sənədinin ölkələrimiz arasında əlaqələrin inkişafına imkan yaratdığı, münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi qeyd olunub. İclasda enerji, nəqliyyat, investisiya, kənd təsərrüfatı, sosial, təhsil, humanitar, infrastruktur, inşaat və digər sahələrdə gələcək əməkdaşlıq istiqamətlərinə dair müzakirələr aparılıb.

Tədbir zamanı Azərbaycan və Rumıniya hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 8-ci iclasının Protokolu ilə yanaşı, baytarlıq və qida təhlükəsizliyi sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu da imzalanıb.

Komissiyanın iclasından sonra media nümayəndələri üçün keçirilən brifinqdə komissiyanın azərbaycanlı həmsədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Rumıniyanın energetika naziri Sebastiyan İoan Burduja iclasın yekunları barədə məlumat veriblər. Onlar ikitərəfli əməkdaşlıq əlaqələrinin daha da genişlənməsi üçün davamlı işlər aparıldığını, imzalanan yeni sənədlərin də bu sahədə növbəti irəliləyişlərə imkan yaradacağına əminlik ifadə ediblər. Nazir Sahil Babayev bildirib ki, iki ölkə arasında energetika, nəqliyyat sektoru, kənd təsərrüfatı və ticarət sahəsində, səhiyyə sahəsində, özəl sektorun inkişafı, elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlığı gücləndirmək üçün böyük imkanlar mövcuddur. Brifinqdə, həmçinin Azərbaycanla Rumıniya Hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 8-ci iclasının yekunları barədə məlumat verilib.

Yeri gəlmişkən, Rumıniyanın energetika naziri Sebastiyan İoan Burduja ölkəmizə səfəri çərçivəsində azərbaycanlı həmkarı Pərviz Şahbazov ilə də görüşüb. Hökumətlərarası Komissiya çərçivəsində baş tutan görüşdə Azərbaycan və Rumıniyanın strateji tərəfdaşlıq əsasında münasibətləri inkişaf etdirən dost ölkələr olduğu vurğulanıb. Görüşdə əməkdaşlıq əlaqələrinin yeni inkişaf mərhələsinə yüksəlməsində strateji əhəmiyyətli enerji layihələrinin rolundan bəhs olunub. Eyni zamanda "Xəzər – Qara dəniz – Avropa" yaşıl enerji dəhlizi, "Qara dəniz LNG" layihəsi, "Həmrəylik Halqası", SOCAR və "Romgaz S.A." arasında qaz tədarükü, həmçinin, "Transgaz" ilə qaz nəqli üzrə əməkdaşlığın hazırkı vəziyyətinə və perspektivlərinə dair müzakirələr aparılıb. Neft və neft məhsullarının ticarəti sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərinə toxunulub.

Söhbət zamanı enerji məsələlərinin tənzimlənməsi sahəsində hər iki ölkənin müvafiq qurumları arasında intensiv əlaqələrin qurulması və əməkdaşlığın gücləndirilməsi məqsədilə zəruri tədbirlərin görülməsi razılaşdırılıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Dəniz və Liman Agentliyi beynəlxalq sertifikat alıb

**Dəniz nəqliyyatı sahəsində səmərəli və effektiv idarəetmə sisteminin təkmilləşdirilməsi baxımından əhəmiyyətli bir mərhələ olaraq, Dövlət Dəniz və Liman Agentliyi (DDLA) yüksək beynəlxalq nüfuza malik "QSI Belgelendirme Muayene ve Test Hizmetleri Ltd Şti" tərəfindən aparılan müstəqil auditdən sonra ISO 9001:2015 Keyfiyyəti İdarəetmə Sistemi üzrə beynəlxalq uyğunluq sertifikatına layiq görülüb.**




Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına əsasən, dəniz üzgüçülüyünün təhlükəsizliyi, dənizdə insan həyatının və sağlamlığının qorunması, dəniz ətraf mühitinin mühafizəsi, habelə dənizçilərin hazırlanması sahəsində tədbirlərin görülməsi, dəniz limanlarında fəaliyyətin dövlət tənzimlənməsi və dəniz üzgüçülüyünün təhlükəsizliyi ilə bağlı xidmətlər sahəsində fəaliyyətin keyfiyyətinin artırılması və davamlı inkişafın təmin edilməsi DDLA-nın qarşısında duran başlıca prioritet məqsədlərdəndir. Agentliyin beynəlxalq uyğunluq sertifikatına layiq görülməsi də bu istiqamətlər üzrə öz əhəmiyyətli töhfələrini verəcək.

Sertifikatın təqdimetmə mərasimində çıxış edən tərəflərin rəhbər heyəti bu əlamətdar hadisəni müsbət qiymətləndirərək yüksək keyfiyyət, səmərəlilik və məmnunluq göstəricilərini prioritet qəbul etməklə hazırlanmış standartların daima yenilənməsi və tətbiqi üçün əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

# Həkəriçay su anbarı üzərində 3 elektrik stansiyası tikiləcək

**Laçın rayonu ərazisindən axan Həkəri çayı üzərində tikiləcək "Həkəriçay" su anbarının texniki-iqtisadi əsaslandırılması və layihə-smeta sənədləri hazırlanıb.**



Dövlət Su Ehtiyatlar Agentliyinin tabeliyindəki "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin İnvestisiyalar və layihələrin idarə olunması şöbəsinin müdiri Çingiz Abbasovun bu barədə verdiyi məlumatda bildirilir ki, su anbarının həcmi, bəndin hündürlüyü, topoqrafik və mürəkkəb geoloji şərait nəzərə alınmaqla ən optimal variant olaraq bəndin Həkəri çay çayı üzərində Laçın rayon mərkəzindən 6 kilometr şimal-qərbində yerləşməsi planlaşdırılıb.

Ç.Abbasovun sözlərinə görə, ümumi su tutumu 100 milyon kubmetr olacaq su anbarı vasitəsilə işğaldan azad olunmuş Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Ağdam rayonlarının əraziləri də daxil olmaqla, Bakı şəhəri ilə birlikdə 1,8 milyon nəfərin yüksək keyfiyyətə malik içməli su ilə təmin edilməsi nəzərdə tutulub. "Həkəriçay" su anbarından çıxan magistral boru kəməri üzərində ümumi gücü 19,15 MVt olan 3 ədəd su elektrik stansiyasının tikilməsi də planlaşdırılıb.

Qeyd edək ki, başlanğıcını Laçın rayonu ərazisindən götürən Həkəri çayının uzunluğu 113 kilometr, orta illik su sərfi saniyədə 10,7 kubmetrə yaxındır. "Həkəriçay" su anbarı içməli suyun toplanması üçün nəzərdə tutulur. Bu çay tam olaraq ölkəmizdə formalaşır. Axımı əsasən bulaq sularından ibarətdir.

***XQ***

Zəfər yolçuları

# ÜÇ DOST – biri şəhid, biri itkin, biri qazi



**...Qarabağ müharibəsi başlananda onlar yenicə orta məktəbi bitirmişdilər. Demək olar ki, bütün qayğılardan uzaq böyümüşdülər. Atalı- analı günlərin şirinliyində şıltaq uşaqlıq illərini başa vurmuşdular. Artıq yeniyetmə çağlarında idilər. 90-cı illərin ağrı-acıları bu üç dostun da nisgilinə çevrilmişdi. Elə bil, birdən-birə böyümüşdülər...**

20 Yanvar faciəsi... 90-cı illərin meydan hərəkatı... Müstəqilliyini yenicə qazanan bir ölkənin siyasi-iqtisadi çətinliyi... Və bir də ölkənin başı üstünü alan qara buludlar –ermənilərin növbəti ərazi iddiaları... Bütün bunlar üç yeniyetmə dostun qayğılarının yelkəni olmuşdu. Bu yelkən onları haralara aparacaqdı?!..

...Üç ayrılmaz dost idilər. Üçü də eyni ildə –1974-cü ildə dünyaya göz açmışdı. İsaq yanvarda, İmran fevralda, İslam isə may ayında. Oxşarlığa bir baxın, adları da eyni hərflə başlamışdı: İsaq, İmran, İslam Qum kəndinin yuxarı məhəlləsindən həyata cilvələnmiş, kənd uşaq bağçasında qayğısız körpəliklərini keçiriblər. Məktəb yaşı çatanda üçü də eyni sinifdə bir partada əyləşib. Sinif müəllimləri onları bir-birindən ayrı oturtmaq istəsə də, dostlar inadlarından dönməyiblər. Onların oturuş-duruşları, özlərini aparmaları tamam başqa olub. Aşağı sinif şagirdləri onlara özlərinin qəhrəmanları kimi baxıblar. Sinifdən-sinifə keçdikcə onlar daha da sıx bağlanıblar bir-birinə. Söz düşəndə müəllimləri deyərmişlər: Görəsən, onların yolları nə vaxt ayrılacaq?

...1991-ci ilin son zəng günü 23 məzunun sevinc və kədərinin ünvanı olur. Sevinən kim, kövrələn kim. Yenə nəzərlər bu üç dostda idi. Onlar sevinə, gülə bilmirdilər. Sakitcə dayanıb müəllimlərinin, valideynlərinin nəsihətlərini dinləyirdilər. Sinif yoldaşları gələcək arzularından söz açanda onlar susurdular.

Erməni işğalçılarına qarşı Qarabağ müharibəsi başlananda Qum kənd tam orta məktəbinin məzunları olan üç dost– İsaq İsazadə, İslam Yusifov və İmran Şamxalov kəndin qəhrəmanlıq tarixinə adlarını yazmaq üçün and içirlər: Vətən uğrunda döyüşə hazırıq!

Hər üç dost rayon hərbi komissarlığına müraciət edərək, 6 aylıq sürücülük kursuna yazılırlar. Şəkidə kurs keçdikdən sonra dostları həqiqi hərbi xidmətə çağırırlar. Qədərə bir baxın. İmran İsaqla, İslamdan 3 ay kiçik olsa da, onu da eyni gündə əsgəri xidmətə çağırırlar. 1992-ci il iyulun 3-də bu üç dost Biləcəridə idilər. Bölgü zamanı İsaqla İslam Gəncəyə, İmran isə başqa hərbi hissəyə düşmüşdü. Amma onları ayırmaq çətin idi. Yalvar-yaxar edib birlikdə qalmağı bacaran dostlar Gəncədəki Daxili Qoşunlarda xidmətə başlayırlar.

40 günlük karantin zamanı İmran bərk xəstələnir. Müalicə üçün hərbi hissədəki tibbi məntəqəyə aparırlar. Bir neçə gündən sonra andiçmə olur. Andiçmədən bir gün sonra isə "Həyəcan" siqnalı verilir. Döyüşə getməli idilər. Dostlarından ayrı düşmək istəməyən İmran xəstə olsa da, gizlincə arxa sırada dayanır. Dostları onu sağalması üçün qalmasını israr etsələr də, İmran inadından dönmür. Beləcə, üç dost döyüş yolunu birgə addımlayırlar. Onların bölüyü Ağdərənin Mehmanə kəndindəki Turbazaya göndərilir.

...Sərsəng su anbarının yuxarısında ermənilər möhkəm mövqe tutmuşdular. Onların mövqeyi dağın başında idi. O gün çox çətin döyüş olur. Müharibənin hələ nə olduğunu dərk etməyən bu 18 yaşlı gənclər verilən əmri yerinə yetirmək üçün irəli can atırlar. O gün çox yaralımız olsa da, əsgərlərimiz ermənilərin mövqeyini ələ keçirirlər. Üç gün bu yüksəklikdə mövqe tutan əsgərlərimiz yenidən kəndə enirlər. Yeni döyüş tapşırığı verilir, İsaq, İslam və cəlayirli Araz Heydərov hər biri 2 əsgərlə, aralarında 300 metr məsafə olmaqla ermənilər gələn tərəfə nəzarət etməli olurlar...

Həmin gecə zülmət kimi qaranlıq idi. Nəfəs çəkmədən iki gün gözləyirlər. İki gündən sonra bir erməni səngərdən çıxıb kolluqda gözdən itir. Artıq qaranlıq düşmüşdü. İki saat sonra atışma başlanır. İslamın dayandığı səmtdən ermənilər hücuma keçirlər. Hava çiskinli və dumanlı idi. Göz-gözü görmürdü. Səhər açılanda İsaq əsgərlərdən birini göndərir ki, görsün nə baş verib. Bir saat keçir əsgər qayıtmır. Araz da İsaqın yanına gəlir. Birlikdə İslamın dayandığı mövqeyə doğru gedirlər. Yarı yolda göndərdikləri əsgərlə qarşılaşılar. Əsgər bunları görüb hönkürtü ilə ağlayır. Birlikdə bölüyün yerləşdiyi mövqeyə gələndə öyrənirlər ki, İslamı vurublar. İsaq ora-bura qaçıb İslamı axtarır. Komandiri onu güclə sakitləşdirir. Onda İsaqın içində elə bil nə isə qırılır. Adını qoya bilmədiyi bu acı İsaqı göynədir, əllərini üzünə tutub, hönkürtü ilə ağlayır ...

İslamı çoxdan aparmışdılar. Son dəfə dostunu görmək acısı ilə qovrulan İsaqa döyüş dostları təsəlli verirlər. Elə bu vaxt ermənilər əsgərlərimizin bu mövqeyini də atəşə tuturlar.

Yeni döyüş tapşırığı alan əsgərlərimiz "Volqa-12" adlanan mövqeyi və Çıldıran kəndini ələ keçirməli idilər. Həmin mövqeyi və Çıldıran kəndini ələ keçirən bölük daha irəli getməli idi. İrəliləmək üçün yol dağlardan keçirdi. Erməni kəndi olan Kicanı ələ keçirdikdən sonra qarşıdakı çılpaq təpə alınmalı idi. Təpənin dörd tərəfi dərin səngər idi. Cəmi 50 nəfərlə bu təpəni ələ keçirmək çətin olsa da, igid oğullarımız gecə qaranlığında artıq təpədə idilər. Daha bir təpəni də ələ keçirmək üçün irəliləyən əsgərlərimiz gecənin qaranlığında bir-birindən ayrı düşməmək üçün tək sıra şəklində ehtiyatla irəliləyirdilər. İkinci təpəyə qalxanda səhər açılmışdı. Gecə qaranlığında bələdçini itirmişdilər. Ətrafda heç kim yox idi. İsaq dostu İmranı səsləyir. Lakin İmran onların arasında deyildi. Heç bir atəş olmamışdı. İmran isə yoxa çıxmışdı. İkinci dostunu itirdiyi üçün İsaq özünü günahkar bilir və için-için ağlayır...

Az sonra meşədən ermənilərin atəşi başlanır. Haylar minamiyotlarla atəş açırdılar. İkinci dostunu da itirən o təpədə İsaq da yaralanır. Ermənilər yenidən təpələri, Çıldıranı ələ keçirirlər. Çox itki verən əsgərlərimiz Ağdərəyə çəkilirlər. Bir neçə saatdan sonra qərargahdan əmr gəlir ki, hücuma keçsinlər. Qərargah komandiri İsaqa döyüşə getməyə icazə vermir: Sən qal. Həm yaralısan, həm də sənə 10 günlük məzuniyyət verilir.

– Mən razılaşmadım. Dedim ki, Araz da mənimlə məzuniyyətə gedərsə, buna razıyam. Araz məni dilə tutdu ki, sən get-gəl, sonra mən gedərəm. Məni aparmağa yeznəmlə atamın əmisioğlu gəlmişdi. Heç nə deməsələr də, ürəyimə damır ki, nə isə olub.

Kəndə çatanda bildim ki, atamı itirmişəm. Atam rota komandirimiz Adil Hafizovun kəndə gəldiyini eşidib Cəlayirə gedibmiş. Geri qayıdanda qəzaya düşür.

Atamla son görüşümü heç vaxt unutmuram. Andiçmə mərasiminə gəlmişdi. Gecə mənlə eyni yataqda yatdı atam. Elə hey ağlayırdı... Kim bilir ürəyindən nələr gəlib-keçirdi...

Atamın hüzn mərasiminin 3-cü günü bir gündə bədənimdə 24 irinli yara əmələ gəldi. Dərhal Zaqataladakı daxili qoşunların hospitalına aparıldım. Ayağımdakı qəlpə zəhərli olubmuş. Müalicə aldıqdan sonra yenidən hərbi hissəyə qayıtdım. Beş ay Lələtəpədə döyüşdüm. Atəşkəs əldə olunsa da, hələ ordudan təxris edilməmişdik. Lələtəpədəki döyüşlərin birində digər həmkəndlimi Həşimi də itirdim. Düz 4 il, 6 aydan sonra ordudan təxris edildim. Ordudan təxris olunmağımın da qəribəliyi oldu. Təxris olunan döyüş dostlarımın hamısına hərb bilet verildi. Mənə isə yox. Dedilər sənin adın heç qeyd olunmayıb. Necə yəni, mən rayon hərbi komissarlığından əsgəri xidmətə göndərilmişəm, düz 4 il 6 aydır döyüşmüşəm, yaralanmışam, döyüş dostlarım yanımdadır. Mənim döyüş yolumun üstündən sanki bir xətt çəkilmişdi. Hələ də həqiqi hərbi biletimi ala bilməmişəm. Çox yerlərə müraciət etmişəm. Cavab yoxdur...

Evə qayıdanda itirdiyim dostlarımın sanki acısını ovundurmaq üçün təskinlik tapa bilmirdim. Qəribə idi. Sağkən mən də dostlarımın yanında imişəm... Dayım Moskvada yaşayırdı. O, məni özü ilə apardı. Bir neçə ildən sonra yenidən Azərbaycana qayıtdım. Ailə qurdum. Bir övladım var. Lakin heç vaxt özümü bağışlaya bilmirəm. Mən də geri qayıtmamalı idim. Vəfasız çıxdım. Üçümüz də bir getmişdik. Həmişə üçümüz bir idik. Mən niyə sağ qaldım?! İndi onlarla yuxularımda görüşürəm. Səhər olan kimi İslamın məzarına baş çəkib yuxumu danışıram. İmran yuxuma daha çox girir. Həmişə də deyir, İsaq, mən ölməmişəm. Amma utanıram kəndə qayıtmağa. Bu yuxular sanki gerçəkdi. Ayılanda bunun yuxu olduğunu dərk edirəm.

Yəqin siz də eşitmiş olarsınız. Vətən müharibəsi başlananda səs yayıldı ki, İmran sağdır... O gün dağda şabalıd yığırdıq, kənddən xəbər göndərdilər ki, tez gəl, İmran gəlir. İnanın ki, elə bil quş olub uçdum. Kənddə hamı yolda idi. Hətta televiziyadan çəkiliş qrupu da gəlmişdi. Camaat maqistral yola çıxmışdı...

Sən demə, bu, bir şayə imiş. Həmin gün mən depressiyaya düşdüm. Xeyli müalicə aldım. İçimdə yenə bir səs var: İmran sağdır.

Elə iki gün əvvəl də yenə yuxuma girmişdi. Deyirdi, İsaq, mən ölməmişəm. Amma üzüm yoxdu kəndə qayıdam…

Həmişə eyni yuxunu görmək məni dəli edir.

Axı, biz üç dost, üç qardaş idik. Biz elə bilirdik, ölsək də birlikdə öləcəyik. Tanrı hərəmizə bir qismət yazıbmış: İslam şəhid, İmran itkin, mənsə qazi.

– Çox qazimizin döyüş yolunu birgə vərəqləmişdim. Bu dəfə dinlədiyim əsl həyat hekayəsi idi. Özü də 1974-cü ildə Qumda doğulub, boya-başa çatan ayrılmaz üç dostun bir qədər acılı, eyni zamanda, qürurlu bir həyat hekayəsi. Onların hər üçü rayonumuzun igid oğullarıdır. Qumlular onlarla –üç dostla həmişə fəxr edir. Və bu gün onların əfsanəvi dostluğu dillərə dastan olub.

Əfsanəyə dönən dostluğunuz gənclərimiz üçün örnəkdir. Hekayə belə tamamlanır: Qumda ayrılmaz üç dost var idi. "Müharibə" adlı kabus onları ağuşunda ayrı saldı: biri şəhid, biri itkin, biri qazi kimi yaddaşlara həkk olundular.

***Xavər ƏFƏNDİYEVA,***
***"Şəlalə" qəzetinin redaktoru***
**Qax rayonu**

# Naxçıvanda media kollektivləri ilə görüş

**Bügünlərdə "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin yaradılmasının 92 və diyarın ilk informasiya agentliyi "Nuhçıxan"ın fəaliyyətə başlamasının 6-cı ildönümü tamam olur. Bu münasibətlə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli media qurumlarının kollektivləri ilə görüşüb.**



Əvvəlcə səlahiyyətli nümayəndə "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və "Nuhçıxan" İnformasiya Agentliyində yaradılan şəraitlə tanış olub.

Fuad Nəcəfli Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"ndan irəli gələn tədbirlərdən danışıb, eləcə də muxtar respublikanın 100 illiyinin qeyd edilməsinin önəmini vurğulayıb, görüş iştirakçılarını təbrik edib.

Fuad Nəcəfli informasiya rəqabəti mühitində Naxçıvan mediasının daim təkmilləşməsinin, yeniləşməsinin, təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib. Səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, bu il Naxçıvan teleradiosunun yeni binasının tikintisi layihələndiriləcək və 2025-ci ildə tikinti işlərinə başlanılacaq, maddi-texniki bazanın təkmilləşdirilməsi daim diqqətdə saxlanılacaq. Televiziyanın peyk yayımını həyata keçirmək isə gələcəkdə Naxçıvanın qlobal media mühitinə çıxışını təmin edəcək: "Qürurvericidir ki, muxtar respublikada 92 yaşlı Naxçıvan teleradiosu, eləcə də 100 ildən artıq tarixi olan "Şərq qapısı" qəzeti kimi media orqanları fəaliyyət göstərir".

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Sahil Tahirli Naxçıvan teleradiosunun və "Nuhçıxan" İnformasiya Agentliyinin yaranmasından, televiziyanın muxtar respublikanın ictimai-siyasi həyatında baş verən hadisələrin işıqlandırılmasındakı rolundan, 1990–1993-cü illərdə ümummilli lider Heydər Əliyevin Naxçıvan dövrü fəaliyyətini salnaməyə çevrməsindən danışıb. O, göstərilən diqqətə və dəstəyə görə kollektiv adından minnətdarlıq edib.

Görüşdə vurğulanıb ki, səlahiyyətli nümayəndəliyin fəaliyyəti dövründə cəmiyyətin büdcəsi artırılıb, qonorar sistemi bərpa edilib. 20-dən artıq yeni ştat vahidi yaradılıb, teleradionun efir vaxtı 17 saata çatdırılıb. Bakı bürosu fəaliyyətə başlayıb, müasir yayım və çəkiliş avadanlıqları alınıb. Ulu öndər Heydər Əliyevin və Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibəti ilə silsilə filmlər hazırlanıb.

Görüş çay süfrəsi arxasında yradıcılıq söhbəti ilə davam edib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Bakıda Yunanıstanın Milli Günü



**Yunanıstanın Milli Günü münasibətilə aprelin 2-də Bakıda rəsmi qəbul təşkil edilib.**

Tədbirdə çıxış edən Yunanıstan səfiri Xristos Kapodistrias ölkələrimiz arasında dostluq münasibətlərini yüksək qiymətləndirib.

Yunanıstan və Azərbaycan arasında əlaqələrin müxtəlif sahələri əhatə etdiyini qeyd edən diplomat bildirib ki, yaxın həftələrdə Hökumətlərarası Birgə Komissiyanın növbəti iclası keçiriləcək.

"Əminik ki, bir neçə aydan sonra Azərbaycan həm təşkilati, həm də mahiyyət etibarilə COP29 sammitinə uğurla ev sahibliyi edəcək. Bizim enerji sektorunda əməkdaşlığımız artıq bir uğur hekayəsidir. Cənub Qaz Dəhlizinin bir hissəsi olan Trans-Adriatik boru xətti qitənin enerji təchizatında əhəmiyyətli problemlərlə üzləşdiyi bir dövrdə Azərbaycandan qazı Avropaya gətirən strateji infrastrukturdur. Artıq üç ildən çoxdur ki, Trans-Adriatik boru xətti təbii qazı Azərbaycandan Yunanıstana, Bolqarıstana və İtaliyaya, eləcə də qonşumuz Türkiyə vasitəsilə dayanıqlı və etibarlı şəkildə nəql edir", –deyə səfir vurğulayıb.

Diplomat əmin olduğunu bildirib ki, ölkələrimiz arasında əlaqələr dərinləşməkdə davam edəcək.

Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov ölkələrimiz arasında faydalı əməkdaşlıq, siyasi dialoqun mövcud olduğunu deyib.

"Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru layihəsi Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində və qaz təchizatının şaxələndirilməsində mühüm rol oynayır. Bu il Hökumətlərarası Birgə Komissiyanın iclası keçiriləcək. İnanırıq ki, əməkdaşlığımız bundan sonra daha da möhkəmlənəcək", – deyə nazir müavini qeyd edib.

***XQ***

# MEDİA Müşahidə Şurasının iclası

**Aprelin 2-də Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının növbəti iclası keçirilib.**



Müşahidə Şurasının sədri Dağbəyi İsmayılov və digər iştirakçılar qarşıda duran vəzifələr, jurnalistlərin peşəkarlığının yüksəldilməsi ilə bağlı keçirilən təlimlər barədə geniş fikir mübadiləsi aparıblar. Sonra onlayn təlim platformasının müvafiq bölməsinin təqdimatı olub.

İclasda audiovizual məhsulların istehsalı və yayımı üzrə ümumölkə yerüstü televiziya yayımçıları üçün keçirilməsi nəzərdə tutulan müsabiqənin qaydaları təsdiq edilib.

***XQ***

# Fransa vətəndaşının Bakıda metro xuliqanlığı

**Metro qatarlarının dayandığı depoya gizlincə daxil olub bir neçə vaqonu boyayaraq əmlaka qəsdən ziyan vuran Fransa vətəndaşı həbs edilib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, araşdırmalarla Avstraliya İttifaqının vətəndaşı P.Han Paul, Yeni Zelandiya vətəndaşı İsmael De Saint Quent və Fransa vətəndaşı Clerc Theqo Huqo martın 30-u gecə saatlarında "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə məxsus depoya qanunsuz daxil olaraq qəsdən dövlət əmlakına ziyan vurmalarına dair şübhələr müəyyən edilib. Əməldə cinayət tərkibi yarandığından Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə polis idarəsində fakta görə başlanmış cinayət işi üzrə Fransa vətəndaşı Clerc Theqo Huqo məhkəmənin qərarı ilə 3 ay müddətinə həbs, digərləri barəsində həbslə əlaqədar olmayan qətimkan tədbirləri seçilib.



***XQ***

# ANAMA əməkdaşı minaya düşüb

**Aprelin 2-də Ağdam rayonunun işğaldan azad edilmiş Sarıcalı kəndi ərazisində 1 nəfərin xəsarət alması barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Hadisə nəticəsində ərazidə mina təmizləmə işləri aparan Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı 1987-ci il təvəllüdlü Əliyev Xəyyam Qəmbər oğlu xəsarət alıb və istifadə olunan texnikaya maddi ziyan dəyib.

Hazırda Xəyyam Əliyevin vəziyyəti qənaətbəxşdir.

Faktla bağlı Ağdam rayon prokurorluğunda araşdırma aparılır.

***XQ***

Cəfər Cabbarlı – 125

# Səhnəmizdən pərvazlanan mahnılar

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının tamaşalarına musiqi yazan ilk bəstəkarları sadalayanda baba Müslüm Maqomayev, Asəf Zeynallı, Əfrasiyab Bədəlbəyli ilə yanaşı, Cəfər Cabbarlının da adı çəkilməlidir. Bəli, yanlışlıq-filan yoxdur. Milli musiqi sənətimizin təməl daşlarını qoymuş 3 bəstəkarın ardınca qısa ömrünə tərcüməçi, şair, nasir, publisist, teatr və kino tənqidçisi, dramaturq, ssenarist, teatr və kino rejissorluğu kimi yaradıcılıq sahələrində qazandığı uğurları cəmləşdirmiş Cəfər Cabbarlının adı gəlir.**



### “Zalım yar”ın şöhrəti

Böyük mütəfəkkir Cəfər Cabbarlının öz tamaşalarına bəstələdiyi unudulmuş, amma çoxdan müğənnilərin repertuarında möhkəmlənmiş mahnıları olub. Onun həyat yoldaşı Sona xanımın xatirələrində oxuyuruq: “Cəfərin bir xasiyyəti var idi: pyes yazmağı düşünəndə əvvəl onun qəhrəmanlarından birinin mahnısını fikirləşirdi. Bəzən bunu xalq mahnılarından götürür, bəzən də özü yeni bir mahnı yaradırdı. Sözlərini yazır, hətta musiqisini də özü bəstələyirdi. Bu mahnını uzun zaman dodaqaltı oxuyur, pianoda çalırdı, sonra pyesi yazmağa başlayırdı. Məsələn, “Od gəlini”ndə Solmazın “Mən bir solmaz yarpağam ki”, “1905-ci ildə” Sonanın “Azad bir quşdum”, “Almaz”da Yaxşının “Gərək günəş dağları aşıb sönməyəydi”, “Yaşar”da Yaqutun “Küçələrə su səpmişəm” mahnıları belə yaranmışdır”.

Cəfər Cabbarlı “Sevil” əsərini yazmamışdan bir-iki ay qabaq belə bir mahnı oxuyardı:

*Sənə nə olub zalım yar,*
*Qadan-balan alım yar.*
*Sən ki, belə deyildin,*
*Səni bir öyrədən var.*

“Zalım yar” kimi tanıdığımız bu mahnını ilk dəfə kimin və nə vaxtdan oxuduğu bəlli deyil. Xalq mahnısı kimi təqdim edilən bu nəğmənin müəllifinin həqiqətən də Cəfər Cabbarlının olduğunu bilmirik. Əgər “Zalım yar” xalq mahnısı olsa belə, dramaturqun seçimi çox dəqiq idi və yarımac günlərinin səadəti tox günlərinin acısına qurban getmiş Sevilin iztirablarını çox yaxşı təsvir edirdi. “Zalım yar”ın yaranışından şübhəli olsaq da, “Sevil” ilə eyni vaxtda – 1928-ci ildə tamaşaya qoyulmuş “Od gəlini”ndə Solmazın oxuduğu “Mən bir solmaz yarpağam ki” mahnısının sözləri Cəfər Cabbarlının, musiqisi isə Əfrasiyab Bədəlbəylinindir. Təəssüf ki, “Od gəlini” uzun illərdir ki, tamaşaya qoyulmur və biz bu mahnını eşitmirik.

Cəfər Cabbarlının iki əsəri – “Almaz” və “1905-ci ildə” pyesləri 1931-ci ildə tamaşaya qoyulub. Bu tamaşalar da yaddaqalan mahnısız ötüşməyib. “Almaz”da Yaxşının oxuduğu “Gərək günəş dağları aşıb sönməyəydi”, “1905-ci ildə”də Sonanın Baxşının müşayiətilə oxuduğu “Azad bir quşdum” mahnıları populyarlıq qazanıb. Maraqlıdır ki, hər iki mahnı dərhal geniş yayılmayıb. Onların şöhrət tapmağına illər gərək olub... Və... hər iki mahnının musiqi müəllifinin kimliyi mübahisəlidir: bir sıra mənbələrdə mahnıların sözləri kimi, musiqisini də Cəfər Cabbarlının yazdığı, bəzi mənbələrdə isə Əfrasiyab Bədəlbəylinin bəstələdiyi göstərilir. Bizim isə tutalğamız yenə də xatirələrdir.

### “Azad bir quş”un pərvazı

1930–60-cı illərdə Azərbaycan Milli Dram Teatrında maraqlı rolları ilə yadda qalan bir aktyor olub: Əməkdar artist Süleyman Tağızadə. Onun teatrda ilk yaddaqalan rolu “1905-ci ildə” əsərindəki Baxşı olub. Öz rolu və bilavasitə “Azad bir quşdum” mahnısı ilə bağlı xatirəsi var: “Teatrın foyesində gəzişirdim. Bu vaxt Cəfər Cabbarlı mənə yaxınlaşıb:

– Yoldaş Tağızadə, tar çalmaq bilirsən? – deyə soruşdu.

– Xeyr, bilmirəm.

– Çox təəssüf, – deyə o, məndən ayrılıb pillələrlə yuxarı çıxmağa başladı.

Bu söhbət məni çox maraqlandırdı. Ertəsi gün C.Cabbarlının kabinetinə gedib soruşdum:

– Cəfər qardaş, sizin mənə verdiyiniz sualın səbəbini bilmək istəyirəm.

– Mən sənə bir rol yazırdım, təəssüf ki, tar çalmaq bilmirsən.

– Əgər tarım olsaydı, sizin arzunuzu yerinə yetirərdim.

Cəfər bir söz demədi. Saat 3-də, məşq qurtarana yaxın xidmətçi qadın mənə yaxınlaşıb dedi:

– Yoldaş Tağızadə, Cəfər Cabbarlı səni çağırır.

Getdim. Cəfər bir söz demədən ayağa durdu və “gedək” dedi.

İndiki Sabir bağının yanındakı musiqi alətləri mağazasından bir tar alıb mənə uzatdı. – Deyirdin ki, tar olsa, çalmağı öyrənib, sizin arzunuzu yerinə yetirərəm. Bu da tar. Bir tərəfdən böyük dramaturqun mənim üçün yazdığı rol, digər tərəfdən bu hədiyyə məni son dərəcə sevindirdi. Evə gəldim və o gündən tar çalmağı öyrənməyə başladım”.

Nəhayət, bir gün Əfrasiyab Bədəlbəyli, Cəfər Cabbarlı və aktyorun birgə işi olan mahnı hasilə yetib. Müəllifləri fani dünyadan köçsələr də, “Azad bir quş”a çevrilib teatr binasından pərvaz edən mahnı hələ də yaşayır. Həmin tar isə N.Gəncəvi adına Ədəbiyyat Muzeyində qorunur. Qeyd etdiyimiz kimi, bəzi mənbələrdə Cəfər Cabbarlının mahnılarının musiqi müəllifi olaraq Əfrasiyab Bədəlbəylinin adı qeyd edilib. Hərçənd təkcə Süleyman Tağızadənin, Sona Cabbarlının deyil, bir neçə teatr və incəsənət xadiminin, o cümlədən akademik, görkəmli ədəbiyyatşünas Məmməd Arifin xatirələri də sübuta yetirir ki, Əfrasiyab Bədəlbəyli, sadəcə, həmin mahnıların musiqisini not savadı olmayan Cəfər Cabbarlının xahişi ilə onun ifasında dinləyərək nota köçürübmüş.

Onu da deyək ki, bir çox müğənnilər “Azad bir quşdum”u oxusalar da, ötən əsrin 80-ci illərinin əvvəlində təzəcə şöhrət tapan Səxavət Məmmədov bu mahnını ilk dəfə dramaturqun adını daşıyan 187 nömrəli orta məktəbdə keçirilən ənənəvi Cəfər Cabbarlı gecəsində ifa edib, sonra lentə aldırıb və bir növ özünün vizit kartına çevirib. Bu gün “Azad bir quşdum” mahnısını Türkiyədən, Özbəkistandan üzübəri çox müğənni öz repertuarına daxil edib və oxuyur.

### Və “Gərək günəş dağları aşıb sönməyəydi”

2001-ci ildə Cəfər Cabbarlının ev muzeyi maraqlı bir layihə ilə çıxış etdi: şair-dramaturqun bəstələdiyi mahnılardan ibarət “Azad bir quşdum” adlı disk hazırlandı. 7 aranjimanda işlənmiş 5 mahnının arasında “Almaz” dramında Yaxşının oxuduğu “Gərək günəş dağları aşıb sönməyəydi” mahnısı Xalq artisti Mələkxanım Əyyubovanın səsi ilə 2-ci həyatına başladı. Müğənni bu mahnını təkcə layihə xətrinə oxumadı, onu öz konsert repertuarına daxil etdi və mahnıya Cəfər Cabbarlının obrazının yer aldığı klip də çəkdirdi.

Artıq bir neçə mövsümdür ki, “Almaz” dramı yenidən Milli Dram Teatrının səhnəsində oynanılır. Tamaşaya Xalq artisti Siyavuş Kərimi musiqi bəstələyib. Lakin aktrisa Rada Nəsibovanın ifa etdiyi Yaxşının bu mahnısı elə həminkidir. Sadəcə, mahnı Xalq artisti Gülüstan Əliyevanın ifasında lentə alınıb.

***Gülcahan MİRMƏMMƏD***

# Moskvada iftar süfrəsi

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada Azərbaycan Günü və iftar süfrəsi təşkil edilib.**



Tədbir Poklonnaya qoradakı Memorial məscidində açılan “Ramazan çadırı”nda Moskva şəhəri Müsəlmanları Ruhani İdarəsinin təşkilatçılığı və Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin dəstəyi ilə keçirilib və “Ailə ili”nə həsr olunub.

Tədbirdə 1500-dən çox insan - ictimai xadimlər, Azərbaycan diasporunun nümayəndələri, müxtəlif millətlərdən olan müsəlmanlar iştirak ediblər.

Dini-mənəvi dəyərlərə verdiyi yüksək qiymətə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya Moskva müftisi, Moskva Kafedral Məscidinin imamı İldar Alyautdinovun adından təşəkkür məktubu ünvanlanıb.

Moskvadakı Müsəlman məktəbinin direktoru Ənas Həzrət Məmmədov iştirakçıları müqəddəs Ramazan ayı münasibətilə təbrik edib, bu tədbirin keçirilməsinə görə, Heydər Əliyev Fonduna təşəkkürünü bildirib.

Tədbirdə Azərbaycanın tarixindən və adət-ənənələrindən bəhs edən videoçarxlar nümayiş etdirilib, “ButaTrio”nun müşayiəti ilə muğam ifa olunub, müsəlman məktəbinin şagirdləri Məhəmməd Peyğəmbərin həyatından bəhs edən teatrlaşdırılmış səhnəciklər təqdim ediblər. Tədbir uduşlu hədiyyələr olan viktorina ilə davam edib.

İftar başlamazdan əvvəl “Qurani-Kərim”dən ayələr oxunub, axşam namazı qılınıb. Sonra müsəlmanlar Azərbaycanın milli yeməklərini və şirniyyatlarını dadıblar.

“Ramazan çadırı” 2006-cı ildən etibarən müsəlmanların müqəddəs Ramazan ayında həyata keçirilən illik sosial və xeyriyyə layihəsidir. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi vitse-prezident Leyla Əliyevanın təşəbbüsü ilə hər il bu xeyriyyə layihəsində iştirak edir.

Söz yaddaşı

# Qərbi Azərbaycan itkisinin bədii salnaməsi

**Azərbaycan romanları tarixində torpağa bağlılıq, xalqa arxalanmaq, milli-mənəvi dəyərlərə təəssübkeş münasibət motivi güclü olmuşdur. Məmməd Səid Ordubadinin “Qılınc və qələm”, “Dumanlı Təbriz”, Yusif Vəzir Çəmənzəminlinin “Qan içində”, Fərman Kərimzadənin “Xudafərin körpüsü”, “Çaldıran döyüşü”, Zeynalabdinin “Səyahətnamə”, İsmayıl Şıxlının “Ayrılan yollar”, Mirzə İbrahimovun “Böyük dayaq” əsərlərində bu ideya həmin romanların tarixləşməsi üçün bir vəsilə olmuşdur.**



Torpağa bağlılıq, dogma yurdlarından didərgin salınanların mənəvi dünyası ixtisasca iqtisadçı-alim olsa da, bədii əsərlərə də imza qoyan professor İsmayıl Feyzullabəylinin “İgidin ürəyi haçalı olar” romanının da əsas süjet xəttini təşkil edir.

1990-cı illərdə üç adda (“Fani dünyanın laməzhəbləri”, “İgidin ürəyi haçalı olar” və “Yol ayrıcında”) çıxan romanında sovet rejiminin yaratdığı bir sıra problemlər, o cümlədən 3 dəfə (1918–1920, 1948–1953, 1988–1989) Azərbaycanın Qərb torpaqlarından sıxışdırılıb köçə məcbur edilmiş soydaşlarımızın taleyi romanın süjet xəttində önəmli yer alır. Bu taleyi yaşayanlardan biri də doğma şəhəri İrəvanı tərk etməyə məcbur edilərək Gəncədə məskunlaşan, gəncliyini orada yaşayan və sonra uzun illər Azərbaycan Dövlət İqtisad Universitetinin professoru olan İsmayıl Feyzullabəyli, onun ailəsi və qohum-əqrabası idi.

Köçə məcbur edilən bir ailənin oğlu olan İsmayıl Feyzullabəyli orta təhsilini Gəncədə almış, 1943-cü ildən ordu sıralarına çağrılmış, tərxis olunduqdan sonra Ali İqtisad İnstitutunda oxumuş, 1964-cü ildə namizədlik, 1969-cu ildə isə doktorluq dissertasiyasını müdafiə edərək iqtisad elmləri doktoru adını almışdır. “Əməkdar elm xadimi” fəxri adına və “Şöhrət” ordeninə layiq görülmüş professor İsmayıl Feyzullabəyli 26 adda kitabın, 200-dən artıq məqalənin müəllifi olmuş, uzun illər Azərbaycan Dövlət İqtisad Universitetinin “Ticarətin iqtisadiyyatı” kafedrasının müdiri işləmişdir.

“İgidin ürəyi haçalı olar” tarixi romanı görkəmli alimin uğurlu bədii yaradıcılıq nümunəsidir. Romanda Azərbaycan torpaqlarına göz dikən erməni laməzhəbləri – daşnaklar və onların tör-töküntülərinin nankor xisləti oxuculara dönə-dönə xatırladılır. 1930–1940-cı və sonrakı illərin acı həqiqətləri içərisində yaşayan müəllif bunları bədii təfəkkür süzgəcindən keçirib. Faktiki tarixi hadisələrə əsaslanan romanın əsas mövzusu “xalq düşməni”nin qardaşı, İrəvanın ən zəngin və nüfuzlu adamlarından sayılan Mir Kərim ağanın nəvəsi İsmətin ömür hekayəsidir.

İsmət tarixi ictimai şəraitin yetişdirdiyi bir insandır. O, haqsızlığın girdabında çox məhrumiyyətlər yaşayan və çətinliklərlə üzləşən, tək-tənha qalsa da, mətinləşən, zəhmət və zəkası ilə yaşamağın yollarını seçə-seçə ayaqda qalan qüvvətli bir şəxsiyyətdir. Bu bədii obrazın özünün sərrast məntiqi və düşüncəsi var. Əslində, İsmət müəllifin özüdür. İsmət erməni daşnaklarının alçaq sifətlərini – yaltaqlıq və ikiüzlülüklərini cəsarətlə söyləyən, qorxmadan açıb göstərən, mübariz bir surətdir. Bir şəxsiyyət kimi, professor İsmayıl Feyzullabəylinin bütün həyatı, arzu və idealları, erməni məkrinə nifrəti romanda cəmlənmişdir.

Üç kitabdan ibarət olan “İgidin ürəyi haçalı olar” romanının ilk kitabı 1997-ci ildə nəşr olunmuş “Fani dünyanın laməzhəbləri”dir. Kitabın belə adlanması təsadüfi deyil. Müəllif əsərdə daşnakları, yediyi qaba tüpürən erməniləri lənətləyir. Müəllif sevdiyi adamları, milli şüura sahib olan ürəyi haçalı igidləri təsvir etməklə bərabər, başqasının halal malına, doğma torpağına göz dikən laməzhəbləri bədii dillə qamçılayır.

Kitabın müəllifi İrəvan xanlığını belə təsvir edir: “1920-ci ilin orta çağları idi. Köhnə İrəvan şəhərini yarıya bölən və qıjıltısı dağ çayını xatırladan Gedərçayın sahilində bir-birindən 2–3 mil aralı qarşı-qarşıya iki gözəl, yaraşıqlı imarət ucalırdı. Bunlardan biri körpünün həndəvərində – gediş-gəlişli yerdəki bina Hacı Mir Kərim ağaya, digəri – qarşı sahildəki imarət isə onun qudası Hacı Əsgər ağaya məxsus idi. Qudaların ikisi də İrəvanın ən və çox nüfuzlu zadəganlarından sayılırdı. Qədim Azərbaycan diyarı olan bu şəhərin həndəvərində gurhagurla səmt götürmüş nəhəng Zəngi çayının o tayında gözəlliyi, abı-havası və meyvəcatı ilə adamın zövqünü oxşayan geniş bağ-bağatın böyük bir hissəsi də həmin qudalara məxsus idi. Hər iki quda, xüsusən Hacı Mir Kərim ağa adlı-sanlı xeyriyyəçi idi”.

Bu parçada Azərbaycan toponiminə məxsus Gedərçayın, Zəngi çayının adları, İrəvanın əsilzadə sakinlərindən bir neçəsinin adları çəkilir. Əsərdə bu kimi adların siyahısı daha uzundur. Təsvir olunur ki, İrəvanda Mir Kərim ağanın şəxsi vəsaiti hesabına ucaltdığı məscid Azərbaycan türklərinin ziyarət yerinə çevrilmişdi. “Zəngəzur, Göyçə, Vedi və digər mahallardan bu məscidə saysız-hesabsız adamlar gəlirdi”. Romanda Mir Kərim ağanın tikdirdiyi, 1988-ci ilə qədər mövcud olmuş Göy Məscidin də adı çəkilir. 1988-ci ildə Azərbaycan türkləri Qərbi oradan zorla qovulandan sonra ermənilər onların mal-dövlətini mənimsəməklə bərabər, bütün tarixi abidələrini, hətta məzarlarını belə yerlə-yeksan ediblər. Azərbaycan türklərinin qovulduğu illərin birində İrəvandakı Körpüqulağı məscidini dağıdıb, yerinə Qriboyedovun heykəlini qoyublar.

İndi ermənilərin Masis rayonu adlandırdıqları keçmiş Zəngibasar mahalı xanlıq dövründə İrəvan quberniyasına daxil olan ən geniş ərazi idi. Mənbəyi ermənilərin “Sevan” adlandırdıqları “Göyçə” gölündən başlanan Zəngi çayının ta Araza qədər hər iki sahili boyunca Azərbaycan türkləri yaşayırdı.

“Yol ayrıcında” adlanan 2-ci əsərdəki hadisələr II Dünya Müharibəsi və sonrakı dövrü əhatə edir. İlk kitabın qəhrəmanı İsmətin daşlı-kəsəkli həyat yolundakı mətanət və cəsarəti romanın mövzusudur. Bu kitabda İrəvanın əsil sakinləri Mir Mahmud Ağa, Yusif bəy, Əliyulla bəy, Sədrəddin, Zeybə xanım, Asi, Mahirə kimi qadınlar, onların geyim-kecim və mətbəx mədəniyyəti, ətri ətrafa yayılan yeməkləri də məhəbbətlə təsvir olunur. Eyni zamanda, havadarlarının sayəsində gəlib Azərbaycanda da vəzifə sahibi olan laməzhəb ermənilər – Aram, Aykaz, Armo, Şaginyanın, cəbhə komandanı Baqramyanın bəd əməlləri, erməni qızı Jasminin saxta məhəbbəti də müəllifin qələminə tuş gəlib. Onlara münasibət Xalid, Yusif kimi surətlərin dili ilə nifrətlə ifadə olunur.

***Maarifə HACIYEVA,***
***filologiya elmləri doktoru,***
***professor***

Ortaq mədəniyyət bayramı

# Azərbaycanda Belarus günləri

**Xəbər verildiyi kimi, aprelin 1-dən 3-dək Azərbaycanda Belarus Mədəniyyəti Günləri keçirilir. Bu çərçivədə bir sıra maraqlı görüşlər, kinofilm nümayişi, sərgi və konsertlər təşkil olunub.**



Tədbirlərlə bağlı Belarus Respublikasının mədəniyyət naziri Anatoli Markeviçin rəhbərlik etdiyi geniş nümayəndə heyəti ölkəmizdə səfərdədir. Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli belaruslu həmkarı ilə görüşüb. Ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Bu əlaqələrin mühüm tərkib hissəsi humanitar əməkdaşlıqdır. Nazirlər ölkəmizdə keçirilən növbəti Belarus Mədəniyyəti Günlərini əlaqələrimizin inkişafına mühüm töhfə kimi səciyyələndiriblər. Qeyd olunub ki, hər iki tərəf film sənayesi, kitabxana, musiqi və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdır. Bunun üçün ikitərəfli işçi qrupunun yaradılması əhəmiyyətli olacaq.



Belarus Mədəniyyəti Günləri çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyi ilə dost ölkənin Milli Rəsm Muzeyi ilə əməkdaşlıq sazişi imzalanıb və Belarus rəssamların gözü ilə” sərgisi açılıb. Burada belaruslu rəssamlar Anton Vırvo, Anna Kononova, Qleb Oçik, Anna Sadovskaya və Vladimir Urodniçin əsərləri sərgilənir. Rəsmlər əsasən mənzərə janrındadır, bununla bərabər, Belarusun nasist işğalçılarından azad edilməsinin 80 illiyinə həsr olunmuş rəngkarlıq əsərləri, maraqla qarşılanıb. Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova Belarus Mədəniyyəti Günlərinin ölkəmizdə keçirilməsini alqışlayaraq, belə bir tədbirin artıq 4-cü dəfədir keçirildiyini xatırladıb.

Heydər Əliyev Sarayının foyesində banner sərgisi olub, Belarus xalq sənətkarlıq nümunələri də təqdim edilib. Nizami Kino Mərkəzində isə Belarus kinosu günlərinin açılışı keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Kino Agentliyinin direktor səlahiyyətlərini icra edən Orxan Fikrətoğlu çıxış edərək, sözügedən tədbiri mədəniyyət hadisəsi adlandırıb. Onun sözlərinə görə, Azərbaycan filmlərinin də Belarusiyada bu formada təqdimi nəzərdə tutulur. "Belarusfilm" Milli Kinostudiyasının baş direktoru Yuri Aleksey dördgünlük mədəniyyət hadisəsi ilə bağlı təəssüratlarını bölüşüb. Bakı kinosevərləri “Gözləmə vərəqəsi”, “Digər sahildə”, “Kinoçular” komediyasını, “Təkrar zəng”, “İflas” və bir sıra digər filmləri seyr etmək imkanı qazanıblar. Ekran əsərləri tarixi dram, komediya, tammetrajlı və sənədli filmlərdən ibarətdir.

Dünən həmçinin incəsənət ustalarının ifasında Mədəniyyət günlərinin açılışına həsr olunmuş qala-konsert təşkil olunub.

Bu gün isə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında ölkələrimizin mədəniyyət xadimlərinin iştirakı ilə dəyirmi masa təşkil olunacaq. Mədəniyyət həftəsinə “Xilas edilmiş nəhəngin ölkəsi” sənədli filminin nümayişi ilə yekun vurulacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

# Azərbaycan – Rumıniya sosial əməkdaşlığı



**Azərbaycanın sosial sahədə əldə etdiyi uğurlar, bu sahənin davamlı inkişafı digər ölkələrin maraq dairəsindədir. Davamlı olaraq ölkəmizə gələn xarici qonaqlar əhalinin sosial müdafiəsi ilə bağlı nailiyyətlərlə tanış olur, Azərbaycanın təcrübəsindən öyrənməyə çalışırlar. Sosial sahədə aparılan islahatlar, reallaşdırılan proqramlar, həyata keçirilən layihələr beynəlxalq müsabiqələrdə də ölkəmizə uğurlar qazandırır.**

### Qonaqlar DOST mərkəzində

Bugünlərdə Rumıniyanın energetika naziri, Azərbaycan və Rumıniya Hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın Rumıniya tərəfindən həmsədri Sebastyan-İoan Burdujanın rəhbərlik etdiyi nümayəndə heyəti 1 saylı DOST Mərkəzində olub. Onlara DOST konsepsiyası barədə məlumat verilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli fərmanı ilə ölkədə artıq 7 DOST mərkəzinin açıldığını qeyd edib. DOST konsepsiyası əsasında 159 sosial xidmətin "bir pəncərə"dən, şəffaf və operativ, vətəndaş məmnunluğuna uyğun təqdim edildiyi vurğulanıb. DOST mərkəzlərində ötən dövrdə 2,1 milyondan çox vətəndaşa xidmət göstərilib. Bu xidmətlərdən vətəndaş məmnunluğu 98 faiz üzərində olub. Nazirliyin xidmətlərinin 90 faizdən çoxu elektronlaşdırılıb.

Nümayəndə heyəti mərkəzdə xidmət bölmələri, xidmətlərin göstərilməsi prosesi, vahid əlaqələndirmə mərkəzi ilə tanış olub. Qonaqlar üçün DOST konsepsiyası və sosial sahədə elektronlaşma proqramına dair təqdimatlar edilib.



### İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində

Rumıniya nümayəndə heyəti DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində də olub. Direktor Nigar Məmmədova qonaqları mərkəzin fəaliyyəti ilə tanış edib. Onlara Azərbaycanda şəhid ailələri üzvləri və əlilliyi olan şəxslərin, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilənlərin, aztəminatlı ailələrin üzvlərinin və digər həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar barədə ətraflı məlumat verilib.

Həssas qrupların yaradıcı potensialının dəstəklənərək inkişaf etdirilməsinin mühüm prioritetlərdən olduğu bildirilib. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin Cənubi Qafqazda ilk dəfə olaraq kifayət qədər geniş fəaliyyət sahələrini əhatə edən ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanı olduğu vurğulanıb.

Sonda qonaqlara mərkəzin benefisiarların ifasında konsert proqramı təqdim edilib.

### Müştərək Komissiyada müzakirələr

Rumıniya nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində ölkələr arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 8-ci iclası da keçirilib. Komissiyanın Azərbaycan tərəfindən həmsədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə Rumıniya tərəfindən həmsədri S.İ.Burdujanın təkbətək görüşündə və nümayəndə heyətlərinin iştirakı ilə keçirilən iclasda diplomatik münasibətlərinin qurulmasından ötən dövr ərzində iki ölkənin əlaqələrinin daim genişlənməkdə olduğu bildirilib. 2009-cu ildə imzalanmış Strateji tərəfdaşlığa dair Birgə Bəyannamənin və 2011-ci ildə imzalanmış Strateji tərəfdaşlığın həyata keçirilməsi üzrə Birgə Fəaliyyət Planının, ümumən ötən dövrdə imzalanmış 60-dan çox əməkdaşlıq sənədinin ölkələrimiz arasında əlaqələrin inkişafına imkan yaratdığı, bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi qeyd olunub.

Sonra S.Babayev və S.İ.Burduja Azərbaycan və Rumıniya Hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 8-ci iclasının Protokolunu imzalayıblar.

*Zərifə HÜSEYNOVA*
*XQ*

# 10 uşaq da ata-analı olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən XQ-yə bildiriblər ki, qurumun tabeliyində olan Sosial Xidmətlər Agentliyi tərəfindən himayədar ailələrə verilən uşaqların sayı artıq 10 nəfərə çatıb. Bununla əlaqədar qanunvericiliyə uyğun olaraq nazirliklə həmin uşaqları himayəyə götürən şəxslər arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilələr imzalanıb.**

Himayədar ailələrə verilən uşaqlardan 2-i oğlan, 8-i qızdır. Həmçinin 5 nəfəri 6 yaşadək olan, 4 nəfəri 7–13 yaş arası, 1 nəfəri 14–18 yaş arası uşaqlardır. Həmin 10 uşaqdan hazırda 2-si Bakı şəhərindəki, 8-i digər şəhər və rayonlardakı (Lənkəran–2, Gəncə–1, Cəlilabad–1, Ağcabədi–1 , Biləsuvar–1, Zaqatala–1, Göyçay–1) ailələrdə yaşayırlar.

Qeyd edək ki, "Himayədar ailə" qayğı modeli valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, valideynləri tərəfindən müəssisəyə qoyulmuş uşaqların dövlət nəzarəti altında ailə mühitində böyüməsi və inkişafını nəzərdə tutur.

Himayədar ailələrə sosial dəstək olaraq himayəyə götürdükləri 0–6 yaş arası uşağa görə 355 manat (əlilliyi müəyyən edilmiş uşaq olduqda 395 manat); 7–13 yaş arası uşağa görə 375 manat (əlilliyi müəyyən edilmiş uşaq olduqda 415 manat); 14–18 yaş arası uşağa görə 395 manat (əlilliyi müəyyən edilmiş uşaq olduqda 435 manat) aylıq müavinət verilməsi nəzərdə tutulub.

Himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün həmin ailələr hər rübdə bir dəfə 200 manat məbləğində birdəfəlik müavinətlə də təmin edilirlər.

Günün sualı

# Bizdə uşaq futbolu niyə yoxdur?!

## Məhəllədən yaşıl meydançalara yol açıq olmalıdır

**Bir neçə gündür futbol üzrə Gürcüstan millisinin Avropa çempionatına vəsiqə qazanması ölkə mətbuatında müzakirə olunur. Bunun fonunda Azərbaycan futbolunda problemlər qabardılır, həll yolları müzakirə edilir. Millimizin dünya səviyyəli yarışlarda mübarizə aparacaq gücdə olmaması təəssüflə qeyd edilir.**



Doğrudur, bəziləri düşünə bilərlər ki, fərdi idman növlərində Olimpiya, dünya, Avropa çempionlarımız olsa da, futbolla yanaşı, digər komanda növlərində də elə böyük nailiyyətlərimiz yoxdur. Ancaq onu da diqqətə almalıyıq ki, futbolda zəngin ənənələrimiz var, müstəqillik dövründə ölkəmiz üçün xüsusilə prioritet sahələrdən biri olub. "Azərbaycan Respublikasında 2005–2015-ci illərdə futbolun inkişafına dair" Dövlət Proqramının qəbul edilməsi isə artıq bu idman növünün ən yüksək səviyyədə inkişafının təmin edilməsi üçün geniş üfüqlərin açılması demək idi. 20 ilə yaxın bir müddət ərzində görülən işlər artıq öz bəhrəsini verməli idi. Onu heç kim deyə bilməz ki, Azərbaycan millisi böyük oyunlar üçün yaranmayıb. Biz artıq bütün sahələrdə gücümüzü göstərə biliriksə, futbol niyə keçilməz sədd olmalıdır.



"Qarabağ"ın UEFA Avropa Liqasında "Bayer 04"lə keçirdiyi ilk oyunda Bakıda yaşanan azarkeş izdihamını necə unutmaq olar? Azərbaycan təmsilçisinin alman nəhənginə qarşı cavab qarşılaşmasında sərgilədiyi möhtəşəm oyun buna gözəl nümunə deyilmi? Ondan bir həftə sonra millimizin Bolqarıstanla yoldaşlıq oyununa azarkeşlərin maraq göstərməməsi isə özlüyündə hər şeyi deyir. Elə yığmamızın qapıçısı Şahruddin Məhəmmədəliyev də "Azarkeş olsaydım, mən də stadiona gəlməzdim", – deyə millimizin gücünü, bugünkü durumunu qısa şəkildə ifadə etdi. Bəs çıxış yolu nədədir? Yığmamızı yaxın perspektivdə nə gözləyir? Mütəxəssislərin fikrincə, bunun üçün mütləq uşaq futbolunun inkişafına diqqət yetirmək lazımdır.

### Yararsız meydançalar

Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, "İdman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur". Futbol isə idman növləri içərisində ən baxımlı, necə deyərlər, "90 dəqiqə ərzində 22 nəfərin top qovaraq ölkələrini qalib edən" bir möcüzəvi oyundur. Müstəqil Azərbaycanda bu idman növünün inkişafı istiqamətində dövlətimizin atdığı böyük addımlar ilk növbədə uşaq futbolunun inkişafına hesablanmışdı.

**Kənan Məstəliyev qəzetimizə müsahibnəsində həm futbol infrastrukturu, həm də kadr probleminin uşaq futbolunun inkişafında böyük maneə olduğunu bildirdi:**

– Uşaq futbolunun inkişafında əsas amillərdən biri infrastrukturdur. Hazırda uşaqlarımızın böyük əksəriyyəti yararsız süni meydançalarda oynayırlar. 8 yaşlı futbolçunun ilk 3-5 ildə problemi olmasa da, yeniyetmə yaşa çatdıqdan sonra dizində, belində, bədənin digər hissələrində zədələr özünü göstərir. Belə faktlar uşaqlara karyeralarını davam etdirməyə imkan vermir. Əgər Avropada son model meydançalarda futbol oynayırlarsa, bizdə bu sahədə vəziyyət ürəkaçan səviyyədə deyil.

Azərbaycan futbolunda təbii ota baxacaq yüksək səviyyəli mütəxəssis çox azdır. Qazonlara belə qulluq edə biləcək mütəxəssislər cəmi 3-5 nəfərdir ki, onlar da bir neçə yerdə işləyirlər. Futbolumuza gələn maliyyənin doğru yönəldilməsi mütləq diqqətə alınmalıdır. Süni meydançaların saxlanılma forması, onlara qulluq protokol üzərində olmamalıdır.

### Mütəxəssis azlığı

Azərbaycanda peşəkar, futbolu bilən mütəxəssislərin azlığı, məşqçilərin yetişdirilməməsi ilə bağlı vaxtaşırı məqalələr yazılır. Əcnəbi mütəxəssislərin məşqçiliyə cəlb edilməsi, adi nəticələrin şişirdilərək ictimaiyyətə təqdim olunması faktları uzun illərdir idman ictimaiyyətini narahat edir. Ötən dövr ərzində milli məşqçilərimizin yetişməməsi çoxlu suallar doğurur.

Neqativ hallardan biri Azərbaycan səviyyəsində tanınmış futbolçuların öz bilik və bacarıqlarını ancaq böyüklərin futbolunda bölüşməyə çalışmalarıdır. Onlar uşaq futbolunda fəaliyyət göstərməyi özlərinə sığışdırmırlar. Bu boşluqdan daha az bacarıqlı, yaxud işi bilməyən, qohumluq və digər əlaqələrdən faydalanaraq həmin postlara gələnlər istifadə edirlər. Bununla da, Azərbaycan futbolunda kadr və peşəkarlıq problemi uşaq futbolunda daha aydın sezilir.

Bakıda stadionların sayı yetərli deyil, olanlardan da ifrat dərəcədə istifadə edilir. Regionlarda futbolun maddi-texniki təminatı çox aşağı səviyyədədir. Bəzi rayonlarda isə gənc futbolçulara hətta oynamağa top tapmadıqları da iddia olunur.

### Böyüklərin örnəyi

Elə klublar var ki, böyüklərin nəticəsinə daha çox köklənirlər və onlar üçün əsas komanda daha vacibdir. "Qarabağ" Futbol Klubunun son illər nəticələri fantastik, belə demək mümkünsə bizim üçün bir qədər möcüzəvidir. Artıq dünya şöhrəti qazanmağa başlamış belə bir klubun aşağı yaş qruplarındakı komandalarına ötən ilə qədər diqqətin az olması başa düşülən deyildi. "Qarabağ"da artıq ötən ildən yüksək səviyyəli futbolçuların yetişəcəyi akademiyanın qurulmasına başlanılıb ki, bu da təqdirəlayiq haldır.

Bir çox klublarda isə aşağı yaş qruplarında uşaqların futbolçu kimi yetişməsi üçün düzgün işlər aparılsa da, onların sonrakı karyeralaeında problemlər yaranır. Belə ki, gənc futbolçulara əsas komandalarda yer verilmir. Belə uşaqlar ya özlərini başqa komandalarda sınamalı olur, yaxud şansları olmadıqları üçün karyeralarını dayandırırlar.

### Uşaq futbolu dəstəyə möhtacdır

**K.Məstəliyev Azərbaycanın uzun müddət fəaliyyət göstərən klublarından olan "Neftçi"nin uşaq futboluna diqqətini vurğuladı:**

– Bu klubda problem aşağı yaş qrupunda oyunçuların əsas komandaya yüksələ bilməmələridir. Bu, onların bacarıqsızlığı, istedadsızlığına görə yox, əsas komandada görülən işlərin doğru vəziyyətdə olmaması səbəbindəndir. Məsələn, klubun U-21-nin əsas hücumçusu Ağadadaş Salyanski əvəzedicilər Liqasında bombardir olub, böyük qollar vursa da, əsas komandaya götürülmür. Bu klubda Musa Qurbanlı kimi futbolçu əsas komandaya dəvət edilmədiyi üçün "Qarabağ"da oynadı. M.Qurbanlı Azərbaycan çempionatında bombardirlərdən biri oldu. Avropada parladı və hazırda İsveçin "Yurqorden" komandasının şərəfini qoruyur, millinin oyunçusudur. Bolqarıstanla oyunda bərabərlik qolunu vurdu.

Uşaq futbolunun inkişafı istiqamətində son vaxtlar irəliləyiş əldə edən klub "Sabah"dır. Ən yaxşı mütəxəssislər dəvət edilir, onlara maksimum şərait yaradılır. Son 2 ildə aşağı yaş qruplarında ən çox çempionluq əldə edən "Sabah"ın təmsilçiləridir. Bu sırada "Qəbələ"nin adını çəkmək olar. Bu klubun akademiyası artıq milliyə bir neçə futbolçu verib. Digər komandalarda da bu klubun futbolçuları var. Klub elitada axırıncı yerdə getməsinə rəğmən, aşağı yaş qruplarındakı işlərini dayandırmır.

### Yuxarı yaşlı komandalar azalır

**"Rekord" Uşaq Futbol Klubunun rəhbəri AFFA-nın bütün yaş qrupları üzrə yarışlar keçirdiyini, aşağı yaş qruplarında daha çox komandanın iştirak etdiyini bildirdi:**

– Aşağı yaş qrupları üzrə yarışlarda 100 komanda iştirak edirsə, yuxarı yaş qruplarında onların sayı azalır. Məsələn, U-15, U-16 liqasında komanda sayı 14-15-dir. Təəssüf ki, özünü aşağı yaş qruplarında göstərən uşaqlar əksər vaxtlarda öz regionlarında karyeralarını davam etdirə bilmədiklərinə görə, futbolçu olmaq fikrindən vaz keçirlər. Aşağı yaşdan yuxarıya qədər uşaqların karyeralarını davam etdirmək yolunun düzgün qurulmaması da problemdir, bununla bağlı AFFA-da işlər görülməlidir.

### Ekspert rəyi



**Ağamusa BAĞIROV, "Sumqayıt" Futbol Akademiyasının koordinatoru, Əməkdar məşqçi**

Böyük idmanın təməli uşaq idmanı ilə qoyulur. Bu, komanda növləri, xüsusilə futbol üçün çox vacib məqamdır. Bu gün valideynlər uşaqlarının müasir zamanın tələbləri ilə ayaqlaşmaları üçün onların texnoloji biliklərə üstünlük vermələrinə daha çox çalışırlar. Düşünürəm ki, bu baxımdan uşaqlar yüklənir. Əvvəllər uşaqlarımız erkən yaşda məhəllədə, həyətdə milli idman oyunlarından tutmuş, komanda idman növlərinə qədər birgə oynayıb, inkişaf edirdilərsə, indi onlar boş vaxtlarını kompüter, planşet, telefonla keçirirlər. Ən böyük problemlərdən biri uşaqların idman hərəkətlərində passiv olmalarıdır. Daha bir problem 2-ci növbə təhsil alan uşaqların dərsdən sonra normal məşq edə bilməmələridir. Son illər orta məktəblərdə fiziki tərbiyə dərslərini belə normal keçmirlər. Digər tərəfdən uşaq gənclər və idman məktəbləri, mənzil istismar sahələri (JEK) və digər müəssisələr arasında yarışlar keçirilərdi ki, bacarıqlı futbolçular oradan seçilərdi.

Son illər məhəllə futbolunun olmaması, ümumilikdə isə məhəllələrdə futbol meydançalarının azlığı da problemdir. Futbolun kütləviliyinə nail olmaq istəyiriksə, əhalinin sıx yaşadığı məhəllələrdə futbol meydançaları inşa edilməlidir. Elə Sumqayıtı götürək. Bu gün şəhərimizin ən böyük mikrorayonları (17 mk, 18 mk, 9-cu mk) stadiondan xeyli aralıda yerləşir. Uşaq futbolunda məşqçi amilinə də xüsusi diqqət yetirilməlidir.

Aşağı yaş qruplarında komandalar yarışlarda uduzduqda, bu, çox zaman travmaya səbəb olur. Bu baxımdan U-8, U-9, U-10, U-11, U-12 yarış formatında nəticələrin hesablanmasının ləğv olunmasını dəstəkləyirəm. Uşaqlara imkan verməliyik ki, futbolun gözəlliyini anlasınlar, onu doğru oynamaq bacarığına yiyələnsinlər.

AFFA-nın 2024-cü il aprelin 2-də keçirilən növbəti Hesabat-Seçki Konfransında AFFA prezidenti və İcraiyyə Komitəsinin üzvləri seçildi. Ümid edirik ki, uşaq futbolunun inkişafını ləngidən problemlər həllini tapacaq. Yoxsa peşəkar kadrlar yetişməyənə, uşaq futboluna münasibət dəyişməyənədək uğurlar bizdən yan keçəcək. Bu gün olduğu kimi...

*Leyla QURBANOVA*
*XQ*

# İsrailin İran səfirliynə müəmmalı raket zərbəsi

## SEPAH-ın 2 generalı və 5 zabiti həlak olub, konsulluğun binası tamam dağılıb

**Yaxın Şərqdə münaqişələr səngimək əvəzinə daha da gərginləşməkdə davam edir. Bazar ertəsi axşam Bakı vaxtı ilə saat 18:00-da İsrailin Hərbi Hava Qüvvələri İran İslam Respublikasının Suriyanın paytaxtı Dəməşqdə yerləşən səfirliyinin konsulluğuna və səfirin iqamətgahına raket zərbələri endiriblər. Səfir və onun ailəsi zərər çəkməsə də, 11 nəfərin öldüyü barədə rəsmi məlumatlar yayılıb. İranın "Nur" informasiya agentliyi bildirib ki, ölənlər arasında İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) 2 generalı, 5 yüksək çinli zabiti var. İranın diplomatik kompleksinin yaxınlığında Suriya ordusuna yardım göstərən iranlı hərbçilərin yaşadığı evlərin olduğu dəqiqləşdirilir.**



Məlumatı Londonda yerləşən, lakin Suriyada geniş mənbələr şəbəkəsinə malik Suriya İnsan Haqları Müşahidə Qrupu (OSDH) da təsdiqləyib. Qeyri-hökumət təşkilatının nümayəndəsinin sözlərinə görə, İsrailin İran səfirliyinə endirdiyi zərbələr nəticəsində səkkiz iranlıdan əlavə, iki suriyalı və bir livanlı həlak olub, onların arasında mülki vətəndaş olmayıb.

İranın Suriyadakı səfiri Hüseyn Əkbəri bazar ertəsi axşam hadisə yerində çıxış edərək bildirib ki, Tehran İsrailin Dəməşqdəki İran səfirliyinə hücumuna cavab verəcək. İslam İnqilabı Keşikçiləri Korpusu da Dəməşqdə İran konsulluğunun binasına hücumla bağlı bəyanat yayıb. SEPAH təsdiqləyib ki, zərbə nəticəsində iki iranlı general, həmçinin korpusun beş zabiti həlak olub.

SEPAH-ın İctimaiyyətlə Əlaqələr Departamentinin IRNA agentliyində yayımlanan bəyanatında deyilir: "Bir neçə saat əvvəl hiyləgər sionist rejimin təyyarəsi yeni cinayət törətmiş və raket hücumu həyata keçirmişdir... Bu cinayət nəticəsində İranın Suriyadakı yüksək vəzifəli hərbi məsləhətçiləri – briqada generalı Məhəmməd Rza Zahedi və briqada generalı Məhəmməd Hadi Hacı Rəhimi... eləcə də onları müşayiət edən 5 zabit əzablı şəhadəti qəbul ediblər".

İran prezidenti İbrahim Rəisinin hadisəyə reaksiyası özünü çox gözlətməyib. O, İranın Suriyadakı səfirliyinə endirdiyi raket zərbəsindən sonra İsraili onun "qorxaq cinayətinə" tezliklə cavab veriləcəyi ilə hədələyib. Rəisinin prezidentin administrasiyasının saytında yerləşdirilən bəyanatında deyilir: "Sionist rejim dəfələrlə məruz qaldığı uğursuzluqlarına və məğlubiyyətlərinə görə kor-koranə terrordan istifadə edir, lakin o, bilməlidir ki, bu cür qeyri-insani hərəkətləri ilə heç vaxt məqsədlərinə çatmayacaq".

Hadisədən dərhal sonra İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani bildirib ki, İran hakimiyyəti İsrailin Dəməşqdəki İran səfirliyinin konsulluq bölməsinə hücumuna cavab vermək və bu cavabın formasını seçmək hüququnu özündə saxlayır.

Kənani qurumun "Telegram" kanalında yer alan açıqlamasında yazır: "İran cavab tədbirləri görmək hüququnu saxlamaqla, təcavüzkarın reaksiyası və cəzası barədə özü qərar verəcək". İranlı diplomat, həmçinin BMT-ni İsrailə qarşı tədbir görməyə, beynəlxalq ictimaiyyəti isə İsrail hərbçilərinin hərəkətlərini pisləməyə çağırıb.

İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan beynəlxalq ictimaiyyəti zərbələrə "ciddi cavab" verməyə çağırıb. O, İsrailin hücumunu "bütün beynəlxalq öhdəliklərin və konvensiyaların pozulması" kimi qiymətləndirib. Xarici işlər naziri X-də dərc etdiyi açıqlamada bildirib ki, bununla əlaqədar ABŞ-ın İranda səfirliyi olmadığı üçün, bu dövlətdə Vaşinqtonun maraqlarını təmsil edən İsveçrənin müvəqqəti işlər vəkili İran Xarici İşlər Nazirliyinə çağırılıb. XİN rəhbəri yazıb ki, ona "terror aktının miqyası və İsrail rejiminin cinayətləri izah edilib, Amerika hökumətinin məsuliyyəti vurğulanıb. Amerika cavabdehlik daşımalıdır",– deyə nazir yazıb.

ABŞ isə İsrail Hərbi Hava Qüvvələrinin Suriyanın paytaxtı Dəməşqdəki İran səfirliyinə hücumundan əsla xəbəri olmadığını bildirib və yaxasını kənara çəkərək, ittihamları rədd edib. ABŞ Milli Təhlükəsizlik Şurasının nümayəndəsi "Axios" portalına bildirib ki, Vaşinqton bu işə qarışmayıb. NBC telekanalı xəbər verir ki, ABŞ Milli Təhlükəsizlik Şurasının sözçüsü açıqlamasında Vaşinqtonun İranın Dəməşqdəki səfirliyinə hücumdan xəbəri və bununla heç bir əlaqəsinin olmadığını bildirib.

İki amerikalı məmur isə bildirib ki, ABŞ prezidenti Co Bayden administrasiyası bunu birbaşa Tehrana çatdırıb. Onlar, həmçinin qeyd ediblər ki, İsrail təyyarələri havada olarkən Bayden Suriyadakı əməliyyatla bağlı məlumat alıb, lakin hədəfin nə olduğunu bilməyib. İki ABŞ rəsmisi əlavə edib ki, ABŞ hakimiyyəti İslam İnqilabı Keşikçiləri Korpusunun komandiri Məhəmməd Rza Zahidinin hava hücumunda öldürüldüyünə dair "müstəqil mənbədən hələ təsdiq" almayıb. ABŞ Müdafiə Nazirliyinin rəsmisi isə bildirib ki, İran səfirliyinə hücumdan sonra İsrail və İran arasında hərbi əməliyyatların artması ehtimalı böyükdür.

Bu arada pilotsuz təyyarə Eylatdakı dəniz bazasına hücum etməyə cəhd edib. İsrail Müdafiə Qüvvələrinin sözçüsü Daniel Haqari pilotsuz təyyarənin İranda istehsal edildiyini və hücumun arxasında Tehranın durduğunu bildirib. "Bu, çox ciddi insidentdir", - deyə o əlavə edib və İsrail ordusunun Eylat bölgəsində hava hücumundan müdafiəsini təkmilləşdirmək üçün hadisədən dərs alacağını vurğulayıb.

İranın BMT-dəki daimi nümayəndəliyi isə yaydığı açıqlamada bildirib ki, İran İsrailin ölkənin Dəməşqdəki konsulluğuna hücumundan sonra qətiyyətli cavab vermək kimi ayrılmaz hüququnu özündə saxlayır.

Rusiyanın TASS informasiya agentliyinin istinad etdiyi bəyanatda qeyd edilir ki, hücumun nəticələrinə görə bütün məsuliyyət İsrailin üzərinə düşür. Daimi nümayəndəlik BMT Təhlükəsizlik Şurasını İsrail tərəfinin hərəkətlərini ciddi pisləməyə, habelə bu cinayəti törədənləri dərhal məsuliyyətə cəlb etməyə çağırıb.

İsrailin İran diplomatik korpusuna hücumu ilə bağlı Rusiya Xarici İşlər Nazirliyi də bəyanat yayıb. Sənəddə deyilir ki, Moskva İsrailin İranın Suriyadakı konsulluq korpusuna raket zərbəsi endirməsini kəskin şəkildə pisləyir. "Biz toxunulmazlığı müvafiq Vyana Konvensiyaları ilə təmin edilən diplomatik və konsulluq obyektlərinə hər hansı hücumu qəti şəkildə qəbuledilməz hesab edirik", - deyə nazirlik vurğulayıb.

Rusiya XİN-i zərbənin əhalinin sıx məskunlaşdığı əraziyə dəyməsinə və bunun mülki əhali arasında kütləvi tələfat riski yaratdığına da diqqət çəkib. Diplomatik qurum İsrailin hərəkətlərini qəbuledilməz adlandırıb və İsrail hakimiyyətini "Suriya və digər qonşu ölkələrdə təxribat xarakterli güc hərəkətləri praktikasından imtina etməyə" çağırıb.

BMT Baş katibinin nümayəndəsi Stefan Dyujarrik beynəlxalq qurumun İsrailin İranın Dəməşqdəki səfirliyinə hava zərbəsi endirməsindən hədsiz narahatlığını ifadə edib. BMT rəsmisi əlavə edib ki, təşkilata insidentlə bağlı daha çox məlumat əldə etmək və öz mövqeyini bildirmək üçün vaxt lazımdır.

"Əlbəttə ki, bu xəbərlərdən çox narahatıq, lakin münasibətimizi bildirmək, bunun doğru olduğunu ortaya çıxarmaq üçün hadisələr barədə daha çox məlumat əldə edənə qədər gözləyəcəyik", – deyə Dyujarrik bildirib. Buna baxmayaraq, Rusiyanın xahişi ilə aprelin 2-nə İsrailin İranın Dəməşqdəki konsulluğuna hücumu ilə bağlı BMT Təhlükəsizlik Şurasının iclası təyin edilib. Bu barədə Rusiyanın BMT-dəki daimi nümayəndəsinin birinci müavini Dmitri Polyanski "Telegram" kanalında məlumat yayıb.

Polyanskinin sözlərinə görə, baş vermiş hadisədən dərhal sonra iranlılar bu hərəkəti pisləmək tələbi ilə BMT Təhlükəsizlik Şurasına müraciət ediblər. Rusiya da Təhlükəsizlik Şurasının açıq iclasının çağırılmasını tələb edib. O əlavə edib ki, Maltanın sədarəti ilə keçiriləcək iclas aprelin 2-də Nyu-York vaxtı ilə saat 15:00-a (Moskva vaxtı ilə 22:00) təyin edib.

Bu arada İran vətəndaşları qisas tələbi ilə küçələrə çıxıblar. Çərşənbə axşamı gecə iki yüzə yaxın iranlı nümayişçi Tehrandakı keçmiş İsrail səfirliyi yaxınlığında, Fələstin meydanında toplaşaraq, İsrailin Dəməşqə endirdiyi hava hücumunda həlak olanların qisasını almağa çağırıb.

***İlqar RÜSTƏMOV***
***XQ***

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

## 2024-2025-ci tədris ili üçün "Hərbi tibb" ixtisasına tələbə qəbulu elan edir

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində "Hərbi tibb" ixtisası üzrə tədris əyani formada Azərbaycan dilində aparılır. Təhsil müddəti 6 ildir.

"Hərbi tibb" ixtisasına cari ildə mülki ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, sentyabr ayının 15-dək 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşdan 23 yaşadək kişi cinsli hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və hərbi vəzifəlilər qəbul edilirlər.

SƏNƏDLƏRİN QƏBULU:

"Hərbi tibb" ixtisasına qəbul olmaq istəyən namizədlər 2024-cü il aprelin 1-dən 2024-cü il aprelin 30-dək ərizə ilə Naxçıvan Dövlət Universitetində yaradılmış sənəd qəbulu komissiyasına müraciət etməlidirlər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış;
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün orta məktəbdən verilmiş arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- elektrokardioqramma;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.

QEYD:

Namizədlər hər hansı səbəbdən "Hərbi tibb" ixtisasında təhsil almaqdan imtina etdikləri halda, Naxçıvan Dövlət Universitetindən xaric olunmaları barədə öhdəlik götürürlər.

Naxçıvan Dövlət Universitetinin "Hərbi tibb" ixtisasına keçirilən müsabiqədən sonra bu ixtisas üzrə boş yerlər qalarsa, həmin yerlərin Azərbaycan Tibb Universitetinin müvafiq ixtisasına sənəd vermiş, həkim komissiyasından keçmiş və müsabiqə şərtlərini ödəmiş abitruyentlərin hesabına doldurulmasına etiraz etmirik.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN "HƏRBİ TİBB" İXTİSASINA QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR

Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Naxçıvan Dövlət Universitetinin "Hərbi tibb" ixtisası üçün keçiriləcək qəbul imtahanına hərbi həkim komissiyasında müayinədən müvəffəqiyyətlə keçmiş namizədlər buraxılırlar.

Müraciət edən şəxslərin məhkumluğu barədə arayışın alınması fakültə dekanlığının sorğusuna əsasən Müdafiə Nazirliyinin müvafiq idarəsi tərəfindən həyata keçirilir.

Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı verirlər. Qəbul imtahanı IV ixtisas qrupunun fənləri üzrə Azərbaycan dilində keçirilir.

Namizədlər "Hərbi tibb" ixtisasına Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanların nəticələri əsasında qəbul edilirlər.

"Hərbi tibb" ixtisası üzrə qəbul olmuş şəxslər 4-cü kursadək təhsil aldıqdan sonra hərbi andı qəbul edir və bütün növ təminatlarla (geyim, qida və s.) təmin edilirlər. "Hərbi tibb" ixtisasına qəbul olmuş şəxslər 4-cü kursadək Naxçıvan Dövlət Universitetində və kliniki bazalarda, son 2 ili isə birbaşa Hərbi hospitalda və hərbi şəraitdə təhsil alırlar. "Hərbi tibb" ixtisası üzrə qəbul olmuş şəxslər təhsil müddətində müəyyən edilmiş məbləğdə müavinət alırlar. Təhsili və intizamı ilə fərqlənən əlaçı kursantların aylıq müavinətlərinə müvafiq qaydalara uyğun əlavələr edilir.

Sənədlər Naxçıvan Dövlət Universitetində yaradılmış komissiya tərəfindən qəbul olunur (Ünvan- AZ7012 , Naxçıvan şəhəri, Universitet şəhərciyi, Naxçıvan Dövlət Universiteti).

Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan edildikdən sonra əlavə olaraq bildiriləcəkdir.

Əlavə məlumat Naxçıvan Dövlət Universitetinin internet saytında (www.ndu.edu.az) yerləşdiriləcəkdir.

Əlaqə telefonu- (+99436) 544 08 61 (2700), (+994) 503690000, (+994) 602088800 .

Faks: (+99436) 545 72 88.

E-poçt: info@ndu.edu.az; admin@ndu.edu.az

**Əli Tudə – 100**

# Milli bütövlük nəğməkarı

**Azərbaycan Milli Kitabxanası Mədəniyyət Nazirliyi və Yazıçılar Birliyi ilə birgə görkəmli şair-publisist, Əməkdar incəsənət xadimi Əli Tudənin anadan olmasının 100 illiyi ilə bağlı ədəbiyyat, elm və mədəniyyət xadimlərinin, yubiliyarın ailə üzvlərinin iştirakı ilə ədəbi-bədii məclis keçirib.**



Mərasimi giriş sözü ilə açan kitabxananın direktoru professor Kərim Tahirov Güney Azərbaycan demokratik hərəkatının tanınmış ziyalılarından olmuş Əli Tudənin mübariz ömür yolundan, zəngin yaradıcılığından söz açıb, poeziyamızın görkəmli nümayəndəsinin 70-dən artıq kitabının anadilli ədəbiyyatımızı ideya və mövzu baxımından zənginləşdirdiyini vurğulayıb.

Azərbaycan Yazıçılar Birliyi sədrinin müşaviri, yazıçı-publisist Sayman Aruz Əli Tudə yaradıcılığının özünəməxsusluğundan, şairin yetkin və işıqlı amalından ətraflı söhbət açıb. O, ədəbi-ictimai aləmdə Əli Tudənin həmişə ehtiramla xatırlandığını, 100 illik yubileyi münasibətilə Yazıçılar Birliyinin xatirə medalı təsis etdiyini söyləyib. AMEA Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə elmlər doktoru Esmira Fuad Əli Tudənin 1946-cı ildə Güney Azərbaycan Milli hökuməti zamanında Təbriz Filarmoniyasını yaratmasından danışıb, sonrakı illərdə azadlıq mübarizəsini ədəbiyyat cəbhəsində davam etdirrməsini qeyd edib.

Güney Azərbaycan mühacir hərəkatının təmsilçilərindən Əməkdar jurnalist Rəhim Hüseynzadə, Etibar Azəroğlu, Məmmədəli Hüseyni, AMEA Əlyazmalar İnstitunun böyük elmi işçisi Sədaqət Cahani Əli Tudə irsinin milli birliyə və Dünya azərbaycanlılarının həmrəyliyinə ideya-mənəvi təsirindən söz açıblar. Azərbaycan Yazıçılar Birliyinin İrs komissiyasının sədri Sona Xəyal, şair-publisist Fəxrəddin Meydanlı və digərləri Əli Tudənin nisgilli həyatından, nikbin yaradıcılığından bəhs edərək, xatirələrini söyləyiblər.

Məclisdə yubiliyar şairin şeirləri səsləndirilib. Milli Kitabxananın Azərbaycanın bütövlük nəğməkarı Əli Tudə barədə hazırladığı "Əli Tudə-100" elektron məlumat bazasının təqdimatı olub.

***T.RÜSTƏMLİ***
***XQ***

## "Səbail Mebel" ASC səhmdarlarının nəzərinə!

"Səbail Mebel" ASC səhmdarlarının növbəti ümumi yığıncağı 24 may 2024-cü il saat 10.30-da keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2021-2023-cü illərin maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin iş günləri, 050- 370-71-17 nömrəli telefonla əlaqə saxlayaraq tanış ola bilərlər.

Əlaqə telefonu – 050–370–71–17.

Ünvan – Bakı şəhəri, Səbail rayonu, Ə.Əlizadə küçəsi 6/8.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 68 (30472) 3 aprel 2024-cü il, çərşənbə

İdman

# AFFA-ya yeni prezident seçilib

**Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) yeni prezidenti müəyyənləşib.**



Qurumun Hesabat-Seçki Konfransında bu vəzifəyə yeganə namizəd Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti və "Neftçi"nin Müşahidə Şurasının sədri Rövşən Nəcəf seçilib.

Qeyd edək ki, R.Nəcəf bu postda Rövnəq Abdullayevi əvəzləyib.

# UEFA klublarımıza 23,2 milyon manat ödəyib

**UEFA-nın ötən il Azərbaycan klublarına ödədiyi vəsait açıqlanıb.**




Avropa futbol qurumu 2023-cü ildə komandalara, ümumilikdə 23 milyon 222 min 116 manat ödəyib. Bu vəsaitdən 15 milyon 197 min 96 manatı "Qarabağ"ın, 2 milyon 196 min 52 manatı "Neftçi"nin, 1 milyon 951 min 89 manatı "Sabah"ın, 1 milyon 587 min 66 manatı "Qəbələ"nin, 696 min 264 manatı "Zirə"nin, 569 min 991 manatı "Sumqayıt"ın, 515 min 674 manatı "Şamaxı"nın, 508 min 884 manatı isə "Səbail"in payına düşüb.

Qeyd edək ki, klubların Çempionlar Liqası və Avropa Liqasında çıxışı ilə əlaqədar və digər layihələrə görə UEFA tərəfindən ayrılan maliyyə vəsaitləri AFFA-nın hesabına və müvafiq olaraq milli assosiasiya tərəfindən klubların hesabına köçürülüb.

# Pəhləvanımız "Ginnes" rekordçusu oldu

**Azərbaycan pəhləvanı Vüsal Cavadov dünya rekorduna imza atıb.**



Gənclər və İdman Nazirliyinin binasının qarşısıda baş tutan tədbirdə o, bir sıra dünya rekordlarını yeniləyib.

Pəhləvan əvvəlcə şüşə qırıntıları üzərinə çıxaraq bıçaqdan asılı olan 33 kiloqram ağırlığında çəki daşlarını qaldırıb. Sonra isə ağzında iti bıçağın kəsici tərəfi ilə avtomobili dartıb. Bununla da, V.Cavadov yeni dünya rekordunu qazanıb.

"Ginnes" rekordçuları və Dünya Rekordlar Federasiyasının nümayəndələri prosesi qeydə aldıqdan sonra təsdiqləyiblər.

***Leyla SABİRQIZI***
***XQ***

Xatirələrdə yaşayanlar

**Jurnalist kimi fəaliyyət göstərdiyim illərdə tanış olduğum bir neçə həmkarım var ki, onları həmişə xoş xatirələrlə yada salıram və daim belə olacağına inanıram. Onlar tarix elmləri doktoru, rəhmətlik İsrafil Məmmədov (mən dövlət radiosunda çalışanda o, radionun erməni dilində verilişlər redaksiyasında işləyirdi), baş redaktorumuzun köməkçisi, mərhum Cahangir Əliyev, 1973-cü ildən tanıdığım şair Oqtay Rza (o da dünyasını dəyişib), redaksiyamızın əməkdaşları Rəfiqə Əsgərova və indi haqqında söhbət açmaq istədiyim Ələsgər Cabbarovdur.**

# Unudulmaz Ələsgər müəllim

... Bilmirəm, bizdən qabaqda Əşrəf Hacıyev və Rafiq Ələkbərov kimi tanınmış qələm sahibləri, Əməkdar jurnalistlər olduğuna görə idi, ya nəyə görəsə, Hacallı kənd orta məktəbinin məzunları arasında jurnalistika sahəsində özünü təsdiq edənlər xeyli çox idi. Əlli ildən çox "Xalq qəzeti"ndə ("Kommunist") çalışmış həmkarımız Telman Heydərov, Ələsgər Cabbarov, Qalib Əhmədov, Akif Hacıyev, Akif Cabbarlı və bu sətirlərin müəllifi məhz həmin məktəbin məzunu olublar.

Ələsgər müəllimin səmimiyyətini göstərən bir xatirə. Doxsanıncı illərin 2-ci yarısında "Xalq qəzeti"ndə mənim "Kəndə getmişdim" adlı 3 yazım verilmiş və maraqla qarşılanmışdı. Bir gün baş redaktorun müavini, rəhmətlik Mahir Nəbili məni öz otağına çağırıb dedi: "Mirzəbəyli, sənin bir rubrikanın elçi daşının üstündə oturan var. "Həri" desən, bu gün möhtəşəm naharımız olacaq". Məlum oldu ki, Ələsgər müəllim də "Kəndə getmişdim" adlı yazı hazırlamaq istəyir və mənim icazəmi gözləyir. Mat qaldım. O boyda qocaman jurnalist özündən 20 yaş cavan adamdan icazə istəyirdi.

**Başqa bir fakt.** Ələsgər Cabbarov "Xalq qəzeti"nin Quba zonası üzrə bölgə müxbiri işləyəndə orada mənim köhnə tanışım olan bir iş adamı ilə söhbət eləyibmiş. Sonralar həmin adam mənimlə görüşəndə soruşdu ki, qəzetinizin Quba zonası üzrə müxbiri olan kişi sənin necə qohumundur? Dedim, heç bir qohumluğumuz yoxdur, sadəcə eyni rayondanıq. Dostum inanmaq istəmədi: "Yox, ola bilməz. Mən İttifaq Mirzəbəylini tanıyıram deyəndə, o müxbir sənin haqqında necə danışdısa, mən sizin yaxın qohum olduğunuzu güman etdim. İndi kimsə özgə biri haqqında elə səxavətlə danışmaz".

...1997-ci ildə Bakıda – Azərbaycan Milli Dram Teatrının qarşısındakı meydanda "Kitabi Dədə Qorqud" dastanının 1300 illiyi münasibətilə böyük tədbir keçirilirdi. O şənliyə redaksiyadan mərhum həmkarımız Hüseyn Əfəndi, Təranə Nuriyeva və mən göndərilmişdik. Gedib gördüm Ələsgər Cabbarov da iştirakçılar arasındadır. Onunla söhbət edirdik. Bir də gördüm bəstəkar Tofiq Quliyev kiminləsə söhbət edə-edə bizə tərəf gəlir. Yubiley haqqında böyük bəstəkarın



fikirlərini qələmə almaq üçün yaxşı fürsət idi. Ona görə də Cabbarovdan ayrılıb bəstəkara yaxınlaşdım və özümü təqdim edərək məqsədimi dedim. Tofiq müəllim "Baş üstə" dedi və xeyli aralıda dayanan Ələsgər müəllimlə salamlaşmaq üçün bir dəqiqəlik üzr istədi. Sən demə, onlar köhnə tanışlar imiş.

Yeri gəlmişkən, mən üstündə aktyorların oturduğu dəvələri görəndə məşhur mahnıdakı "Kəcavələr düzüm-düzüm düzüldü" sözlərini zümzümə etdim və Ələsgər müəllim yaxşı fikir söylədi: "Elə buradan hazırladığın yazıya da o sərlövhəni verərsən". Doğrudan da, yazım qəzetdə həmin sərlövhə ilə getdi.

Ələsgər Cabbarovun yaxşı xatirə və lətifə söyləmək qabiliyyəti var idi. Ən çox da Azərbaycan Sovet Ensiklopediyası redaksiyasında işlədiyi illərlə bağlı danışırdı. Orada çox ziyalılarla təmasları olmuşdu. Xüsusilə, böyük şairimiz Rəsul Rza ilə bağlı xatirələri təkrar-təkrar söyləyirdi. Danışırdı ki, həmişə nikbin olmağı bacaran Rəsul Rza Əli Kərimin dəfn olunduğu gün heç cür özünü ələ ala bilmirdi. Çünki Rəsul müəllim bilirdi ki, Əli Kərimin vaxtsız vəfatı poeziyamızın ağır itkisidir. Onu öz oğlu qədər istəyirdi.

... Dəfələrlə mənə demişdi ki, həmkarlarımızın qazandığı uğurların təməlində öz qabiliyyətləri ilə yanaşı, jurnalistika fakültəsində aldıqları təhsil də dayanır. Səninlə mən isə jurnalist təhsili almadan burada nəyəsə nail oluruq. Xatırladım ki, Ələsgər Cabbarov Neft Akademiyasının məzunu olsa da, "Azərbaycan gəncləri" qəzetində, "Elm və həyat" jurnalında, eləcə də Azərbaycan Sovet Ensiklopediyasında çalışmışdı. 1992-ci ildən sonra isə "Xalq qəzeti"ndə işləyirdi.

**Sonda.** Ələsgər müəllimin mərhum oğlunu Nardaranda dəfn edirdik. Meyit məzara qoyulanda hamının diqqəti mollada və ya qəbirdə olsa da, mənim gözüm Ələsgər müəllimdə idi. Ona görə də onun halının pisləşdiyini mən daha tez gördüm və qolundan tutdum. Mənə baxdı və astadan dedi: "Mənim növbəmi əlimdən aldı".

Allah hər ikisinə rəhmət eləsin! "Ələsgər müəllimi unutmaqmı olar?"

***İttifaq MİRZƏBƏYLİ***



# Xoşbəxtliyə nəğmə oxuyan qaranquş

**Yazda hər səhər açıq pəncərədən yataq otağına dolan qaranquş nəğmələrini kim eşitməyib? Eyvana, pəncərə önünə qonaraq səhəri nəğməsi ilə salamlayan haçaquyruq qaranquşlar baharın müjdəçisi hesab olunur.**

Novruzun ilk günlərindən onlara rast gəlmək, səhərlər xoş səslərini eşitmək mümkündür. Mart ayından sentyabr ayına qədər onları Azərbaycanda görə bilərsiniz. Adətən sentyabrda isti ölkələrə uçmağa hazırlaşırlar, oktyabrda isə tək-tək hallarda ona rast gəlmək olar. Qaranquş həşəratlarla qidalanır, yay fəslində orta hesabla yarım milyondan bir milyona qədər mığmığa, ağcaqanad və mənənə ovlayır.

Qaranquş təbiətin ən gözəl və xoş müjdəli quşlarından biridir. Onlar köhnə binalarda, evlərin damında, ağaclarda, taxta dirək və ya bir çardağın altında yuva qururlar, lakin əsasən bayırda olmağı sevirlər. Hava dəyişməsindən, ildırım çaxmazdan öncə qaranquşlar alçaqdan uçurlar. Onların bu hərəkəti yağış əlaməti kimi qəbul edilir. Lap uşaqlıqdan həmişə deyirlər ki. qaranquş yuvasına toxunmayın. Kim ki, onun yuvasına toxunsa, heç vaxt xeyir tapa bilməz.

Məşhur gürcü yazıçısı Nodar Dumbadzenin məhbusların həyatından bəhs edən "Ağ bayraqlar" adlı əsəri var. Yazıçı həmin əsəri qələmə almaq üçün özü iki il könüllü olaraq məhbus həyatı yaşayıb. Məhbəsdə olduğu müddətdə yazıçı müşahidə edib ki, qaranquşlar heç vaxt dustaqxananın ərazisində yuva qurmur. Hətta maraq üçün hündür bir təpənin üzərinə qalxıb görür ki, yaxınlıqdakı kəndin üzərində qaranquşlar uçuşurlar, nəğmə oxuyurlar, yuva qururlar, amma bir qaranquş da dustaqxananın ərzisində yuva qurmur. Dama qalxıb baxır ki, bəlkə, orda yuva qurublar, görür ki, orada da yoxdur.

Sən demə, qaranquş o yerdə, o ağacda, o həyətdə yuva qurur ki, orda xoşbəxtlik var. Adi quşda intuisiyaya bax!

Kaş bütün ocaqlarda, bütün evlərin pəncərələrində, eyvanlarda qaranquşlar yuva qursunlar!

***Süleyman QARADAĞLI***

# Şahdağ Turizm Mərkəzinə də yaz gəlib

**Bu il aprelin 1-dən etibarən mərkəzdə qış mövsümünün bağlanışı elan edilib və bütün xizək yamacları fəaliyyətini mövsümi olaraq yekunlaşdırıb.**



Bundan əlavə mərkəzdəki "Gaya Residences" və "Zirvə" hotelləri də yay mövsümünün açılışınadək fəaliyyət göstərməyəcək. "Shahdag Hotel & SPA" isə ilboyu Şahdağda istirahət etmək istəyənlərin xidmətindədir.

Şahdağ Turizm Mərkəzində artıq yay mövsümünün hazırlıqlarına başlanılıb.

***XQ***

Hava



# Apreldə də yağmursuz və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən aprelin 3-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Mülayim cənub-şərq küləyi əsəcək.**

Gecə 6-11°, gündüz 14-19° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 759 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 6-11°, gündüz 19-24°, dağlarda gecə 2-7°, gündüz 12-17° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Sağlamlıq

# Pəhrizlə başla cəngə – zərbə endir xərçəngə

**Mütəxəssislər onkoloji xəstəliklərin səbəblərinin 60 faizinin müasir qidalar olduğunu sübut ediblər. Eyni zamanda, əsas hansı qidalardan uzaq durmaq lazım olduğunu açıqlayıblar.**



Öncə bilmək lazımdır ki, bir qidanın, hətta zərərli olsa da, çox yeyilməsi xərçəng əmələ gətirmir. Xərçəng çox mürəkkəb prosesdir, onun yaranmasında genetika və digər faktorlar var. Amma xüsusi zərərli qidalar qrupu var ki, onları daim yemək bəzi orqanlarda xroniki iltihab yarada bilər. Qırmızı ət, termiki işlənmiş, emal edilmiş ət məhsulları – kolbasa, sosis, bekon, hisə verilmiş və s.

Elm sübut edib ki, gündə 100 qram belə ət məhsullarını yemək mədə-bağırsaq, süd vəzi xərçəngi riskini 20 faiz artırır. Deməli, hər gün 3 sosis, 100 qram kolbasa və ya qızardılmış ət yeyənin xərçəngə tutulma ehtimalı daha çoxdur. Bu qidalarda olan natrium və digər zərərli maddələr mədə xərçənginin səbəbi ola bilər.

Bu qidalardan birdəfəlik imtina etməliyikmi? Hər gün 50–100 qram kolbasa, qırmızı ət və kabab yemək təbii ki, olmaz. Əgər sizin gündəlik rasionunuz faydalıdırsa, meyvə, tərəvəz yeyirsinizsə, həftədə 1 dəfə 1–2 dilim kolbasa ilə xərçəng əmələ gəlməz. Eləcə də alkoqol, qazlı içkilər ağız, dil, boğaz, mədə, bağırsaq və qaraciyər xərçəngi riskini artırır.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3871
SİFARİŞ 710
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00